SƏRDAR CƏLALOĞLU

YAŞAMAĞA UTANANLAR



Sərdar Cəlaloğlu

YAŞAMAĞA UTANANLAR

"Belə yaşamağa utanıram"

Müəllifdən

İnsan bəzən elə bir nöqtəyə çatır ki, yaşamaqla yaşamağa davam etmək arasında görünməz bir uçurum yaranır. Həyatın özü ağırlaşır, nəfəs almaq belə borca çevrilir. O an insanın içində qəribə bir səs doğulur – nə qışqırır, nə susur, sadəcə deyir: "Belə yaşamağa utanıram."

Bu kitab həmin səsin tarixçəsidir.

Burada toplanan hekayələr nə qəhrəmanlıq tərifidir, nə də faciə estetikasının nümayişi. Bunlar insanın öz vicdanı ilə tək qaldığı anların xronikasıdır. Hər bir hekayə bir qapıdır – aralı, işıqlı, amma keçilməsi ağır. O qapının o üzündə ölüm yoxdur; o üzündə insanın öz həqiqəti dayanır.

Biz çox vaxt ölümü qorxu kimi görürük, amma bəzən ölüm qorxudan daha mərd, daha dürüst olur. Bəzən yaşamaq – məğlubiyyətin, susqunluğun, əyilmənin davamıdır. Bəzən ölmək – ləyaqətin son cümləsi.

Bu kitabda ölənlərdən çox, ölümü seçməyən, amma yaşamağa da razı olmayanlar danışır. Onlar nə qəhrəman olmaq istəyiblər, nə də əfsanə. Sadəcə, öz vicdanlarının yükünü daşıya bilməyən insanlar olublar. Onların hekayələri bizi təkcə kədərləndirmir – bizi silkələyir, sorğu-suala çəkir, özümüzə qaytarır.

Çünki hər birimiz içimizdə bir gün o cümləni pıçıldaya bilərik:

"Mən yaşamağa utanıram."

Bu kitab həmin pıçıltının haradan gəldiyini, hara getdiyini və insanı hansı qapının ağzında saxladığını anlamaq cəhdidir.

Əgər bu səhifələri açmısınızsa, deməli, siz də o qapının işığını görmüsünüz.

İndi içəri keçmək vaxtıdır.

I HİSSƏ

“QARANLIĞIN İÇİNDƏ İNSAN”

Bu hissə insanın daxili faciələrini, psixoloji çöküşlərini, həyatla ölüm arasındakı görünməz sərhədi araşdırır.

ARTIQ ADAM

Xəstəxananın həyətinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə dayanıb asta-asta reanimasiyada yatan xəstədən danışırdılar.

Qadınlardan biri – deyəsən xəstənin anası idi ... "Yazıq oğlum, nə gün gördü ki…" amma onun süni şəkildə ağladığı kənardan dərhal hiss olunurdu. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz adamlar belə asanlıqla sezərdi.

Bəzənib-düzənmiş, ətrafdakılara naz satmaqla məşğul olan qız – yəqin ki, bacısı idi – həm cavab, həm təskinlik, həm də özlərinə bəraət qazandırmaq məqsədilə mızıldandı:

– Günah özündədir… az içərdi…

Digər bir cavan qadın sakitcə başını aşağı salıb dərin xəyallara dalmışdı. Üzündə dərin bir peşmançılıq vardı. Sanki bu günə qədər etdiklərinin yanlış olduğunu indi anlamışdı. Amma artıq çox gec idi. Sonrakı peşmançılıq heç vaxt fayda vermir. Bu qadın xəstənin həyat yoldaşı idi.

Yanında 7–10 yaşlarında iki oğlan uşağı dayanmışdı. Göz yaşları sel kimi axırdı. Hamının başı söhbətə qarışdığından onlara təsəlli vermək heç kimin yadına düşmürdü. Digər qohumlar isə xəstədən çox, xəstənin anası və bacısının xəstəxanaya gəlmək üçün çəkdikləri "əziyyətə" işarə vururdular.

Kişilərin arasında da oxşar söhbətlər gedirdi. Bahalı brend kostyum geymiş, gözündə optik eynək olan, kənardan çox təkəbbürlü görünən orta yaşlı bir kişi – deyəsən xəstənin böyük qardaşı idi – soyuqqanlılıqla:

– Həyatı yanlış yaşamağın axırı budur… – dedi.

Sanki caniyə ədalətli cəza vermiş bir hakim kimi başını dik tutub ətrafındakıların başı üzərindən uzaqlara baxırdı. Digərləri onun hər sözünə "Bəli, bəli, tamamilə düzdür" deyərək rəğbətini qazanmağa çalışırdılar.

Bir başqası – xəstənin yaxın dostu – asta səslə:

– Heyif… çox yaxşı oğlan idi… – dedi və ətrafdakılara baxıb sanki özünə tərəfdar axtardı. Amma heç kəs onun fikrini bölüşmədi.

Qonşulardan biri isə sərt şəkildə:

– Yaxşı oğlan narkotik qəbul etməz, içki düşkünü olmaz… – deyərək xəstənin dostunu susdurdu. Üstəlik ona şübhəli nəzərlərlə baxıb sanki "Sən də onlardansan" deyə hökm verdi. Xəstənin dostu qorxudan bir neçə addım geri çəkildi.

Digər qohumlar isə səssizcə yuxarıdan gələcək xəbəri gözləyirdilər. Üzlərindən hiss olunurdu ki, əslində xəstəyə görə yox, onun varlı və vəzifəli qardaşına görə oradadırlar.

Yaxın qohumlardan biri ürəyində təkrar edirdi:

– Bu da nə ölən kimi ölür, nə də dirilən kimi dirilir…

Hər dəfə xəstənin yanından bir xəbər gətirən həyətə çıxan kimi hamı onun ətrafına toplaşır, sorğu-sual edirdi. Əslində onları maraqlandıran xəstənin nə vaxt öləcəyi idi. Xəstə yaşadıqca "qızıl kimi vaxtlarını" boş keçirdiklərini düşünür, narahat olurdular.

Ticarətçi olan qohumlardan biri beynində hesablayırdı:

– Gör nə qədər qazancdan qaldım…

Başqa biri məşuqəsi ilə görüşməyə tələsdiyindən ürəyində xəstəyə deyirdi:

– Əşi, ölürsən ol… bizim də canımız qurtarsın… bütün işlərimi korladın…

Xəstənin bir neçə saatdan artıq yaşamayacağı xəbəri yayılanda tələm-tələsik özlərini "qohumcanlı", "canıyanan" kimi göstərmək üçün xəstəxanaya gələnlər, xəstənin hələ də yaşadığını eşitdikcə

ürəklərində elə bir söyüş qalmırdı ki, ona ünvanlamasınlar. Sanki onun ölməsi yaşamasından daha çox maraq doğururdu.

Hətta bəzi qohumlar adamın bu dünyada olduğundan elə bu gün xəbər tutmuşdu. Onlar üçün xəstənin ölümü-qalımı maraqlı deyildi. Onları düşündürən yalnız yas mərasiminin xərcləri, gələcək adamların sayı və veriləcək ehsanın menyusu idi.

Hava buludlu idi, ara-sıra çiskin yağırdı. Elə bil buludlar yaxınları tərəfindən tərk edilmiş, ömrünün çiçəklənən vaxtında bu dünyadan gedən gəncin halına yanır, onun üçün göz yaşı axıdırdı.

Qohumlardan bəziləri yarım saat gözləyəndən sonra:

– Deyəsən, bu tezliklə ölməyəcək… – deyib bir-bir bəhanə ilə dağılışmağa başladılar.

Bəziləri isə xəstənin böyük qardaşına yaltaqlıq etmək üçün zorla orada dayanırdı. Amma ürəklərində ağır vəziyyətdə olan xəstəni hər cür söyüşə qonaq edirdilər. Hətta bəziləri gəncin ölümünü gözləmədən onun gorunu söyməyə başlamışdı.

Camaatdan bir qədər aralıda nimdaş paltarlı, arıq bir oğlan dayanmışdı. Əllərini qoynuna qoyub günahkar adamlar kimi başını aşağı salmış, dərin fikirlərə dalmışdı. Üzündən görünürdü ki, yuxarıda yatan xəstə ilə çox yaxın əlaqəsi var. Əlindən gəlsə, onunla ölərdi. Ya da onun yaşaması üçün hansı orqan lazımdırsa, təmənnasız verərdi.

Kasıb idi, pulu yox idi… amma dağ kimi ürəyi, damarlarında qaynar qanı, sağlam orqanları vardı. Bunlar isə çox böyük dəyər idi.

Nəhayət, heç kəsə demədən müalicə həkiminin yanına qalxdı:

– Həkim… o mənim yaxın dostumdur. Çox gözəl insandır. Onun yaşaması üçün nə lazımdırsa, mən hazıram. Hətta onun əvəzinə ölməyə belə razıyam… – dedi və göz yaşlarını saxlaya bilmədi.

Həkim bu gəncin səmimiyyətini təcrübəsindən hiss edirdi. Onu həm də təəccüb götürmüşdü:

"Necə ola bilər ki, yad biri bu qədər canıyanan, xəstənin yaşaması naminə öz sağlamlığından keçməyə hazır olsun, xəstənin yaxın qohumları yalnız onun nə vaxt öləcəyini gözləsin? Onun yaşaması heç kimin vecinə olmasın?"

Xəstə 30–35 yaşlarında bir kişi idi. Həddindən artıq arıqlamışdı, qabırğaları sayılırdı. Rəngi sap-sarı idi. Qarnına su yığılmış, çətinliklə nəfəs alır, huşu alaqaranlıq vəziyyətində idi. Həkimlər deyirdilər ki, xəstə həkimə çox gec müraciət edib, qaraciyər və böyrəklər artıq öz funksiyalarını itirib.

Onun bu vəziyyətə düşməsinin səbəbi ağır vərəm və şəkər xəstəliyi ilə yanaşı narkomaniya və alkoqolizm qurbanı olması idi. Əslində alkoqolizm və narkomaniya sosial xəstəlikdir – həyatını düzgün qura bilməyənlərin, sosial maneələri aşmaq gücündə olmayanların düşdüyü bir bataqlıq. Xüsusən ailə və dövlət vaxtında belə insanlara yardım əli uzatmayanda son, demək olar ki, hamı üçün eyni olur: şəxsiyyətin deqradasiyası və orqanik pozğunluqlar.

Görünür, bu xəstənin də həyatı hamar olmamışdı. Erkən yaşlarından həyat ona yalnız sərt üzünü göstərmiş, heç kim ona kömək əli uzatmamışdı. Belə adamlar dəryada fırtınaya düşmüş qayıq kimidirlər – sağ qalmaları yalnız möcüzə ola bilər.

Xəstə huşsuz vəziyyətdə küçədən təsadüfən tapılıb xəstəxanaya gətirildiyindən, ailə üzvləri onun keçmişi barədə bir kəlmə belə danışmamışdı. Üstəlik, suallara aqressiv cavab verdikləri üçün həkim xəstə haqqında ciddi məlumat əldə edə bilməmişdi.

İndi isə xəstə üçün həyatını qurban verməyə hazır olan yaxın dostun ortaya çıxması həkim üçün göydəndüşmə idi. Həkim gəncin qolundan tutub kabinetinə apardı. Termosdan çay süzüb birini

gəncin qarşısına, birini də öz stolunun üstünə qoydu. Tərəddüdlə soruşdu:

– Sən xəstənin keçmişi haqqında nəsə bilirsən? Onun müalicəsi üçün dəqiq məlumat lazımdır.

Gənc bir neçə dəqiqə susdu. Gözlərindən keçmişə – o xoşbəxt günlərə getdiyi hiss olunurdu. Az əvvəl kədərdən göz yaşları axan üzündə indi zəif bir təbəssüm görünmüşdü. Görünür, yadına çox dəyərli xatirələr düşmüşdü.

Həkim əlavə etdi:

– İstəsən, heç nə deməyə də bilərsən. Ailəsi də bir söz demədi.

Gənc başını qaldırdı:

– Yox… əgər dediklərim bir saat da olsa dostumun ömrünü uzadacaqsa, saatlarla danışaram.

Həkim kreslosunda rahat oturdu, maraqlı bir hekayə eşidəcəyinə əmin idi.

Xəstənin adı Azad idi. O, danışan gənclə eyni məhəllədə böyümüş, uşaqlıqdan yaxın dost olmuşdular. Azad ürəyini isidən yeganə dostuna ailəsi haqqında hər şeyi danışmışdı.

Onlar üç bacı, iki qardaş idilər. Ailələri imkanlı, valideynləri təhsilli və cəmiyyətdə hörmət qazanmış insanlardı. Demək olar ki, heç bir sosial problemləri yox idi.

Azadın böyük qardaşı ailənin ilk övladı olduğundan ona xüsusi münasibət vardı. Valideynlər və bütün qohumlar yalnız böyük qardaşı sevir, ona qayğı göstərirdilər. Elə bil evdə tək oğlan uşaq o idi.

Əslində bu, Azadı sevindirirdi. Çünki o, böyük qardaşını çox sevirdi, onun üçün ölümə getməyə belə hazır idi. Uşaqlıqdan qardaşının bütün günahlarını öz üstünə götürür, cəzalanmasın deyə özünü günahkar çıxarırdı. Əksinə, etdiyi bütün yaxşılıqları qardaşının adına yazırdı. Hamı elə bilirdi ki, Azad vecsiz, çətin tərbiyə

olunan, qabiliyyətsiz bir uşaqdır. Böyük qardaş isə tayfanın göz bəbəyi, ailənin ümid yeri idi.

Böyük qardaş dərslərini yaxşı oxuyurdu, amma çox təkəbbürlü, eqoist, özünə vurğun, ərköyün biri idi. Azaddan qat-qat yaraşıqlı, fiziki cəhətdən daha yaxşı inkişaf etmişdi. Azad onun kölgəsində sanki yox idi. Ata-ana yalnız böyük qardaş haqqında düşünür, onun bütün arzularını yerinə yetirirdilər.

Artıq böyük qardaş universitetin hüquq fakültəsinin son kursunda idi. Tezliklə dövlət imtahanı verib çoxdan arzuladığı hakimlik fəaliyyətinə başlamağı düşünürdü. Atası da lazımi adamlarla danışmışdı – onun hakim olması üçün heç bir problem olmayacaqdı. Hətta ona hədiyyə olaraq bir "Mercedes" də almışdı. Azad isə qardaşının maşınına yalnız yumaq lazım olanda toxuna bilirdi.

Azad nə qədər çalışsa da, universitetə daxil ola bilməmişdi. Ona görə erkən yaşlarında özünə bir peşə seçib işləməyə başlamışdı. Qardaşından əvvəl evlənmişdi. Valideynləri onun böyük qardaşını qabaqlamasına pis baxdıqları üçün Azada toy etməmişdilər. Azad incisə də, yenə özünü günahkar bilmişdi.

Həyat yoldaşı gözəl və yaraşıqlı bir qız idi. Azaddan çox, onun ailəsinin imkanına görə bu evliliyə razılaşmışdı. Amma evləndikdən sonra Azadla ailəsi arasında soyuqluq olduğunu görəndə peşman olmuşdu, lakin taleyi ilə barışmışdı.

Azadın ard-arda iki oğlu olmuşdu. Ona insan kimi dəyər verən, təmənnasız sevgi göstərən yalnız uşaqlıq dostu və bu iki uşaq idi. Azad oğlanları naminə yaşamağa qərar vermişdi. Valideynlərinin buraxdığı səhvi təkrarlamaq istəmirdi. Ona görə uşaqlıqdan oğlanlarını bir-birinə sevgi və qayğı ilə böyüdürdü.

Həyat yoldaşının oynaq xasiyyəti onu narahat etsə də, bunu üzə vurmurdu. Bəzən onu çox qısqanırdı, bunun üçün ciddi əsasları var idi, ancaq uşaqlar naminə çox şeyə göz yumurdu. Qadının

gözü küçələrdən yığışmırdı. Yol gedəndə belə, Azaddan daha yaraşıqlı və imkanlı birini görəndə ona naz satmaqdan çəkinmirdi. Bəzən Azadın bunu hiss etməsini belə vecinə almırdı.

Günlər gah kədər, gah qayğı ilə keçirdi. Azad ürəyini yalnız dostuna açа bilirdi. Onunla dərdləşir, dəfələrlə böyük qardaşı ilə fəxr etdiyini, onu çox sevdiyini, özünə arxa-dayaq bildiyini deyirdi. Hətta xəyalında pul qazanacağı gün qardaşına bahalı maşın alacağına söz vermişdi.

Ata-anası, bacıları və qardaşı sanki Azadı görmürdülər. Heç kəs onunla maraqlanmır, kirayədə qaldığı evə gəlmir, ad günlərində belə yadlarına salmırdılar. Elə bil həyatda belə bir insan yox idi.

Azad fərqinə varsa da, bunu normal qəbul edir, hər şeydə özünü günahlandırırdı:

“Kaş ali təhsil alsaydım… kaş ata-anamın razılığı olmadan tez evlənməsəydim… kaş onlara daha çox qayğı göstərsəydim… bəlkə də başqa münasibət görərdim…”

Dostu isə Azadın ailəsini yaxşı tanıyırdı. Onların eqoist, meşşan insanlar olduğunu bilirdi. Azada olan münasibət də bununla bağlı idi. Onlar ali təhsili olmayan Azadın öz övladları olmasından utanır, əksinə böyük oğulları haqqında hər fürsətdə ürəkdolusu danışırdılar.

Adi günlərin birində Azad pis xəbər eşitdi. Böyük qardaşı dostları ilə növbəti kef məclisindən qayıdarkən yolda qəza törətmiş, maşınla bir nəfəri vurub öldürmüşdü. Gənclər hadisə yerindən qaçsalar da, maşını görən olmuşdu.

Azad bu xəbəri eşidən kimi qan-tər içində atasıgilə qaçdı. Onsuz da Azaddan zəhləsi gedən valideynləri onu görən kimi qışqırdılar:

– Nə var? At ölüb, itlərin bayramıdır? Qardaşının başına gələnlərdən sevinirsən? Onun bütün əziyyəti boşa gedəcək! Həbsxana-

ya düşsə, bir daha hüquq sistemində işləyə bilməyəcək! Görək onu həbsdən necə qurtararıq?!

Valideynləri bu sualın cavabını tapmağa o qədər aludə olmuşdular ki, Azadın orada olması belə yadlarından çıxmışdı.

Azad sakit səslə dedi:

– Mən ölmüşəm… qardaşım həbs olunsun?

Atası təəccüblə ona çevrildi:

– Sənin nə gücün, nə imkanın, nə hörmətin var ki, qardaşını həbsdən xilas edəsən?

Azad başını aşağı saldı:

– Mənim pulum, tanışım, hörmətim yoxdur. Amma qardaşıma qurban edəcəyim bir canım var. Qəzanı mənim törətdiyimi deyəcəyəm. Mənim həbsdə və ya azadlıqda olmağım önəmli deyil. Amma qardaşımın gələcəyi məhv ola bilər. Eybi yox, mən həbsə gedərəm. O hakim işləyəndə azadlığa çıxmağıma kömək edər.

Azadın dedikləri ailənin üzərindən böyük bir yükü götürdü. Kədər-qəm yerini sevincə verdi. Azadın həbs olunması heç kimdə narahatlıq yaratmadı. Məsələni Azadın dediyi kimi yoluna qoydular.

Tezliklə məhkəmə oldu və Azad içkili vəziyyətdə, sürücülük vəsiqəsi olmadan qəza törədib bir nəfərin ölümünə səbəb olduğuna görə 10 il həbs cəzası aldı. Məhkəməyə yalnız Azadın dostu gəlmişdi. Qardaşı və valideynləri məhkəməyə gəlməyi özlərinə əziyyət bilmişdilər.

Azad özünü qəhrəman kimi hiss edirdi. Düşünürdü ki, bu gündən hamı ondan danışacaq, fədakarlığı qardaşının və valideynlərinin ona münasibətini dəyişəcək, ona bu günə qədər göstərmədikləri hörmət və qayğını göstərəcəklər. Hətta bəlkə də qardaşını sevdikləri kimi onu da sevəcəklər.

Həbsxana həyatı Azadın düşündüyündən daha ağır imiş. Orada verilən yeməyi yeyə bilmirdi. Əvvəllər ayda bir dəfə yanına gələn

həyat yoldaşı indi iki-üç ayda bir görünürdü. Valideynləri isə "böyük qardaşa problem olar" deyə həbsxanaya baş çəkmirdilər.

Azad yavaş-yavaş depressiyaya düşürdü. Özünü tənha hiss edirdi. Yalnız uşaqlıq dostu onu tərk etməmişdi. İmkanı olmasa da, həftədə bir dəfə onun yanına gəlir, yemək gətirirdi.

Azad həbsxanada çox arıqlamışdı. Digər məhbuslardan vərəmə yoluxmuşdu. Müalicə üçün çoxlu pul lazım idi, amma heç kim ona sahib çıxmırdı. Böyük qardaşı elə davranırdı ki, sanki onun qardaşı olmamışdı. Artıq hakim işlədiyini eşitmişdi, amma Azadın azadlığa çıxması üçün heç bir cəhd etmirdi.

Həyat yoldaşı ilə bağlı dostundan eşitdiyi xəbər isə onu tamamilə məhv etmişdi. Qadın:

– Məni qoyub həbsxananı seçmisənsə, mənə sənin kimi ər lazım deyil, – deyib boşanmaq qərarı vermişdi.

Hətta rəsmən boşanmadan özünə yeni sevgili tapmışdı, günlərini onunla kef məclislərində keçirirdi.

Azadın yeganə ümidi oğlanları idi. Onlar isə çox kiçik idilər. Əllərindən heç nə gəlmirdi. "Böyüyəndə kömək edərlər" düşüncəsi xəyaldan başqa bir şey deyildi.

Xəstəlik bir tərəfdən, ona qarşı olan etinasızlıq digər tərəfdən Azadı içindən yeyirdi. Hətta özünə qəsd etməyi belə düşündü, amma uşaqları gözünün önünə gələndə:

– Yox… ölümümlə onları üzməyə haqqım yoxdur… – deyə fikrindən daşındı.

Bir gün həbsxananın həyətində bir kənara çəkilib dərin fikirlərə dalmışdı. Dustaqlardan biri ona yaxınlaşıb dedi:

– Qardaş, yüz fikir bir borcu ödəməz. Bunun bir yolu var: elə yaşa ki, həyatın etibarsız üzünü görməyəsən.

Azad mexaniki olaraq soruşdu:

– O necə olur?

Məhbus ona bir siqaret uzatdı:

– Ala… bütün qəm-kədərin düşməni budur.

Azad düşünmədən siqareti aldı. Bir neçə dəqiqə sonra canına qəribə bir rahatlıq yayıldı. Ətrafı qaranlıq, yumşaq bir aləmə çevrildi. İndiyə qədər ona ağır gələn hər şey birdən-birə yüngülləşdi. İlk dəfə idi ki, Azad xoşbəxtliyi bütün damarlarında hiss eləyirdi.

Həmin gündən Azad narkotik qəbul etməyə başladı.

Sonralar dostuna demişdi. Dostu nə qədər onu bu yoldan çəkindirməyə çalışsa da, Azad:

– Zatən mənim yaşamağım heç kimə, hətta özümə belə lazım deyil… – demişdi.

Dostu nə qədər dəlil gətirsə də, ürəyində ona haqq qazandırırdı. Çünki valideynləri və həyat yoldaşı Azadın varlığını çoxdan unutmuşdular. Qardaşı isə onun fədakarlığı müqabilində borclu qalmasın deyə, sanki Azadın ölümünü arzulayırdı.

Nəhayət, həbsxanada keçirilən məhkəmələrin birində Azadın ağır xəstə olması nəzərə alınıb qalan cəzası şərti cəza ilə əvəz edildi və o azadlığa buraxıldı.

Amma həbsxanadan çıxmaq sevinci Azadı qapıda tərk etdi.

Onu qarşılamağa heç kim gəlməmişdi. Gedəcək yeri də yox idi. Valideynləri onu çoxdan unutmuşdu. Həyat yoldaşı başqa kişilərlə yaşayırdı. Azada küçə həyatını seçməkdən başqa yol qalmamışdı.

Azad həmin gündən özünə bənzər insanlarla şəhərin uçuq-sökük evlərində, zibil atılan dalanlarda gecələməyə başladı.

Dostu onu tapıb həkimə apardı. Dövlət hesabına vərəm və şəkər xəstəliyindən müalicə almasına kömək etdi. Xəstəxana ona bahalı dərmanlar yazırdı. Azad isə apteklə danışıb həmin dərmanları yarı qiymətə satır, aldığı pulu yalnız oğlanlarına xərcləyirdi. Onları əyləncə yerlərinə aparır, geyim alırdı.

Uşaqlar dəfələrlə onun harada yaşadığını soruşsalar da, Azad demirdi. Bir dəfə böyük oğlu:

– Biz sənlə qalmaq istəyirik… – deyəndə Azad:

– Yox, ananızın yanında qalın. Mənim qaldığım yer uzaqdır, məktəbə gedib-gəlmək sizə çətin olar… – deyib başından eləmişdi.

Azad digər "bomj" tanışları ilə birlikdə narkotik və spirtli içkilər qəbul edirdi. Daxili orqanları sürətlə sıradan çıxırdı. Qaraciyərində sirroz ildırım sürəti ilə inkişaf edirdi. Ona kömək edəcək kimsə yox idi.

Fiziki ağrıları hiss etmirdi. Onu əzən mənəvi ağrılar idi: qardaşının, bacılarının, ata-anasının ondan imtina etməsi… həyat yoldaşının başqa kişilərlə yaşaması…

Azadın yaşamağa gücü qalmamışdı. Hiss edirdi ki, tezliklə öləcək. Bu isə onun yeganə ümid və sevinc mənbəyi idi. O, yaşamağa o qədər nifrət edirdi ki, ölüm onun üçün həyatın ən böyük hədiyyəsi idi.

Bir gün küçədə gecələyən yoldaşları səhər Azadın oyanmadığını gördülər. Nə qədər çalışsalar da, Azad ayılmadı. Çətinliklə nəfəs alırdı, rəngi meyit rənginə dönmüşdü. Heç bir suala cavab vermirdi.

Yoldaşları vəziyyətin ağır olduğunu anlayıb təcili yardım çağırdılar.

Xəstəxanaya çatanda artıq çox gec idi. Azada heç kim kömək edə bilməzdi. O, ağır komatoz vəziyyətdə can vermə növbəsini gözləyirdi. Elə bil Əzrayıl da valideynləri kimi onu tərk etmişdi… Ölüm növbəsi ona çatmırdı ki, çatmırdı.

Bütün həyat boyu özünü bu dünyada artıq adam kimi hiss edən Azad, ölüm yatağında bu cansıxıcı dünyadan köçəcəyi anı gözləyirdi.

Onun xəstəxananın həyətində qohum-əqrəbanın toplaşmasından, həyat yoldaşının dərin peşmançılığından, övladlarının onun

üçün tökdüyü göz yaşlarından və dostunun onun üçün hər cür fə-dakarlığa hazır olmasından xəbəri yox idi.

Bəlkə də son nəfəsində bunlardan xəbəri olsaydı… ölümünü bu qədər istəməzdi.

CƏZA

Əslində Zəhra sevib-seçdiyi oğlana ərə getmişdi, amma xoşbəxt deyildi. Sevgilisi İmran ev şəraitlərinin pis olduğunu, kasıb olduqlarını elə ilk gündən – hər cür təminat içində böyümüş Zəhradan fərqli olaraq – açıq şəkildə demiş, onu gözləyən çətinliklər barədə xəbərdar etmişdi. Amma İmrana olan məhəbbəti güc gəlmişdi. Zəhra bütün çətinlikləri dəf edəcəyinə, xoşbəxt olacağına inanmışdı. Hətta hər iki tərəfin valideynlərinin etirazına baxmayaraq, gizlicə nikah bağlayıb evlənmişdilər.

Zəhranın ailəsi bunu eşidən kimi onunla bütün əlaqələri kəsmiş, ailənin yeganə övladına toy hədiyyəsi belə verməmişdi. İmranın ailəsi isə Zəhranın evə gəldiyi gün çarəsizlikdən bu evliliyi qəbul etməyə məcbur olmuşdu. Elə ilk gündən Zəhranın xoşbəxt gələcək ümidləri suya düşmüşdü.

İmrangil fəhlə yataqxanasında ikiotaqlı dar bir mənzildə yaşayırdı. İmrandan başqa ailədə iki oğlan və bir qız uşağı vardı. Hamam-tualet qonşu ilə ümumi idi. İmranla Zəhra pəncərəsi olmayan balaca bir otağa yerləşdirildi. Digər otaq ailənin qalan üzvlərinə qaldı.

İmranın anası Zəhranın gəlin gəlməsinə açıq şəkildə narazılıq edirdi. Atası isə susmaqla kifayətlənirdi. Bacı-qardaşlar əvvəlcə bu evliliyə sevinmişdilər, amma mənzildəki darısqallıq artdıqca onlar da bu evliliyin əleyhdarına çevrilmişdilər.

Bu evdə yalnız İmranla Zəhra öz evliliklərindən razı idilər. Bir-birlərinə təsəlli verir, tezliklə hər şeyin yaxşı olacağına ümid edirdilər. İlk planları kirayəyə çıxmaq, sonra da ev almaq idi. Amma kirayəyə çıxmaq o qədər də asan deyildi. İmranın maaşı çox az idi, Zəhra işləmirdi. Ailə əsasən İmranın atasının təqaüdü ilə dolanırdı. Belə şəraitdə kirayəyə çıxmaq ağılsızlıq olardı.

Günlər keçdikcə ailədaxili söz-söhbət artırdı. Bəzən Zəhra da, İmran da evlənməklə bağlı yanlış qərar verdiklərini etiraf edirdilər. Amma sevgiləri yenidən onları ümidləndirirdi.

İki aydan sonra Zəhra İmrana həyatının ən şad xəbərini verdi – hamilə idi. İmranın uçmağa qanadı yox idi. Tezliklə ata olacaqdı. Amma bu xəbər İmranın ailəsinə çatanda əksinə, gərginlik daha da artdı.

İmranın anası haqlı olaraq soruşurdu:

– Bu uşaq harada yaşayacaq?

Bu suala ağıllı cavab tapmaq çətin idi. Çünki onların yatdığı otaq iki nəfərə belə dar idi. Uşağı qoymağa yer yox idi.

Zəhra ikili hisslərin təsiri altında idi. Bir tərəfdən ana olmağın sevincini yaşayırdı, digər tərəfdən yeni doğulacaq uşaqla gələcək problemlərin ağırlığı altında əzilirdi. Hətta bir dəfə İmranla razılaşıb abort etdirmək üçün həkimə də getmişdilər. Həkim ilk uşağın abort edilməsinin təhlükəli olduğunu və gələcəkdə sonsuzluq riski yaratdığını deyəndə bu fikirdən vaz keçmişdilər.

Hamiləliyin son günləri çatmışdı. Bir gecə Zəhranın doğuş sancıları başladı. İmran tələsik onu taksi ilə doğum evinə apardı.

Səlimə həkim on ildən artıq idi ki, ailə qurmuşdu, amma uşaq üzünə həsrət qalmışdı. Ərinə görə heç vaxt ana ola bilməyəcəkdi. Ərini çox sevdiyindən sonsuz qalmağa razı olmuşdu. Tez-tez uşaq götürmək barədə düşünürdülər. Beşotaqlı geniş mənzildə yaşayan cütlük özlərini kimsəsiz ada sakinləri kimi hiss edirdi. Evə qayıdanda səssiz və qaranlıq mənzil onlar üçün sanki qəbiristanlıq idi.

Zəhranın doğuşunu Səlimə həkim qəbul edəcəkdi. Övladı olmasa da, hər doğulan körpəyə öz uşağı kimi baxırdı. Bu xüsusiyyətinə görə həm iş yoldaşlarının, həm də xəstələrin böyük hörmətini qazanmışdı. Hamı Allahdan ona bir övlad verməsini arzulayırdı.

Səlimə həkim Zəhranı qəbul edib sənədləşdirməni apardıqdan sonra onu doğum otağına keçirdilər. Doğuş yeni başlamışdı. İki saata uşaq dünyaya gələcəkdi.

Səlimə Zəhra ilə danışmağa başladı. Onu ruhlandırmaq, sevincinə şərik olmaq istəyirdi. Amma ilk dəfə idi ki, birinci övladının doğulmasından sevinməyən ana ilə rastlaşırdı. Zəhra elə davranırdı ki, sanki uşaq istəmirdi.

Əvvəlcə Səliməyə elə gəldi ki, bəlkə Zəhranın çox uşağı var. Amma qadının gəncliyi bu ehtimalı inkar edirdi. Sonra düşündü ki, bəlkə Zəhra tək anadır. Amma sənədlərdə həyat yoldaşının olması bu versiyanın da üstündən xətt çəkirdi. Bəlkə uşaq qızdır? Zəhra isə:

– Yox, yoxlatmamışıq. İlk uşağımızdır, cinsiyyətinin bizim üçün nə fərqi ola bilər ki… – dedi.

Səlimə "Bəs onda niyə sevinmirsən?" sualını verməkdən özünü güclə saxladı.

Doğuşa az qalırdı. Səlimə söhbətlərlə Zəhranın başını qarışdırırdı. Uşaq doğulduqdan sonra nə etməli olduğunu izah edir, uşaq otağının ayrı, işıqlı və havalı olmasının vacibliyini deyirdi.

Zəhra birdən ağlamağa başladı.

– Biz özümüzün qalmağa yerimiz yoxdur. Ona ayrıca otağı necə təşkil edək? – dedi.

Səlimə səbəbi anladı. Həyat qəribədir: hər cür şəraiti olan Səlimə uşaq həsrətindən yanırdı, Zəhra isə uşaq sahibi olduğu üçün bədbəxt idi.

Səlimə nə qədər təsəlli versə də, Zəhranı ovundura bilmədi. Zəhra qorxulu bir gələcəyə gedən insan kimi uşaq doğulmasını gözləyirdi.

Səlimə də fikrə getmişdi. Zəhraya kömək edə bilməmək onu narahat edirdi. Gözləri doldu. Zəhra görməsin deyə otaqdan çıxdı.

Birdən ağlına qəribə bir fikir gəldi: Zəhranın uşağını övladlığa götürmək.

Sonra özünü danladı. “Köməksiz qadının vəziyyətindən istifadə etmək olmaz”, – deyə düşündü.

Doğuş başladı. Tezliklə otağı körpə qışqırığı bürüdü. Zəhra qız uşağı doğmuşdu. Bu xəbər onu daha da kədərləndirdi. Qaynanasının sözləri yadına düşdü:

– Uşaq doğub bizə əlavə problem yaradacaqsansa, heç olmasa oğlan doğ…

İmran da tez-tez “kişinin oğlu olar” deyirdi.

Zəhra sanki cinayət etmişdi. Qız doğduğu üçün cəza gözləyirmiş kimi idi.

Səlimə həkim onu təbrik etdi:

– İndi atasından yaxşı bir muştuluq alacağıq…

Zəhra göz yaşları içində:

– O oğlan gözləyirdi… – dedi.

Səlimə nə edəcəyini bilmədi. Birdən özü də istəmədən dilləndi:

– Əgər istəyirsənsə… bu uşağı mənə ver. Əvəzində nə istəsən verərik.

Zəhra əvvəlcə bunun zarafat olduğunu düşündü. Sonra Səlimənin ciddi simasını görüb:

– Yox… mən uşağımı sata bilmərəm… – dedi.

Səlimə:

– Yaxşı, onda ərinizə xəbər verək… – dedi.

Zəhra avtomatik olaraq:

– Yox… hələ deməyin… – dedi.

Otaqda tək qaldılar. Zəhra həyatını dəyişdirəcək bir qərar barədə düşünürdü: uşağı Səliməyə verib əvəzində mənzil sahibi olmaq.

Səlimə tələsdirdi:

– Vaxt daralır. Bir qərara gəl.

Zəhra titrək səslə dedi:

– Razıyam… Əgər bizə mənzil almağa kömək etsəniz, uşağı sizə verərəm.

Səlimə soruşdu:

– Bəs əriniz buna razı olacaq?

Zəhra yenidən fikrə getdi. İmran mərd idi. Nə qədər çətinlik olsa da, övladını satıb ev almağa razı olmazdı.

– Yox… o heç vaxt razı olmaz… – dedi.

Səlimə:

– Onda necə edək? – deyə soruşdu.

Zəhra artıq qərar vermişdi. Gələcək övladları naminə ilk övladından imtina etməli idi.

– Uşağın öldüyünü deyin… O bilmədən bu işi həll edək…

Səlimə bu fikrin cinayət olduğunu dedi. Amma Zəhra inad edirdi:

– Uşağı yalnız bir şərtlə verərəm: heç kim onun mövcud olduğunu bilməsin.

Səlimə bir qədər düşündü.

– Yaxşı… Bunu "atılmış uşaq" kimi qeydə alarıq. Sonra mən övladlığa götürərəm.

Səlimənin atasından qalma üçotaqlı həyət evi vardı. Ev bomboş idi, Səlimənin ora baxmağa vaxtı da yox idi. Ehtiyacları olmadığından kirayəyə də vermirdilər. Səlimə uşağın əvəzinə ata evindən imtina etməyə qərar verdi. Zəhra ilə sövdələşdilər.

Doğuşu gözləyən İmrana "qız uşağı ölü doğuldu" xəbəri verildi. İmran əvvəlcə kədərlənsə də, sonra özünü ələ aldı. Hətta bir az rahatladı – evdə onu gözləyən gərginlikdən qurtulmuşdu.

İmranı Zəhranın yanına buraxdılar. Zəhra onu görən kimi ağlamağa başladı. İmran bunun uşağa görə olduğunu düşünüb:

– Ağlama… yenə də uşağımız olacaq. Hələ çox gənciyik… – dedi.

Zəhra bir söz demədi. Günahkar baxışlarla ərinin üzünə baxdı və pıçıltı ilə:

– Mən günahkaram… Allah cəzamı verəcək… – dedi.

İmran təəccübləndi:

– Sənin nə günahın var ki? Bu Allahın işidir…

Xəstəxana İmrana bildirdi ki, istəsə, uşağı xəstəxananın hesabına dəfn edə bilərlər. O da razılaşdı, sənədləri imzaladı və Zəhranı evə apardı.

Qaynanası üzdə özünü kədərli göstərsə də, gözlərindəki gizli sevinc hissini gizlətmək çətin idi. Heç olmasa bir müddət evdə yeni sıxıntı olmayacaqdı.

İndi əsas məsələ ev idi. Zəhra İmrana "uşağı satıb ev aldım" deyə bilməzdi. O an İmran onu boşayar, hətta uşağı geri almağa çalışardı. Zəhra bir-iki günlüyə anasıgilə getmək istədiyini dedi. Hamı razılaşdı.

Zəhranın anası da qızının doğuşda övladını itirdiyini eşidib küsülülüyü kənara qoydu. Onu evlərinə götürüb qulluq etdilər.

İki gün sonra Zəhra ağlaya-ağlaya hər şeyi anasına danışdı. Anası əvvəlcə onu sərt şəkildə qınadı, dərhal uşağı geri almağı tələb etdi. Amma Zəhranın düşdüyü vəziyyəti, ərinə və ailəsinə dediyi yalanı nəzərə alıb bu fikirdən vaz keçdi.

Zəhra anasından kömək dilədi. Anası uzun tərəddüddən sonra tək övladının gələcək xoşbəxtliyi naminə ona yardım etməyə razılaşdı.

O, İmranı evlərinə çağırdı. Zəhraya çeyiz vermədiklərini xatırladıb, indi çeyiz olaraq bir ev bağışladıqlarını dedi. İmran əvvəlcə belə bahalı hədiyyəni qəbul etmək istəmədi. Kişiliyinə sığışdırmırdı. Amma Zəhra çox yalvardı, evdəki şəraiti xatırlatdı və nəhayət İmran könülsüz də olsa razılaşdı.

Bir neçə gündən sonra Zəhragil Səlimənin ata evinə köçdü.

Günlər keçirdi. Mənzil problemi həll olunsa da, Zəhra indi də ağır depressiya ilə mübarizə aparırdı. İmranın üzünə baxa bilmirdi. İmran dəfələrlə onun gözlərinə baxmaq istəsə də, Zəhra baxışlarını yayındırırdı. Ona elə gəlirdi ki, əri gözlərindən onun cinayətini oxuyacaq.

Gecələr rahat yatmırdı. Yuxuya gedən kimi kabuslar görürdü. Onu da görürdü ki, tez-tez üzünü görmədiyi qızının başına faciələr gəlir. Buna görə yatmaqdan qorxurdu. Yuxusuzluq onu əldən salırdı. Həyat bir işgəncəyə çevrilmişdi. Zəhra cəzasını gözləyən cinayətkar kimi naməlum gələcəyə gedirdi.

İmranın ailəsi ilə münasibətləri düzəlsə də, Zəhra içində ağır bir yük daşıyırdı. Allahın ona nə vaxt və necə cəza verəcəyini düşünməkdən yorulmurdu. Başına bir pislik gələn kimi:

– Yəqin bu, mənim əməlimin cəzasıdır… – deyirdi.

Satdığı övladının ağrısı ürəyinə çökmüşdü. Sağlamlığı da pozulurdu. Zəhra nadir hallarda gülürdü. Bunun səbəbini yalnız anası bilirdi.

Üç il sonra Zəhra qərara gəldi: Səlimənin yanına gedib heç olmasa uşağının sağ olub-olmadığını öyrənsin. Əgər Səlimə razı olsa, uzaqdan da olsa qızını görsün.

Doğum evinə necə çatdığını özü də anlamadı. Qapıdan geri dönmək istədi, amma qızını görmək arzusu üstün gəldi. Qəbul otağında Səlimə həkimi soruşdu.

Aldığı cavab onu sarsıtdı.

Səlimə həkim Zəhra xəstəxanadan buraxılan günün səhərisi işi tərk eləmiş, heç bir ünvan qoymadan yoxa çıxmışdı. Onun harada işlədiyi, harada yaşadığı barədə heç kəsin məlumatı yox idi.

Zəhra bu xəbəri eşidəndə sanki ikinci dəfə övladını itirdi. Köhnə yarasının qaysağı qopdu, ürəyinə qara qan axdı. Qızını bir daha görə bilməmək hissi etdiyi əməli daha da ağırlaşdırdı. Özünü əllə-

ri ilə övladını öldürmüş ana kimi hiss edirdi. Göz yaşları onu boğduqca özünü lənətləyir, Allahdan ölüm diləyirdi.

Xəstəxananın həyətində oturub saatlarla ağladı. Ora ona qəbiristanlıq kimi görünürdü. Sanki övladını burada öldürüb burada basdırmışdı.

Evə qayıdanda baş ağrısını bəhanə edib yatağına girdi. İmran çox narahat idi. Aralarındakı sevgi hələ də davam etsə də, Zəhra ona yad bir adama çevrilmişdi. Gün boyu fikrə gedir, dalğınlıqdan tez-tez qəzalar törədirdi. Yeməyi yandırır, əlini yandırır, paltarları yandırırdı. Zəhranın sonralar övladları dünyaya gəldi, amma o, uşaqlarına və ərinə laqeyd idi. Evdə bir kölgə kimi gəzirdi.

Oğlanları ilə arasında soyuqluq vardı. Zəhra həmişə özünü onların qarşısında günahkar kimi hiss edirdi. Böyük oğlu Ümid dəfələrlə ona yaxınlaşıb ürəyini açmaq istəsə də, anasının qəmli halını görüb geri çəkilirdi.

Ümid hüquq fakültəsinin üçüncü kursunda oxuyurdu. Bir dəfə tibb universitetində oxuyan dostunu görməyə getmişdi. Dostu onu tələbə yoldaşları ilə tanış etdi. Elə həmin gün Ümid qızlardan birinə qəribə doğmalıq hiss etdi. Elə bil illərdir onu tanıyırdı. Qızın adı Yeganə idi.

O gündən Ümidin yolu dəyişdi. Artıq dostu üçün yox, Yeganə üçün tibb universitetinə gedirdi. Tezliklə dostluqları məhəbbətə çevrildi. Ümidlə Yeganə üzdən bir-birinə çox oxşayırdı. Dostları zarafatla deyirdi:

– Ərlə arvadın torpağı bir yerdən götürülüb…

Ümid anasına elçi getmək istədiyini demək istəyirdi, amma Zəhranın kədərli üzü onu saxlayırdı. Nəhayət, bir gün anasının əhvalını yaxşı görüb istəyini dedi.

Zəhra sevindi. Oğlunun nə qədər böyüdüyünü indi anladı. Özünü qınadı – üç oğlunun heç birinə ana məhəbbəti verə bilməmişdi. İlk övladı ilə bağlı etdiyi əməl vicdanını illərlə yandırmışdı.

Amma indi… evə gələcək gəlin onun qızının yerini tutacaqdı. Uzun illərin ağırlığı çiynindən qalxırdı. Evdə elçilik hazırlığı başladı. İlk oğullarına gözəl toy etməyi planlaşdırdılar.

Qızın ailəsi şəhərin başqa tərəfində yaşayırdı. Kiçik ailə idi. Tək qızları vardı. Atası və anası həkim idi. Zəhra yalnız oğlunun xoşbəxtliyini düşünürdü. Qızın valideynlərinin kim olması onun üçün önəmli deyildi.

Allah onu mükafatlandırırdı. Satdığı övladının yerinə bir gəlin gətirəcəkdi. Ona öz qızı kimi baxacaq, verə bilmədiyi ana sevgisini ona verəcəkdi. Vicdan əzabından qurtulacaqdı.

Elçilik günü gəldi. Zəhra İmranın valideynlərini də ağsaqqal kimi dəvət etdi. Hamı sevinirdi. Zəhranın üzündə illər sonra ilk dəfə idi ki, gülüş vardı. Gözlərindən kədər pərdəsi çəkilmişdi. İmran da sevinirdi – gəncliyində itirdiyi Zəhrasına qovuşurdu.

Elçilik karvanı Yeganəgilin yaşadığı yeni tikilmiş binanın qarşısında dayandı. Zəhra böyük gül dəstəsi ilə hamıdan qabaq qapıya yaxınlaşdı. Bu qapının ona yeni xoşbəxtlik açacağını düşünürdü.

Zəngə toxunan kimi ürəyi sürətlə döyünməyə başladı. Köhnə baş ağrısı yenidən qayıtdı. Əlləri əsirdi. Bir daha zəngi basdı.

İçəridən gülüş səsləri gəlirdi. Bir neçə dəqiqə sonra qapı açıldı.

Zövqlə geyinmiş, saçlarına yeni dən düşmüş, xoş simalı bir qadın gülümsəyərək əl uzatdı:

– Mən Yeganənin anasıyam. Xoş gəlmisiniz…

Zəhra başını qaldırıb qadının üzünə baxdı.

Elə bil ildırım vurdu.

Qarşısında Səlimə həkim dayanmışdı.

Zəhra… öz qızını… öz oğluna almaq üçün elçiliyə gəlmişdi.

DİYƏ

Turalgil ailədə iki qardaş, bir bacı idilər. Tural sakit, həlim xasiyyətli, dalaşmağı sevməyən, dostcanlı, canıyanan biri idi. Əsas hobbisi kitab oxumaq, təbiət qoynunda təklikdə gəzmək, oğlan uşaqlarına bir o qədər də xas olmayan gül-çiçəyə vurğunluğu idi. Buna baxmayaraq, qohum-qardaş Turalı daha çox sevirdilər.

Böyük qardaşı Turalın tam əksinə – dalaşmağa meyilli, qabağından yeməyən, tez özündən çıxan biri idi. Ailənin ilki olduğundan xeyli ərköyün böyümüşdü. Necə deyərlər, yetənə yetir, yetməyənə bir daş atırdı. Tural qardaşından on yaş kiçik idi, arada bacıları doğulmuşdu.

Hər şeyin yaxşı getdiyi günlərin birində Turalgilin ailəsinə bəd xəbər gəldi. Turalın böyük qardaşını naməlum şəraitdə kimlərsə qətlə yetirmişdi. Hadisəni kimin törətməsi naməlum idi. Şahidlər yox idi. Cinayətdən çox sonra xəbər tutulduğundan hadisə yerində də kimsəyə rast gəlinməmişdi. Turalgilin ailəsi qatilin tapılması üçün çox çalışsalar da, istintaq bir iş görə bilmir, qatilin kim olmasına aydınlıq gətirmirdi. Bunun əvəzinə gündə bir şayiə yayılırdı.

Bu hadisədən bir neçə həftə sonra kənddə yaşayan imkanlı bir ailə gecəykən hamıdan xəbərsiz, qəflətən kənddən, hətta yaxın qohumlarının da bilmədiyi naməlum başqa bir yerə köçüb getdilər. Əvvəlcə bu köç heç kimin diqqətini cəlb etməsə də, çox keçmədən kənddə dedi-qodu başladı. Bu köçün Turalın qardaşının qətli ilə əlaqəli olması ilə bağlı şayiələr yayıldı. Əslində, bu şayiələrdə müəyyən əsaslar da var idi. Çünki bu ailədə də çox nadinc, ərköyün, özünübəyənmiş, dalaşqan – az qala gündə bir xoşagəlməz hadisə törədən, Turalın qardaşı ilə eyni yaşda olan bir oğlan uşağı var idi. Onun haqqında tanıyanlar: “Gora sağlam baş aparmayacaq”, – deyirdilər. Onun tez-tez yoldaşları ilə dalaşdığı, yaşının az

olmasına baxmayaraq, içkiyə meyil saldığı hamıya məlum idi. Hadisədən qabaq bu uşaqla Turalın qardaşı arasında qız üstündə çəkişmə olması ilə bağlı xəbərlər dolaşırdı. Guya hər ikisi eyni bir qızla yaxın münasibət saxlamağa cəhd edirmiş.

Yavaş-yavaş Turalgilin ailəsi də qatilin məhz həmin oğlan olduğuna inanmağa başladı və hətta bir az da irəli gedərək qatilin məhz həmin ailənin uşağı olması ilə bağlı şübhələrini işi aparan müstəntiqə bildirdilər. Müstəntiq həmin ailənin hara getməyi haqqında heç bir məlumatın olmaması və onların övladlarının bu qətldə iştirakı ilə bağlı bir şahid və ya dəlil-sübut olmamasını əsas gətirərək Turalgilin ailəsinin ehtimalına diqqət etməmişdi. Beləliklə, bu iş rəsmi olaraq açılmamış cinayət işi kimi rəfə qaldırılmışdı. Amma kənddə söz-söhbət kəsilmir, müstəntiqin həmin ailədən rüşvət alıb cinayəti gizlətməsi ilə bağlı fikirlər dolaşmağa başlamışdı.

Turalın atası dindar biri idi. Başına gələn hər bir işi Allahın yazdığı qismət kimi qəbul edir, hər addımını dinin tələblərinə uyğunlaşdırırdı. Oğlunun qətli ilə bağlı: "Hökumət bir tədbir görməsə də, Allah günahkarı cəzasız buraxmaz", – deyə özünə təsəlli verirdi. Özü bu işi müstəqil şəkildə araşdırmağı qərara alsa da, heç bir iş görə bilməmişdi. Kənddən köçən ailənin hara və nə üçün qəflətən köçməsi ilə bağlı heç kimdə az da olsa bir məlumat yox idi. Hətta onların qohumları da bu cür köçlə bağlı bir fikrə malik deyildilər. Elə bil bu kənddə belə bir ailə əzəldən olmamışdı. Turalın atası həmin ailə üzvlərinin ad və familiyaları əsasında respublika səviyyəsində axtarış aparmışdısa da, heç bir nəticə alınmamışdı. Artıq kənddə hamıda bir və eyni fikir formalaşmışdı: qatil kənddən qaçan ailənin nadinc oğlu idi.

İllər keçir, amma Turalgilin ailəsinin qatil axtarma çabası davam edirdi. Turalın atası hər işdə Qurani-Kərimi rəhbər tuturdu. O bilirdi ki, Quran qisas tələb edir. Buna görə bir gün Turalı yanına

çağırdı. Ona qardaşının qisasını alması üçün həmin ailəni axtarıb tapmasını və qardaşının qanını yerdə qoymamasını vəsiyyət elədi. Tural başını aşağı salıb nə "hə", nə də "yox" dedi. Bir tərəfdən qardaşının qatilinin cəzasız qalması onun da ruhunu incidirdi, həm də kənddə hamı onlara qınaqla baxır, sanki: "Qanları yerdə qaldı, qeyrətləri olsa, intiqamlarını alarlar; müstəntiq rüşvətlə bir cavanın qanını batırdı, heç olmasa ailəsi özü-özünün qisasını alsın", – deyə məsləhətlər verirdilər. Digər tərəfdən, Tural o qədər mərhəmətli, rəhmdil, ürəyi yumşaq, romantik təbiətli biri idi ki, nəinki adam öldürmək, heç bir qarışqanı belə əzməyə ürək etməzdi.

Vaxt sürətlə axıb keçirdi. Tural artıq ali təhsil almaq üçün sənədlərini dövlət universitetinin hüquq fakültəsinə vermişdi. O, bu fakültəni təsadüfən seçməmişdi. Hüquq kitablarından bilirdi ki, cəzanın bir funksiyası da əvəzçıxma, yəni qisasdır. Sadəcə, hüquqi cəza cəmiyyət adından həyata keçirilən bir qisasdan başqa bir şey deyil. Tural belə qisası düzgün hesab edirdi. Təklikdə yox, bütün cəmiyyətlə qardaşının qisasını almaq, cinayətkarı ədalət məhkəməsində mühakimə edib qanunla cəzalandırmaq daha ədalətli olardı. Düşünmüşdü ki, o, qatil kimi davrana bilməz, günahkar yalnız qanunla cəzalanmalıdır. Yəni qardaşının qisasını o yox, qanunlar almalıdır. Buna görə də bütün ümidləri qanunun aliliyinə, hüququn, ədalətin gec-tez zəfər çalmasına idi. O, bu fikirlərini bir neçə dəfə ailə daxilində səsləndirsə də, atası ancaq özünün qisas almasının doğru olduğunu, kənd camaatının qınağından yalnız bu yolla xilas ola biləcəklərini deyərək bir daha Turalı qardaşının qisasını almağa həvəsləndirməyə cəhd etmişdi.

Turalın anası atasından fərqli düşünürdü. İndi onun tək bir oğlu var idi. Ürəyi şəhadət vermirdi ki, bu oğlu da qatil olub həbsxanada çürüsün. O da Tural kimi dövlətin verdiyi cəzanın daha düzgün və sərfəli olduğunu düşünürdü. Hətta xəlvətdə Turalı atasının tap-

şırığını yerinə yetirməkdən çəkindirmişdi də. Bu da Turalın öz mövqeyini bir daha möhkəmləndirmişdi. Tural zorakılığa zorla cavab verilməsinin zəncirvari qan düşmənçiliyinə səbəb olacağını kitablardan oxumuşdu, ona görə atasına "baş üstə" desə də, özlüyündə heç vaxt qatil üzərində məhkəmə qurub onu öldürməyəcəyinə and içmişdi. Hadisənin baş verdiyi vaxt Tural çox kiçik olduğundan və şübhələndikləri ailənin heç bir üzvünü tanımadığından bu işin mümkün olmayacağını da bilirdi. Əlində qatil hesab edilən oğlanın heç bir şəkli belə yox idi. Günün günorta çağı qatillə rastlaşsa belə, onsuz da onu tanımayacaqdı. Ünvanları da yoxdu. Hətta şübhəli ailənin başqa bir ölkəyə köçüb getmələri ilə bağlı ehtimallar vardı. Bu ehtimal Turalı xeyli sakitləşdirirdi, sanki ağır bir yük altında əzilməkdən xilas olurdu. İlk dəfə bu xəbəri eşidəndə dərindən nəfəs aldı, sanki qardaşının intiqamını almaq öhdəliyindən xilas oldu. "Bəli, yəqin onlar bizim ölkədən başqa ölkəyə köçüblər, hətta ola bilsin, qatil heç həyatda deyil. Dünya böyükdür, mənim isə bu dünyada naməlum ünvanlı insanlar axtarmağım absurddur", – fikri Turalı daha da rahatlatmışdı. Uzun illər qisas almaq yükü altında əzilən Tural sanki azadlığa çıxmışdı. İndi o, hüquq təhsilindən başqa insanların qisasını almaq üçün istifadə edəcəkdi.

Universitetdə ilk dərs günü Turalda gələcəklə bağlı çox böyük ümidlər yaratmışdı. Onun ürəyində gələcəklə bağlı arzuları çiçəkləmiş, dünya gözünə əvvəlkindən daha rəngarəng görünməyə başlamışdı. Ona elə gəlirdi ki, hamı sevinc içindədir.

Tural ilk dərsdə təsadüfən bir qızla yan-yana oturmalı oldu. Bu günə kimi Turalda qızlara qarşı heç bir maraq olmamışdı. Həmişə evlərində qisas söhbəti – qardaşının qətli ilə bağlı söz-söhbətlər getdiyindən Turalda özünəqapanma, qaraqabaqlıq, dünyadan küskünlük yaranmışdı. Bəzən yaşamaq həvəsi belə sönürdü. Dünya ona alaqaranlıq kimi görünürdü. Ona elə gəlirdi ki, təbiətdə boz

və qara rəngdən başqa rəng yoxdur. Qəmli olmağa səbəb olmayanda belə, özünü qəmli aparırdı ki, kimsə qardaşının qətlini unutduğunu düşünməsin. Buna görə nəinki qız, hətta oğlan dostları belə yox idi. Tural daxilində ciddi bir ünsiyyət aclığı keçirirdi. Başqa adamlarla ünsiyyətə böyük ehtiyacı vardı, amma ailə qınağı onu belə ünsiyyətlərdən qaçmağa məcbur edirdi. Digər bir səbəb də ailənin yeganə oğlunu itirmək qorxusu idi ki, Tural az qala hər addımı ilə bağlı evdə hesabat verir, hər anı nəzarət altında keçir, evlə məktəb arasındakı yoldan başqa heç bir yerə getmirdi. Taytuşları kənd içində oynamağa gedəndə Tural evdə tək-tənha oturub ya kitab oxuyur, ya da divanda uzanıb televizora baxırdı. Arada bir ev işlərində anasına kömək edirdi. Tural boz və ya qara rəngdən başqa rəngdə paltar geyinməyi sevmirdi. Qardaşı qətl edilən gündən evlərində hamı belə geyinməyə adət etmişdi. Uzun illər bundan əvvəl baş vermiş hadisənin kədəri, qatil tapılıb cəzalandırılmadığından ailəni tərk etmirdi. Digər tərəfdən, qanlarının yerdə qalması ailənin hər bir üzvündə utanclıq hissi yaratmışdı. Başqa adamların yanında Tural özünü günahkar kimi aparırdı. Qardaşının qisasını ala bilmədiyindən özünü aciz, bacarıqsız hesab edirdi. Ona elə gəlirdi ki, hamı onu qınayır, biqeyrət sayırdı. Baxmayaraq ki, əslində hadisənin üstündən illər keçdiyindən kənd camaatının çoxu bu hadisəni unutmuşdu. Amma Turala elə gəlirdi ki, hamı ondan nə vaxt qisaslarını alacağını gözləyir.

İndi Tural kənddən şəhərə gəlmişdi. Sanki bir dünyadan başqasına köçmüşdü. Demək olar ki, tanımadığı, onun haqqında heç bir məlumata malik olmayan insanlar arasına düşmüşdü. İndi o görürdü ki, heç kim ona pis baxmır, heç kim ondan bir cinayət törətməsini – qardaşının qisasını almasını gözləmir. Artıq evlərində illərlə təkrarlanan qisas söz-söhbətindən də xilas olmuşdu. Hətta indi onun kənddəki kimi hər addımını izləyən də yox idi. Düzdür, demək olar hər gün ailəsi ilə telefon əlaqəsi saxlasa da, bu, nəzarət-

dən daha çox qayğı və narahatlıqla bağlı idi. Tural həyatında ilk dəfə ürəkdən gülə, ucadan danışa, sevinə bilirdi. Dünya yaşamaq üçün ona daha xoş görünməyə başlamış, həyatın qədrini indi-indi bilməyə başlamışdı. Hətta ətrafında boz və qaradan başqa rənglər olduğunun fərqinə varmışdı. Tural yoldaşları ilə ünsiyyətdə olanda ona elə gəlirdi ki, o, yenidən doğulur, bu günə qədər yaşamadığı günləri yaşayır.

Tural universitetdə ilk dəfə yan-yana bir stolda əyləşdiyi qızı altdan-altdan süzdü. Qızın çox gözəl olduğunun fərqinə vardı. Elə bil həyatında ilk dəfə idi ki, qız görürdü. Qız həm də dilli-dilavər biri idi. Şəhərdə böyüdüyündən utancaqlığı yox idi. Buna görə təzəcə tanış olduğu Turalla dil tapdı və tez də dostlaşdılar. Əslində, Tural da ilk gündən qızın xoşuna gəlmişdi. Beləliklə, ilk gündən gənclər arasında bağlılıq yaranmağa başladı. İndi Tural hər fürsətdə qızla daha çox bir yerdə olmaq, onunla daha çox ikilikdə söhbətləşmək istəyirdi. Tural hiss edirdi ki, onu görmək üçün universitetə getməyə tələsir, gözləri ilə onu axtarıb tapmayana kimi rahat olmurdu. Yaşadığı hisslər Tural üçün təzə və anlaşılmaz idi. O, buna bir anlam verə bilməsə də, bu yaşantılardan həzz alırdı. Şəhərdə hər şey onun üçün ilk və yeni olduğundan, bunu da şəhər həyatının bir xüsusiyyəti kimi qəbul edirdi.

Şənbə-bazar universitetdə dərs olmurdu. Uşaqlar bundan çox sevinirdilər. Tural isə əksinə, bu iki günü kənddəki günləri kimi yaşayır, universiteti, təzəcə tanış olduğu qızı görmək üçün bazar ertəsini, dərslərin yenidən başlanmasını səbirsizliklə gözləyirdi. İstirahət günləri qızla şəhərdə görüşmək nə ağlına gəlirdi, nə də buna cəsarət edirdi. Tural üçün əsl istirahət günləri dərsə getdiyi günlər idi. Parta yoldaşı qızla hər cür mövzudan – elmdən, mədəniyyətdən, dünya xəbərlərindən sevə-sevə danışırdılar. Tənəffüsdə belə, başqa uşaqlar kimi sinfi tərk eləmir, mümkün qədər birlikdə vaxt keçirməyə çalışırdılar.

Tural universitetin yataqxanasında qalırdı. Günəş şüaları pəncərədən birbaşa Turalın üzünə düşürdü. Tural hər gün üzünə düşən gün işığından ayılırdı. Sanki Günəş bir ana kimi Turalı yuxudan oyadır, dərsə gecikməyə qoymurdu. Növbəti istirahət günlərindən birində Tural yenə də səhərin şirin yuxusundan günəşin üzünə düşən işığından oyandı. Gözünü açan kimi pəncərədən düşən işıq gözlərini qamaşdırdı. Tural dərhal gözlərini yumdu. Ona elə gəlirdi ki, günəş onunla zarafatlaşır. Özündən asılı olmayaraq gülümsəməyə başladı. O, qəlbində indiyədək yaşamadığı bir hissin baş qaldırdığının fərqinə vardı. Bu hiss sevinc qarışıq xoşbəxtlik hissi kimi idi. Tural səhər-səhər onu bürüyən bu xoş həyəcanın nə ilə bağlı olmasını tapmağa çalışdı. O, yatağında sevinir, ürəyi sürətlə çırpınır, həm də dəhşətli darıxırdı. O kim üçün və niyə darıxır? Tural bu haqda düşünməyə başladı. Öncə kəndi və evdəkiləri yaddaşına saldı, amma tez də darıxmağının onlarla bağlı olmadığını anladı. Sonra dostlarını bir-bir yaddaşına saldı, bəlkə hansısa dostuna görə darıxır. Amma onlarla bağlı darıxmadığının fərqinə vardı. Sonra şəhərin xoşuna gələn, tez-tez gəzməyə getdiyi yerlərini beynindən keçirdi. Bəlkə harasa getmək istəyir? Amma tez də bu qərara gəldi ki, bunlar da onu bu cür həyəcanlandırmır. Tural düşündükcə daha da darıxır, həm də ürəyi sevinclə dolurdu. O başa düşürdü, elə bir adama görə darıxır ki, o, onda böyük sevinc, yaşamaq həvəsi, gələcəyə ümid və xoşbəxtlik hissi yaradır. Amma bu adam kimdir? Tural öz-özünə sual verirdi. Bəs niyə o, səhər-səhər həm sevinir, öz-özünə gülümsəyir, xoşbəxtlikdən qanad açıb uçmaq istəyir, həm də darıxmaq hissi az qalır onu ağlatsın; onu bu hala salan nədir? Sevinclə kədərin qarışığından ibarət hiss Turalı əməlli-başlı narahat etməyə başladı. O, darıxdığı adamla tezliklə qovuşmağa dərin bir ehtiyac hiss etdi. Qeyri-müəyyənlikdə çabalayan Turalın yaddaşına birdən tələbə yoldaşı, bir neçə həftədir universitetdə bir stolda oturduğu İnci düşdü. Tural az qala

“Evrika!” qışqıracaqdı. “Ura, tapdım!” – deyə bağırdı. Yaxşı ki, otaqda ondan başqa kimsə yox idi. Bir anda Tural anladı ki, əslində o, İncini görmək, onunla bir yerdə olmaq istəyir. Tural axtardığı sualın cavabını tapdıqdan sonra rahatlanmaq əvəzinə, həyəcanı bir qədər də artdı. Ürək döyüntüləri sürətləndi. Sifətinin qızardığını, bütün bədənini xoş bir hərarət bürüdüyünü, həyatda özünün öz qarşısına qurduğu bütün maneələrin bir anda uçduğunu və ətrafının əlvan rəngə boyandığının fərqinə vardı. Tural dərhal yerindən qalxıb pəncərəyə yaxınlaşdı. Pəncərəni açıb yaz havasını ciyərlərinə çəkdi və birdən İncini sevdiyini, ona vurulduğunu başa düşdü. Əslində, Tural ilk dəfə idi ki, belə bir hiss yaşamağa başlamışdı. Bunun məhəbbət olduğunu başa düşmək çətin deyildi. Bu hiss sevinc, xoşbəxtlik, azacıq qəm və darıxma hissinin qarışığından ibarət kokteyl kimi idi. Qəm və darıxma onu İnci ilə görüşməyə sövq edirdi. Sevinc və xoşbəxtlik isə bu görüşün onun üçün çox böyük bir mənəvi güc verəcəyinin xəbərçisi idi. Məktəb illərində çoxlu məhəbbət romanları oxusa da, özü belə bir hiss yaşamadığından həmin romanlar bir o qədər də onu təmin etməmişdi. Buna görə daha çox macəralar və fantastika ilə bağlı bədii əsərlərə meyil edirdi. İndi isə elə bil bütün məhəbbət romanlarını stolunun üstünə tökmüşdülər. Kitabların qəhrəmanları Məcnun, Kərəm, Yusif və neçə-neçə eşq qəhrəmanları sanki kitablardan çıxıb Turalı əhatə etmişdilər. İndi Tural onları başa düşür və onları sevməyə başlayır, onlarla dərdini bölüşürdü. O da Kərəm kimi yanmaq, Yusif kimi zindanların qaranlıqlarında əzab çəkmək və Məcnun kimi dəli olub səhralara düşməyə hazır idi. Turalın ilk dəfə yaşamağa başladığı hiss getdikcə güclənirdi. Nəhayət, Turala elə gəldi ki, artıq İncisiz yaşaya bilməz. Birdən nədənsə İncidən ayrılmaq ehtimalı gözünün qabağına gəldi. Tural göz yaşlarını saxlaya bilmədi, uşaq kimi ağlamağa başladı. Tural anladı ki, o, İncisiz yaşaya bilməz. İndi o, bu hisslərinə bir ad qoymaq istəyirdi. İndiyədək belə

bir həyəcan yaşamadığından bilmirdi ki, nə baş verir. İndi İnci bir an da olsun onun yadından çıxmırdı. Onun hər baxışı, hər bir sözü onun yadına düşür, fərqli təəssürat yaradırdı. Tural yerə-göyə sığmırdı. Dərhal İncini görmək, onunla yan-yana, göz-gözə olmaq istədi. Özünü İncigilə getməkdən güclə saxladı. Zatən həm şəhəri yaxşı tanımır, həm də İncinin ünvanını bilmirdi. Sadəcə, təxminən şəhərin hansı səmtində qaldıqlarını bilirdi. Belə böyük və qarışıq bir şəhərdə səmtə görə adam axtarıb tapmaq dəryaya düşən iynəni tapmaq kimi bir şeydir. Əvvəl düşündü ki, gedib o həndəvərdə gözləsin, bəlkə təsadüfən İnci gəzməyə çıxar, onda onunla görüşə bilər. Amma birdən yaddaşına düşdü ki, İnci valideynlərinin onu təklikdə şəhərə buraxmadıqlarını, universitetə də nəzarət altında gedib-gəldiyini demişdi. Ona görə bu fikrindən vaz keçdi. Sonra ağlına İnciyə məktub yazmaq gəldi. Oturub məktubu yazmağa başlamışdı ki, bunun nə qədər gülünc və yersiz olduğunu anladı. Zatən ertəsi gün yenidən İnci ilə bir yerdə olacaqdı. Amma bu bir gün Tural üçün illər kimi gəldi. İndi də Tural həsrət hissi yaşamağa başlamışdı. Qəribsəmə hissi də bir tərəfdən onun boğazından yapışmışdı. Tural sabaha qədər nə edəcəyini kəsdirə bilmirdi.

Şəhərin o başında yaşayan İnci də yuxudan qəribə bir hisslə oyanmışdı. O, yenicə tanış olduğu Turalı xatırlamağa başladı. Turalın üz cizgiləri, danışığı, manerası, mühakimələri yenidən beynindən keçdi. İnci öz-özünə gülümsədi. Əvvəlcə: “Çox yaxşı oğlandır”, – deyə düşündü. Amma bununla Tural beynindən çıxmadı. İndi o, Tural haqqında daha ciddi düşünməyə başladı. Getdikcə Turalın onun üçün sıradan biri olmadığının fərqinə vardı. O da Tural üçün darıxmağa, tezliklə onu görməyə can atmağa başladı. İnci romantik təbiətli bir qız olduğundan Turala bağlı xəyallar aləminə daldı. Turala bağlı onda yaranan hisslər ona çox tanış gəlirdi. Haradan? Birdən Romeo və Cülyetta yaddaşına düşdü. Ona elə gəldi ki, o Cülyetta, Tural Romeodur. Dərhal bu fikri başından at-

maq istədi, amma əksinə, Tural haqqında fikirlər daha çox onun beynini zəbt etdi. O, Tural haqqında düşündükcə həyəcanlanmağa başlayırdı. O, Turalı görmək, onun qoluna girib şəhərdə gəzmək, birlikdə kinoteatra gedib maraqlı bir filmə baxmaq istəyirdi. İnci Turala aşiq olduğunu başa düşdü və bu andan da Turala olan bağlılığı qat-qat artmağa başladı. Bir tərəfdən də Turalın onun hisslərinə qarşılıq verib-verməyəcəyi onu narahat edirdi.

Bazar ertəsi ilk dərs başlamamışdan hamı öz yerini tutmuşdu. Tural və İnci bir-birinin üzünə baxmağa utanırdı. Elə bil küsülü idilər. Sadəcə alçaq səslə bir salamlaşmadan sonra hər ikisi susmuş, hərəsi bir şeyi bəhanə edib özünü məşğul kimi göstərirdi. Tural cəsarət edib İncinin üzünə baxa bilmirdi. İnci də Turalın yaxınlıqda olmasından xoş bir hiss keçirirdi, sanki dünyaya yenicə göz açmışdı. İndi sinifdə Turaldan başqa heç kimi görmürdü. Nəhayət, Tural cəsarətini toplayıb araya mənasız bir-iki söz atdı. İnci dərhal bu fürsəti yaxalayıb Turalla danışmağa başladı. Səslərindəki titrəyişlər, danışanda dillərin topuq vurması, bir-birinin üzünə baxmağa cəsarət etməmək onları bir daha bir-birinə yaxınlaşdırır və qarşılıqlı hisslərini gücləndirirdi. İkisi də bir-birini sevdiyini anlamışdı. İndi bunu kimin birinci etiraf etməsi qalırdı. Hər iki gənc daxildə sürətlə bir-birinə yaxınlaşırdı. Elə bil su bəndi uçmuş, sel hər yeri basmışdı. İndi onlar məhəbbət selində birlikdə üzür və xilas olmağı yadlarından çıxarıb özlərini bu selin axarına buraxırdılar. Tural gözaltı İnciyə baxdı. İnci həmişəkindən daha gözəl idi. Yanaqları allanmış, gözləri parıldayırdı. Bu gün ondan adamı bihuş edən xüsusi ətir iyi gəlirdi. Tural İncidən yayılan ətrin iyindən az qalırdı huşunu itirsin. Tural bir daha gözlərini qaldırıb İncinin üzünə, dodaqlarına, yanaqlarına, sonradan gözlərinə baxdı. Bu gözlərdən ona bu dünyada onun üçün əvəzsiz olan bir insanın baxdığını gördü. İnci də Turalın gözlərində onun üçün hər cür fədakarlığa hazır, ona uzaq və məşəqqətli bir yolda yoldaşlıq

etməyə hazır, onun üçün əvəzsiz birinin baxışlarını gördü və bu baxışma onları bir-birinə elə bağladı ki, aralarında olan utancaqlıq hissi bir anda yox oldu. Tural asta səslə "İnci", – deyə bildi. İnci də öz növbəsində: "Tural", – dedi. Onlar bu bir kəlmələri ilə bir-birinə bütün hisslərini, ümid və arzularını ifadə etmiş oldular. Tural həyatında öz adının ilk dəfə bu qədər yaxşı səsləndiyinin fərqinə vardı. İnci isə öz adını ilk dəfə eşidirmiş kimi həyəcanlandı. Onlar sözsüz də bir-birini sevdiklərini çoxdan anlamışdılar.

Bu sevgi anbaan güclənir, gənclər bir-birindən bir an belə ayrı qala bilmirdi. Hər gün dərs qurtarandan sonra, elə bil həbsxanaya gedərmiş kimi hərə öz yaşadığı yerə gedir, səhər dərsə gələndə isə uzun məhbusluq həyatından azad olunmuş insanlar kimi sevinirdilər. Qısa müddətdə Tural və İncinin bir-birini sevdiyini universitetdə bilməyən qalmamışdı. İndi onlar yalnız sinifdə yan-yana oturmurdular, həm də bütün günü bir yerdə olurdular. Tənəffüs vaxtları birlikdə dəhlizə çıxır, birlikdə yemək yeyir, birlikdə kitabxanaya gedirdilər. Tural İncinin razılığı ilə onu evlərinə kimi ötürür, İnci evlərinə girəndən sonra Tural saatlarla onların küçəsində fırlanırdı.

İncidə baş verən dəyişikliklər təcrübəli anasının diqqətindən yayınmamışdı. Hətta bir-iki dəfə pəncərədən İncini evlərinədək yola salan yaraşıqlı bir oğlanı da görmüşdü. O, qızının yetkinlik yaşına çatdığının, nə vaxtsa birini sevib ailə quracağının fərqində idi. Amma bu qədər tez İncinin bir oğlana bağlanacağını gözləmirdi.

İnci ilə anası rəfiqə kimi idilər. Aralarında heç vaxt sirr saxlamırdılar. İnci hər problemini anasına deyir, o da müstəqil həyatın çətinliklərini detallarına kimi İnciyə anladırdı. Aralarında hətta İncinin gələcəkdə ailə quracağı ilə bağlı söhbət də olmuşdu. Anası İncidən bir şeyi xahiş etmişdi: gələcəkdə ailə qurması ilə bağlı

ciddi bir qərar verməmişdən qabaq o hər şeyi bilməlidir. Onunla məsləhətləşdikdən sonra addım atmalıdır.

Anası həmişə evdə deyib-gülən, daha çox onunla vaxt keçirməkdən xoşlanan İncinin saatlarla divanda susqun oturub xəyallara daldığını, bəzən öz-özünə gülümsədiyini, bəzən qəmlənib gözlərinin yaşla dolduğunu müşahidə edirdi. Təcrübəli bir qadın kimi bunun məhəbbət yaşantılarının əlamətləri olduğunu ilk andan anlamışdı.

Anası İncinin yanında oturub onun başını sinəsinə sıxdı. Uşaqlıqda olduğu kimi qumral saçlarını sığallaya-sığallaya: "Qızım, mən səni başa düşürəm, hər şey təbiidir, gec-tez bir oğlanla ailə quracaqsan. Deyəsən, belə biri qarşına çıxıb. Sənlə danışmışdıq ki, mən onu görüb danışmalıyam. Sonra münasibətlərinizi inkişaf etdirə bilərsiniz. Nə deyirsən? Fikrin ciddidirsə, bizi tanış elə". İnci bilirdi ki, anası Turalda bir qüsur tapa bilməyəcək, əksinə, Turalı tanıyandan sonra onlar da onu sevəcəkdi. Buna görə anasının "O oğlanı evimizə dəvət et, mən də onu görmək istəyirəm", – deməsi ilə İnci dərhal razılaşdı. Sabahısı gün dərsdən sonra Tural əlində gözəl bir buket İncigilin qapısının zəngini basdı və qəribə bir hisslə İncinin açdığı qapıdan içəri girdi. İncinin anası Turalı yaxından görən kimi ürəyində qızının özünə layiq birinə rast gəldiyinə sevindi. Tural ona yaraşıqlı, mədəni, alicənab biri kimi təsir bağışladı. Artıq heç bir sorğu-sual etmədən öz-özünə qızının Turalla ailə qurmalarına razılığını verdi. Amma qadın marağı da onu Turalı sorğu-suala çəkməyə təşviq edirdi. Buna görə "xoş gəldin"dən sonra İncinin anası mexaniki olaraq Azərbaycanda dəbdə olan: "Ay bala, haralısan?" – sualını verdi. Tural asta səslə rayonların birinin adını dedi. Bu rayonun adını eşidən kimi İncinin anası özünü narahat hiss etməyə başladı, rəngi dəyişdi, onu həyəcan bürüdü. Tural da, İnci də başlarını aşağı salıb altdan-altdan bir-birinə baxır və bir-birinə sevgi öpücükləri göndərirdilər. İncinin

anasının halından heç birinin xəbəri olmadı. Bir qədər sükutdan sonra İncinin anası asta səslə, nəyəsə ümid edərək: "Rayonun özündənsiz?" – deyə soruşdu. Tural: "Yox, İşıqlar kəndində yaşayırıq", – dedi. Kəndin adını eşidən kimi İncinin anasının boğazı qurudu, rəngi meyit rəngi kimi saraldı. Ürəyində ağlına gələnin başına gəlməməsi üçün Allaha yalvarmağa başladı. İncinin anasının özünü ələ alması xeyli çəkdi. İndi gənclər bir-birinə baxa-baxa paxlava ilə çay içirdilər. İncinin anası yenə titrək səslə: "Ananın adı nədir?" – deyə soruşdu. Tural yenə də heç bir şeydən şübhələnmədən anasının adını deyib yenə İnci ilə göz-gözə gəlmək səadətini əldən vermək istəmədi. Turalın anasının adını eşidəndə İncinin anasının ürəyi sancdı, başında güclü bir ağrı meydana çıxdı. Boğazı qurudu, gözlərində dərin bir kədər göründü. Yenə də İncinin anası nəfəsi kəsilə-kəsilə son sualı vermək üçün özünü topladı. Turalgilin familiyasını deyib: "Ananın familiyası belədir?" – deyə soruşdu. Tural bir qədər təəccüblənsə də, yenə də yaşadığı xoşbəxt anların ləzzətini çıxarmağa davam etdi: "Bəli", – dedi. Birdən Tural özünə gəldi: "İncinin anası onların familiyasını haradan bilir?" Gözlərini qaldırıb İncinin anasına baxdı. Bir az bundan əvvəl sevincindən uçmağa qanad axtaran İncinin anasının üzündə qorxu, kədər, peşmanlıq və acı bir təəssüf hissi gördü. Qadının gözlərindən yaş axırdı. Tural gördüyü mənzərədən çaşdı. Bayaqdan gözlərindən sevinc aşıb-daşan, ona məhəbbət, sevgi dolu baxışlarla öz doğma oğlu kimi baxan qadın bir anın içində niyə belə dəyişdi? Turalı bir narahatlıq bürüdü: "Bəlkə İncinin ailəsi kəndçi bir oğlana qızlarını layiq bilmədilər?" Bu fikir bir anlığa onun beynini zəbt etdi. Tural az qaldı ürəyi partlasın. Bayaqdan ürəyindəki sevinc ağır bir pərtlik və kədərlə əvəzləndi. İnci də Turalın anidən dəyişdiyinin fərqinə vardı. Gözlərini qaldırıb anasının üzünə baxanda elə bil onu ildırım vurdu. Anasının üzündə sanki "Bu iş heç cürə baş tuta bilməz", – cümləsi yazılmışdı. Anasının qəfil

dəyişilməsi İncini də narahat etməyə başladı: “Ana, nə olub? Haransa ağrıyır? Təzyiqin qalxıb bəlkə? Şəkərini yoxlamısan bu gün?” Əslində, İnci bütün bu sualları mexaniki verirdi və aldığı cavabın onun Turalla gələcəyinə təsir edəcəyindən qorxmağa başlamışdı. Anası ağzını açıb bir kəlmə də danışmadı. İncinin sualları cavabsız qaldı. Anasının kədərli gözləri uzaqlara dikildi. Elə bil keçmişdə hansısa kədərli hadisələrə baxırdı. İnci bir daha anasından nəsə soruşdu. Anası onu eşitmirdi. Qulaqları guruldayır, gözləri qaranlıqlaşırdı. İnci anasının halının həqiqətən də pisləşdiyini gördü. Turaldan təcili yardım çağırmağı xahiş etdi, özü isə anasına həmişə qəbul etdiyi dərmanlardan verib, atasına zəng edərək anasının vəziyyəti ilə bağlı məlumat verdi. Tural İncinin atası ilə üz-üzə gəlməyi tez hesab edirdi. Bu tərəfdən də İncinin anasının belə vəziyyətə düşməsində qeyri-ixtiyari özünü günahkar bilirdi. Getməkdən başqa yol görməyən Tural təcili yardım həkimləri içəri girib İncinin anasını müayinə etməyə başlayanda İncidən üzr istəyib onları tərk elədi. İncinin anasının təzyiqi yüksəlmişdi, şəkəri də oynamışdı. Həkim xəstənin əsəb sarsıntısından bu hala düşdüyünü deyib lazım olan məsləhətləri verdi. Çox keçmədi İncinin atası da özünü evə çatdırdı. Artıq həyat yoldaşı özünə gəlmişdi. İncinin anası evə göz gəzdirib Turalı görmədi, xeyli sakitləşdi. Ürəyində: “Allahım, bu nə işdir biz düşdük”, – dedi.

Sabahısı gün anası İnci ilə danışmaq istədiyini deyəndə qızın ürəyi sancdı. Çünki anasının deyim tərzindən ciddi, xoşagəlməz bir söhbət edəcəyini bilmək bir o qədər çətin olmadı. Anası İnciyə: “Mənim gözəl balam, bu iş baş tutan deyil, sən Turaldan ayrıl. Bilirəm, bu sənin üçün çox çətin olacaq. Amma həyatda bundan da böyük çətinliklər var”, – dedi. İnci anasından eşitdiklərinə inanmaq istəmədi. Axı ilk baxışdan anası Turalı bəyənmişdi, yaxından tanış olduqdan sonra daha da dərindən sevəcəkdilər. İnci Turalsız yaşaya bilməzdi. “Yox, ana. Mən ondan başqası ilə ailə

həyatı qura bilmərəm. Onsuz yaşamağı ağlıma belə gətirə bilmirəm. Axı niyə belə düşünürsən? Turalın nəyi xoşuna gəlmədi? Axı görən kimi gözlərindən gördüm ki, Turalı çox bəyəndin. Nə oldu birdən-birə? Fikrini nə dəyişdirdi?" İncinin anası göz yaşlarını saxlaya bilmirdi: "İnci, qızım, dedim ki, olmaz, bil ki, olmaz". İnci əl çəkmədi. Ürək ağrısı ilə, yalvarışlı bir səslə: "Axı niyə? Nə üçün olmaz?" – dedi. İncinin anasının bir sirr saxladığı gün kimi aydın idi. O, İncinin bilmədiyi nələrisə bilirdi. İnci yenə təkid etdi: "Mən səbəbini bilməliyəm. Yoxsa niyə görə Turaldan ayrılım ki?" Anası nə qədər dedi, İnci eşitmək belə istəmədi. İnci həqiqəti öyrənməyincə anasından əl çəkmək fikrində deyildi.

Anası nə qədər cəhd etdisə, qızını başından edə bilmədi. Ertəsi gün İnci dərsə getmədi. Turaldan imtinanın səbəbini bilmədən necə gedəydi? Turala necə deyərdi ki, ailəsi ondan imtina edib? Yox, İnci anasına ultimatum verdi: "Əsl səbəbi deməsən, universitetə getməyəcəyəm". Tural da İncinin dərsə gəlməsini istəmirdi. Qorxurdu ki, İnci "yox" xəbəri gətirər. Onda Tural nə edərdi? İncini universitetdə görməyəndə xeyli sakitləşdi. Ürəyində: "Yəqin öz aralarında nəsə müzakirə edəcəklər", – deyərək özünə təsəlli verdi.

İncigildə vəziyyət çox gərginləşmişdi. İnci yavaş-yavaş depressiyaya düşür, anasından Turala bağlı fikirlərinə aydınlıq gətirməyi tələb edirdi. Başqa bir yol qalmamışdı. İncinin düşdüyü acınacaqlı vəziyyət anasını narahat etməyə başladı: "Yaxşı, qızım, sakit ol. Hər şeyi açıb deyəcəm. Ancaq söz ver ki, bir dəlilik etməyəsən, Turala heç nə deməyəcəksən". İnci daha da maraqlanmağa başladı. Axı ilk dəfə gördükləri Tural haqqında onlarda nə kimi məlumat ola bilərdi ki? "Narahat olma, ana. Səni dinləyirəm. Uşaq deyiləm ki". İnciyə elə gəlirdi ki, ciddi bir səbəb yoxdur; ola bilsin, Turalın hansısa hərəkəti anasına xoş gəlməyib və ya onun rayonlu olmasına görə bu işə razılıq vermir. Amma bunların heç

biri ciddi səbəb deyildi. İncinin xoşbəxtliyi müqabilində belə əhəmiyyətsiz şeylərə necə diqqət etmək olardı?

Anası xeyli susdu. Sonra dərindən bir ah çəkib: "Mənim yazıq balam", – dedi və ağlamağa başladı. "Ana, nə olub, danış da. Niyə ağlayırsan? Axı Turalın nəyi xoşuna gəlmədi? Niyə onunla həyat yoldaşı olmağımı istəmədin? Səbəb nədir, bilim də". İncinin anası gözlərini sildi. Durub özünə mətbəxdən bir stəkan su gətirdi: "İnci, qızım, söz ver, bir dəlilik etməyəcəksən. Hər şeyi sakit qarşılayacaqsan. Yoxsa bir kəlmə də danışmaram". İnci and-aman edib anasını danışmağa inandıra bildi.

"Qızım, əslində Turalgillə biz eyni kənddənik. Sən o vaxt anadan olmamışdın. Rəhmətlik qardaşınla Turalın qardaşının arasında dalaşma olmuşdu. Turalın qardaşı bıçaqla sənin qardaşına hücum etmişdi. Qardaşın Turalın qardaşının əlindəki bıçağı ondan almaq istədikdə süpürləşiblər və necə olubsa, bıçaq Turalın qardaşının ürəyinə sancılıb. Sənin qardaşın Turalın qardaşını öldürmüşdü. Bunu görən olmamışdı. Amma gec-tez bu işin üstünün açılacağını bilirdik. Hətta müstəntiq bir neçə dəfə qardaşını dindirmişdi, amma o, bu hadisəni özünün törətdiyini deməmişdi. Atan yeganə oğlunun həbsxanaya düşməsinə heç cür razı olmadı. Ona görə ibtidai istintaqda qardaşınla bağlı araşdırmanın dayandırılması üçün xeyli rüşvət verdi və müstəntiqin məsləhəti ilə gecəykən kənddən köçdük. Şəhərdə ünvanımızı hamıdan gizlətdik. Bilirdik ki, Turalın ailəsi bilsə, mütləq bizdən qisas alacaqdılar. Biz yeganə oğlumuzu itirmək istəmirdik. Hətta atan tanış tapıb bizim ad-familiyamızı belə dəyişdirdi. Mümkün qədər o rayondan olan insanlardan uzaq durduq. Daha çox ev həyatı keçirməyə çalışırdıq. Nadir hallarda bazar-dükana özümüz gedirdik. Sonra sən doğuldun. İllər keçdikcə hər şeyin yaddan çıxacağına ümid edirdik. Qardaşının da bəxti gətirmədi, bir gün avtoqəza nəticəsində həyatını itirdi. Sən bizim yeganə övladımızsan, bizi həyatda saxlayan

yeganə səbəbsən. Sən Turalla ailə quracağın təqdirdə bu problem necə həll olunacaq? Onlar qisas almadan bir an belə dayanmayacaqlar. Turalgilin ailəsi bunu bilsə, heç Turalı da bağışlamazlar, sənə sahib çıxmazlar belə. Ona görə bu işdən vaz keç. Alınan iş deyil". İnci əvvəl nə deyəcəyini bilmədi. Ailələrinin belə bir sirri uzun illər ondan gizli saxladıqlarına məəttəl qaldı. Qısa çaşqınlıqdan sonra İnci ayağa qalxdı: "Yox, ana, bu, mənim Turaldan ayrılmağım üçün bir səbəb ola bilməz. Ölərəm, amma Turaldan ayrılmaram".

Ertəsi gün İnci vaxtından qabaq universitetə getdi. Nədənsə Tural da vaxtından qabaq gəlmişdi. Tural cəsarət edib İnciyə yaxınlaşa bilmirdi. Ailəsinin onların birləşməsinə razılıq vermədikləri xəbərini eşitməkdən qorxurdu. O, bu xəbərə dözə bilməzdi. İndi bu həyata onu bağlayan yeganə güc İnciyə olan sevgisi idi. İnci ona yaxınlaşdı. Tural başını aşağı salıb İncinin verəcəyi bəd xəbəri eşitməyə hazırlaşırdı. İnci Turalın üzünə baxdı: "Tural, eşqimiz uğrunda vuruşmağa hazırsan?" Tural dərhal: "Sən nə danışırsan? Həyatımı belə qurban verərəm, təki ayrılmayaq!" İnci: "Onda mənə diqqətlə qulaq as". İnci ailələri arasında olan köhnə ədavət haqqında hər şeyi Turala dedi. Qardaşının onun qardaşını ehtiyatsızlıq nəticəsində öldürdüyünü, özünün də çoxdan öldüyünü, qisas alınmalı bir adamın olmadığını, onların birləşməsi yolunda yeganə əngəlin Turalın ailəsinin qisas almaq fikri olduğunu dedi. Tural eşitdiyi xəbərdən sarsıldı. Sən demə, ailəsinin illərlə nifrət etdiyi, məhv etməyə fürsət axtardığı ailənin qızına vurulubmuş. Amma indi İncisiz onun üçün yaşamağın bir mənası qalmamışdı. "Bəs nə edək?" – Tural öz-özünə mızıldandı. İnci: "Əgər sən də axıradək eşqimiz uğrunda vuruşmağa hazırsansa, gedək sizə, hər şeyi açıb sizinkilərə deyək". Əvvəl Tural bu fikrə yaxşı baxmadı, ailələrinin bunu necə qarşılayacağını təsəvvür belə eləmək istəmədi. Amma məhəbbətini də qurban vermək fikrində de-

yildi. O indi qisasla eşq arasında seçim qarşısında qalmışdı. Təbii ki, o, eşqi seçdi və: "Sən necə istəsən, elə edək", – dedi.

Sabahısı gün İnci ailələrindən xəbərsiz Turalla birlikdə kəndə yollandılar. Turalgilin ailəsi gəncləri böyük sevinclə qarşıladılar. Düzdür, el adətinə uyğun gəlmədiyindən onların bu səfərinə əvvəl birtəhər baxsalar da, qısa müddət ərzində İnci ilə münasibətdən sonra xeyli rahatladılar. Turalın anası ilə bacısının uçmağa qanadı yox idi. Tural çox gözəl, ismətli, mədəni bir qız sevmişdi. Turalın xoşbəxtliyi ailənin yeganə məqsədi idi. Turalın anası evdə hər dəfə o tərəf-bu tərəfə keçəndə İncini öpür, saçlarını sığallayır: "Mənim gözəl gəlinim", – deyə İnciyə iltifat göstərirdi. Turalla İnci bir-birinə çox yaraşırdılar. Anası pis gözlərdən gəncləri qorumaq üçün üzərlik yandırmağı da unutmadı. Turalın atası da evdəkilərdən xəbər tutan kimi gənclərin şərəfinə bir qoç qurban kəsib qonşulara payladı.

İnci ilə Tural bu qədər sevincdən sonra ailəni kədərə boğmaq istəməsələr də, həqiqəti açıb demək məcburiyyətində idilər. Haradan və kim başlasın? Nəhayət, Tural özündə qüvvə tapıb: "Ata, İncigil də bizim kənddəndirlər". Anası təəccüblə üzünü İnciyə tutub: "Bıy, qızım, kimlərdənsən?" – deyə soruşdu. Tural: "Ana, tələsmə, bizim məsələmiz çox ciddi bir məsələdir". Anası atasının, atası anasının üzünə baxıb təəccüblə Turala baxdılar: "Nə məsələ, ay bala?!"

İnci Turalın cavab verməyə çətinlik çəkdiyini gördü və ona danışmağa imkan vermədən birbaşa özü mətləbə keçdi: "Mən sizin qan düşməninizin qızıyam". Turalgilin evinə elə bil bomba düşdü. Evdəkilərin hamısı birdən: "NƏ?!" – deyə bağırdı. "Necə yəni qan düşməni? Sən kimlərdənsən ki?" İnci ailələri ilə bağlı anasının dediklərini bir-bir Turalın anasına anlatdı. Qardaşının istəmədən cinayət törətdiyini, sonra qan düşmənçiliyi olmasın deyə ailələrinin kəndi tərk etdiklərini, şəhərdə başqa ad və familiya ilə ya-

şadıqlarını, qardaşının o hadisədən bir müddət sonra avtoqəza nəticəsində həyatını itirdiyini təfsilatı ilə danışdı. Turalın ailə üzvləri donub qalmışdı. Bir tərəfdən qapılarına qan düşmənlərinin qızı gəlmişdi, digər tərəfdən oğlanları bu qızı həyatı qədər sevirdi, o biri tərəfdən də qisas alacaqları günahkar da artıq bu dünyada yox idi. Qisas almağa bir adam qalmamışdı. İnci də qız uşağı idi, oğlana görə qızdan qisas almaq dinə zidd idi. Digər tərəfdən də Turalın xoşbəxtliyi onlar üçün hər şeydən üstün idi. Onların bir-birinə olan məhəbbətini görmək çətin deyildi. Məhz bu məhəbbətin gücü onları bura gəlməyə, bu acı həqiqəti etiraf etməyə məcbur etmişdi.

Turalın atası hamıdan tez özünə gəldi. Arvadının üzünə baxdı; ər-arvad bir-birinin üzündə kin, nifrət, qisasçılıq görmədi. Turalın atası: "Siz doğrudan bir-birinizi elə sevirsiniz ki, ayrıla bilməzsiniz?" Tural utana-utana: "Ata, İncidən ayrılmaqdansa, ölmək istərəm". Eyni fikri buna yaxın formada İnci də təkrarladı. Turalın atası nə edəcəyini bilmədi. Bir tərəfdən oğlunun qatilini tapmış, qisas alacağı ailənin bir üzvü öz ayağı ilə evinə gəlmişdi; o tərəfdən günahkar Allah tərəfindən cəzalandırılmışdı, qisas almağa kimsə yox idi. Turalın atası heç kəsə bir söz demədən qonşu otağa keçdi. Turalın anasının gözü İncini ilk baxışdan tutmuşdu. Oğlunun da nə qədər xoşbəxt olduğunu görürdü. Amma söz sahibi Turalın atası idi, o nə cür qərar verəcəkdi, məlum deyildi. Turalın anası ayağa qalxıb uşaqlara yemək-içmək hazırlamağa başladı. İnci də ona kömək etmək üçün mətbəxə keçdi. Turalın anasına elə gəldi ki, İnci elə bu evdə doğulub, bu evin qızıdır. Ona qarşı ürəyində bir yaxınlıq hiss etdi. Ona gələcək nəvələrinin anası kimi baxdı. İnci həqiqətən oğluna yaraşırdı. İnci mətbəxdən bir stəkan çay və konfet götürüb Turalın atası olan otağa keçdi.

Turalın atası divanda oturub dərin fikirlərə qərq olmuşdu. Nə cür qərar verəcəyi ilə bağlı bir fikrə gələ bilmirdi. Bir tərəfdən bir oğlunun bədbəxtliyi, o tərəfdən bu oğlunun xoşbəxtliyi ona konk-

ret qərar verməyə imkan vermirdi. Turalın atası bir oğlunun məhəbbəti ilə digərinin intiqamı arasında seçim etmək məcburiyyətində qalmışdı. "Hansı daha vacibdir? Oğlunun intiqamını almaq, yoxsa oğlunu xoşbəxt etmək üçün onun İnci ilə ailə qurmasına razılıq vermək? Bəs kənd camaatı necə olsun? Bəs adətlər?" Birdən yaddaşına Qurani-Kərimin "Bəqərə" surəsinin 178–179-cu ayələri düşdü: *"Ey iman gətirənlər, sizə öldürülənlər barəsində qisas yazılmış və qərara alınmışdır: azad şəxsin müqabilində azad, qulun müqabilində qul və qadının müqabilində qadın. Beləliklə, kim öz qardaşı tərəfindən müəyyən qədər əfv olunsa, onda bəyənilən bir yol seçməlidirlər və diyəni ona yaxşılıqla, gözəl surətdə ödəməlidir. Bu, Sizin Rəbbiniz tərəfindən bir yüngüllük və rəhmətdir. Odur ki, kim əfv etdikdən sonra həddini aşsa, onun üçün ağrılı bir əzab vardır... Ey ağıl sahibləri, qisasda sizin üçün həyat vardır, bəlkə çəkinəsiniz".*

Turalın atasının üzərindən ağır bir yük götürüldü. O, problemin həllini tapmışdı. O, oğlunun öldürülməsi müqabilində İncigilin ailəsindən diyə istəyəcəkdi və bu diyənin də İnci olduğunu deyəcəkdi. Bununla da bu günədək onu yandırıb-yaxan qisasdan həm də bir yox, iki həyat xilas edəcəkdi – oğlunun və İncinin həyatını.

İnci çayı jurnal stolunun üzərinə qoyub: "Atacan, sizə çay gətirdim, için", – dedi. Bir dəqiqə ayaq saxladı. Turalın atasının üzünə baxıb nə cür qərar verdiyini bilmək istədi, amma heç nə anlamadı. Turalın atasının üzündə qeyri-müəyyən bir ifadə vardı. İnci titrək səslə: "Atacan, bizi ayırma, mən Turalsız yaşaya bilmərəm, o da mənsiz çətin yaşaya... Əgər qisas almaq istəyirsinizsə, hər ikimizin canını alın. Mən buna hazıram. Turalsız yaşamaqdansa, Turalla ölmək mənim üçün daha yaxşıdır", – deyə bildi. Göz yaşlarına boğula-boğula cavabı gözləmədən otaqdan çıxdı.

Tural İncinin, atasının yanından çıxdığını görüb bir az ürəklənndi. Məhəbbəti uğrunda axıradək vuruşacağı ilə bağlı İnciyə verdi-

yi söz yaddaşına düşdü. Tərəddüd edə-edə atasının yanına keçdi. Yaxına gəlib atasının qarşısında diz çöküb onun ayaqlarını qucaqladı. Atasının gözlərində dərin bir kədər qarışıq sevinc gördü. Bir az ürəkləndi: "Ata, sən İncigildən qisas almaq istəyirsənsə, mənim canımı al. Onsuz da mən İncisiz yaşaya bilməyəcəyəm". Atası xəyal aləmindən ayrılıb oğluna baxdı. Oğlunun gözündəki yalvarış onun qəlbini dağladı. Böyük oğlu gözünün qarşısına gəldi. Yaxşı bilirdi ki, Turalın başına bir şey gəlsə, nə özü, nə də arvadı bir gün də onsuz yaşaya bilməyəcək. Əlini uzadıb Turalın saçlarını sığalladı: "Camaatı bura çağır", – dedi.

Tural hamını qonaq otağına dəvət etdi. Turalın atası əvvəl qəmli-qəmli ona baxan arvadının üzünə baxdı. Arvadının üzündə yalvarışı görüb üzünü Turala çevirdi. Tural edam cəzası gözləyən məhbus kimi başını aşağı salıb naümidliklə yerə baxırdı. Turalın yanında dayanmış İnci də meyit kimi saralmışdı. Verilən cavabdan onun və dünyalar qədər sevdiyi Turalın həyatı asılı idi. Göz yaşlarını saxlaya bilmirdi, sanki özlərinin nakam talelərinə ağlayırdı. Turalın atası özünü toplayıb qərarını elan etdi: "Hazırlaşın, şəhərə elçiliyə gedirik. Mənim ən böyük intiqamım düşmənimin qızını özümə gəlin etmək olacaq. İnci mənim qisasımın diyəsi olacaq..."

GÜLSATAN OĞLAN

O, kasıb bir ailənin tək oğlu idi. İmkansızlığa baxmayaraq, valideynləri ona böyük qayğı göstərmiş, onda özünə hörmət və inam, başqalarına mərhəmət və ədalət hissi tərbiyə etmişdilər. Onun alicənab və ləyaqətli bir insan kimi yetişməsi üçün nə lazımdırsa əsirgəməmişdilər. Onu kasıbçılığın gətirdiyi bütün məhrumiyyətlərdən uzaq tuturdular. Özləri geyinmirdi, onu geyindirirdilər; özləri yemirdi, onu yedizdirirdilər. Məktəbdə də imkanlı ailələrin uşaqlarından çox da fərqlənmirdi. Zövqlə geyinir, həmişə cibində xərcliyi olurdu. Hətta sinif yoldaşları ilə dərsdən sonra kinoya gedir, çayxanada oturub çay içirdilər, bu zaman kiçik də olsa xərcləri o da ödəməyə cəhd edirdi. Çox məğrur, mərd və əliaçıq biriydi. Dərslərini də əla oxuyurdu. Sinif yoldaşlarına qarşı nəzakətli, müəllimlərinə qarşı hörmətdə qüsura yol verməyən biriydi. Bir sözlə, gələcəkdə mükəmməl bir şəxsiyyət olacağına, həyatda yüksək mövqe tutacağına kimsənin şübhəsi yox idi.

İdman və kitab oxumaq onun hobbisi idi. Artıq məktəb illərinin sonu yaxınlaşmışdı. İndi onda kişilik əlamətləri özünü göstərməyə başlamışdı. Bığ yeri tərləmiş, bədəni kişi bədəninə xas forma almağa başlamışdı. Səsi qalınlaşmış, ədaları dəyişmişdi. Mühakimələri də böyüklərə xas olmağa başlamışdı. O da digər oğlanlar kimi bədənini daha düzgün formalaşdırmaq üçün dəridən-qabıqdan çıxırdı. Bazu əzələləri şişmiş, sinəsi qabarmış, çiyinləri enləşmiş, döş qəfəsi genişlənmişdi – bir sözlə, kənardan mütənasib bir bədənə malik olduğu gözdən qaçmırdı. Məktəbdə qızların ona oğrun-oğrun baxdıqlarının da fərqində idi. Amma aldığı tərbiyəyə uyğun özünü bilməməzliyə vurur, digər oğlanlardan fərqli olaraq qızların hisslərindən onlara yaxınlaşmaq məqsədi ilə sui-istifadə etməyi ağlına belə gətirmirdi. Artıq onda eyni sinifdə oxuyan bir

qıza qarşı xüsusi maraq və diqqət yaranmışdı. Getdikcə həmin qıza bağlanmağa başlamışdı. Sürətlə aralarındakı münasibət sevgi müstəvisinə keçmişdi.

O həm də çox romantik biri idi. Tez-tez qəlbində gələcəklə bağlı fantastik planlar qurur, sevdiyi ixtisas üzrə ali təhsil aldıqdan sonra çox məşhur bir firmada işə düzələcəyi, özünə xarici markalı maşın alacağı, şəxsi mənzili olacağı, sevdiyi qızla xoşbəxt bir ailə quracağı və valideynləri ilə birgə yaşayıb onların bütün əziyyətlərinin qarşılığını qat-qat artıq ödəyəcəyi ilə bağlı xoş xəyallar qururdu. Hər fürsətdə sevdiyi qıza kiçik də olsa hədiyyələr alır, ad günlərində onun sevdiyi çiçəklərdən buket düzəltdirir, bir sözlə, hər bir hərəkəti ilə qıza olan sevgisini izhar etməyə çalışırdı.

Artıq sevdiyi qız da ona qarşılıq verməyə başlamışdı. O, sinifdə digər oğlanlardan ağlına, tərbiyəsinə və yaraşığına görə seçilən və ona qarşı laqeyd olmayan bu gəncin simasında özünün gələcək həyat yoldaşını görür və buna uyğun onunla ünsiyyət qurmağa çalışırdı. Gənclərin qarşılıqlı münasibətindən valideynlərin də xəbəri vardı. Oğlanın valideynləri uzaqdan-uzağa qızın ailəsi haqqında bir az məlumat əldə edə bilmişdilər, onların çox varlı olması onları narahat edirdi. Düşünürdülər ki, onların tayı deyillər deyə bu iki gəncin birləşməsinə razılıq verməzlər, ona görə övladlarının istəkləri ilə bağlı bir az tərəddüd edirdilər. Haqsız da sayılmazdılar. Çünki qızın atası çox təkəbbürlü, özünübəyənmiş biri, anası da ondan geri qalmayan meşşan təbiətli bir qadın idi. Onlarla dil tapmağın çətin olacağı göz qabağında idi. Amma qızın anası oğlanın savadına, tərbiyəsinə və yaraşığına görə gənclər arasındakı münasibətlərə pis baxmırdı, hətta gələcəkdə oğlanı öz yanlarında saxlayacaqları, bir əlləri onların üstündə olacağı ilə bağlı planlar cızırdı. Qızın atasına hələ bu barədə bir söz deməmişdilər. Onun başı öz biznesinə qarışdığından qızının məktəb həyatı ilə maraqlanmır-

dı da, buna görə də onun sinif yoldaşlarından və onların valideynlərindən heç kimi tanımırdı.

Məktəb illəri başa çatdı və gənclər seçdikləri ixtisaslarla bağlı imtahan verməyə başladılar. Qız həkim olmaq arzusunda idi və imtahanlardan da yüksək bal toplayıb ali tibb təhsili almaq imkanı əldə etdi. Oğlanın bəxti gətirmədi, çox yaxşı hazırlaşmasına baxmayaraq, həyəcanlanıb imtahanda yaxşı nəticə göstərə bilmədi, buna görə də ilk dəfədən seçdiyi hüquq ixtisası üzrə ali məktəbə daxil ola bilmədi. Ailəsi və müəllimləri buna görə çox pərt oldular. Çünki hamı oğlanın elə birinci ildən ali təhsil almaq hüququ qazanacağına tam əmin idi. Amma gözləntilərin tam əksi oldu.

Oğlanın valideynləri övladlarının sıxılmaması üçün ona ürəkdirək verir, növbəti il mütləq ali məktəbə daxil olacağı ilə bağlı onu inandırırdılar. Hətta onu hazırlıq kurslarından birinə qoymağı düşünmüşdülər. Düzdür, bunun üçün ailənin geniş imkanları yox idi. Oğlan da ailəsinin ona görə daha artıq əziyyət çəkməsini istəmirdi, buna görə də işləyə-işləyə hazırlaşmaq qərarına gəlmişdi. Bundan başqa, onun sevdiyi qızla bağlı xərcləri çıxmağa başlamışdı. Hər gün sevgilisinin universitetinə gedir, dərsdən sonra onu qarşılayıb evlərinə kimi yola salırdı. Bu zaman yol pulu, bəzən kafelərin birində kofe içmək, bayramlarda kiçik də olsa hədiyyə və çiçəklər almaq lazım gəlirdi. Evdəkilərdən bunlara görə pul istəməkdən həm utanır, həm də onlara əlavə çətinlik yaratmaq istəmirdi. Pulsuzluğa görə dostlarından da uzaq dururdu. Onlarla birlikdə əylənməyə meyil etmirdi, çünki bu da əlavə xərc demək idi.

Uyğun bir iş tapıb bu çətinlikləri dəf etməkdən başqa çarə yox idi.

Ölkə dərin böhran içində idi. Hökumətin səriştəsizliyi və bacarıqsızlığı üzündən yeni iş yerləri yaranmır, köhnələri də bir-birinin ardınca sürətlə bağlanırdı. Az qala hər gün işsizlər ordusuna yeni-yeni insanlar qoşulurdu. Hamı işini itirməmək üçün canfə-

şanlıq edir, hətta hər cür qeyri-qanuni və alçaldıcı münasibətlərə belə dözürdü. Bəzən haqqı verilməyən işləri görməyə vadar edilirdilər. Bir tərəfdən ifrat varlanmış məmurlar, digər tərəfdən taleyin ümidinə buraxılmış, var-yoxdan çıxmış insanlar. Cəmiyyətdə təbəqələşmə artırdı. Buna görə də şəhərdə iş tapmaq olduqca çətin idi. Bəzən bir yerə yüzlərlə iddiaçı meydana çıxırdı. Ali ixtisas və xüsusi peşə təhsili olmayanlar üçün iş tapmaq məsələsi daha qəliz idi. İş təcrübəsinin tələb olunması və bəzən də xarici dil bilmək şərti vəziyyəti daha da ağırlaşdırırdı. Yalnız ağır fiziki və qara işlər tapmağa ümid etmək olardı, o da tapılsaydı.

Oğlan ağır işdən qorxan, çəkinən deyildi. Təki iş olsun; halal zəhmətlə pul qazanıb öz xərclərini özü qarşılamaq istəyirdi. Artıq yaşlaşmış valideynlərinə yük olmaq fikrində deyildi, hətta pullu bir iş tapacağı təqdirdə ailəyə də kömək etmək haqqında düşünürdü.

Oğlan demək olar ki, hər gün qəzetlərdə və saytlarda iş elanları vermiş müəssisələrin qapılarını döyür, bir qayda olaraq əli boş qalırdı. İş tapmaq demək olar ki, mümkünsüz idi. Öz dost-tanışlarına da səs salaraq iş tapmaqda ona kömək etmələrini xahiş etmişdi.

Bir gün yaxın dostlarından biri oğlana iş imkanı yaranması ilə bağlı xəbər verdi. Oğlanın üstündən sanki dağ götürüldü. Nə iş olduğunu soruşmadan razılıq verdi. Düşündü ki, ən pisi tikintidə qara fəhlə işi ola bilər. Nə qədər ağır iş olsa da, bu işin öhdəsindən gələcəyinə inanırdı. Ona görə də sabahısı gün dostu ilə vədələşib təklif edilən işlə bağlı danışığa getməyi qərara aldı.

Dostu ilə görüşən kimi ona iş tapdığına görə böyük bir coşqunluqla öz təşəkkürünü, minnətdarlığını bildirdi. Dostu da soyuqqanlılıqla “dəyməz” deməklə kifayətləndi. Sonra dostundan:

“Yaxşı, nə iş olacaq?” – deyə soruşdu.

Dostu:

“Narahat olma, çox da ağır bir iş deyil, küçələrdə gül satan tələb olunur.”

Oğlan əvvəl qulaqlarına inanmadı. Bir daha:

“Nə işdi dedin?” – deyə soruşdu.

Dostu da:

“Səyyar gül satan işidi, əməkhaqqısı da pis deyil,” – dedi.

Bir anda oğlanın sevinci ağır bir kədər və təəssüf qarışıq pərtliklə əvəz olundu.

“Necə yəni gül satan işi? Bəyəm gül satmaq kişi işidi, eşidən-görən nə deyər?!”

Dostu təəccüblə onun üzünə baxdı:

“Sən nə danışırsan? Səndən də yaşlı kişilər bu işi almaq üçün növbəyə durub. Sadəcə iş verən bizim yaxın qohumumuzdu, xeyli xahiş etdikdən sonra o işi sənə verməyə razı salmışam. Bir də ki, bu işdə işləyərsən, paralel ürəyinə yatan başqa iş axtararsan, tapa bilsən, bu işi buraxarsan.”

Oğlan bilmədi nə desin. Ümidsizlik və çarəsizlik ona düşünməyə belə imkan vermədi. Bir tərəfdən pula olan ehtiyac, digər tərəfdən təklif olunan işin kişi işi olmaması onu sıxmağa başlamışdı. Bilmirdi gülsün, ya ağlasın. Ürəyində:

“Mən neynim indi? İki aydı iş axtarıram, heç yerdə iş yoxdu. Bu iş də qız işidi, görən nə deyər?”

Hələ sevdiyi qızın buna necə yanaşacağını da nəzərə alırdı. Hansı xanım qız işi görən oğlana hörmət edər? Yox desə – pulsuzluq, hə desə – işin utancverici olması onu üzəcəkdi.

Dostu oğlanın tutulduğunun fərqinə varmadan:

“Əşi, camaat qab yuyur, küçə süpürür, zibil daşıyır ki, pul qazansın. Allahına şükür elə ki, belə təmiz bir iş tapmışam sənə. Sənə pul lazımdı, yoxsa başqalarının münasibəti?”

Oğlan dostuna haqq verirdi. Axı o özü hamıdan xahiş etmişdi ki, ona tapacaqları iş nə olursa olsun, təki iş olsun. İndi də gül sat-

maq işi tapılmışdı. Dünəndən iş tapması ilə bağlı valideynlərinə və sevdiyi qıza da xəbər vermişdi. Onlar da buna xeyli sevinmiş, hətta onu təbrik belə etmişdilər.

"Nə iş tapmısan?" sualına:

"Hələ bilmirəm. Əşi, nə iş olursa olsun, ən ağır işdə də işləməyə hazıram," – deyə sevinclə cavab vermişdi.

İndi işdən imtina etsə – hamını pərt edəcəkdi, qəbul etsə – özü özündən utanacaqdı. Oğlan susmaqda davam edirdi.

Dostu:

"Nə deyirsən? Əgər istəmirsənsə, düzünü de. Bu gündən işə başlamaq lazımdı. Xoşuna gəlmirsə, deyim işi başqalarına versinlər."

Oğlanın yadına "Uzaq sahillərdə" filmindəki "Gül satan qız" epizodu düşdü. O, bu filmə sevgilisi ilə birlikdə baxmışdı. Filmdən çıxandan sonra sevgilisi:

"Doğrudan da qadın və kişinin öz yeri var. Gül satmaq əsl qadın işidi," – demişdi.

O da cavabında zarafatla:

"Gül gülü satar da," – demişdi.

İndi isə o gül satmalı idi. "Gül satan oğlan?!"

Kişi hara, gül satmaq hara…

O, küçələrdə bəzən gül satan uşaqları görmüşdü. Onların gülü necə satmaqlarına da diqqət etmişdi. Adətən yolda dayanıb maşında yanında qadın olan sürücülərə yaxınlaşır, kişilərə yanındakı qadına gül almağı təklif edirdilər. Çox nadir hallarda kişilər bundan imtina edirdi. Bəzən qadınlar gül istəmədiklərini deyib yanındakı kişinin üzə düşüb gül almasına mane olurdular.

Oğlanın gələcəklə bağlı planlarında gül satan uşaqlardan sevgilisinə gül almaq planı da var idi. O, tez-tez xəyalında bahalı bir maşında sevgilisi ilə şəhərə gəzməyə çıxır, yolda gülsatanlardan birinin yanında maşını saxlayıb gülün qiymətini soruşmadan bir

dəstə ən gözəl güllərdən alıb sevgilisinə hədiyyə edir, sonra gülün pulunu verib qalığının qaytarılmasını gözləmədən maşını sürüb gedirdi. Bununla sevdiyi qıza necə dəyər verdiyini, gülsatan uşaqlara isə əliaçıqlığını nümayiş etdirirdi.

İndi ona başqa oğlanlara sevgililəri üçün gül satmaq təklif olunurdu. Oğlanın qüruru:

"Olmaz, belə iş qız işidi, imtina et," – deyirdisə, ehtiyac:

"Bu fürsəti əldən buraxma, heç olmasa yaxşı bir iş tapana kimi razılaş," – pıçıldayırdı.

İkincinin səsi ona daha inandırıcı gəldi. Ürəyində:

"Qısa da olsa bu işdə işləyərəm, həm də iş axtarmaqda davam edərəm. Tapan kimi bu işi buraxıb kişi işi ilə məşğul olaram," – dedi və könülsüz də olsa işi qəbul etməyə razılıq verdi.

Dərhal da qərara gəldi ki, tapdığı iş haqqında kimsəyə nəsə deməsin. Çox təkid etsələr, "tikintidə fəhlə işidi," – desin. Çünki tikintidə ancaq kişilər fəhlə işləyir.

Həmin gündən oğlan ona ayrılmış küçədə dayanıb yanından keçən maşınlara gül satmağa başladı. Nə qədər istəsə də, başqa gül satanlar kimi sırtıqlıq etmir, heç kimə yaxınlaşıb gül təklif etmirdi. Sadəcə əlində gül, üzündə ağır bir kədər hissi, utana-utana yol kənarında dururdu.

Bəxti də gətirirdi. Boyu-buxunu, yaraşığı yoldan keçənləri cəlb edir, adamlar özləri maşını saxlayıb ondan gül alırdılar. Xüsusən qadın müştəriləri daha çox olurdu. Kişilər onun halına yandıqlarından, qadınlar xoşladıqlarından onun daimi müştərilərinə çevrilmişdi.

Hər gün ona verilmiş gülləri qısa müddətdə satıb qurtarır, gündəlik əməkhaqqını alıb hazırlıq kursuna gedirdi. İstirahət günləri işi qurtaran kimi sevdiyi qızı da götürüb şəhərə gəzməyə çıxırdı. Hər dəfə də yolda gül satan oğlan görəndə qızın təkidlə imtina etməsinə baxmayaraq ondan gül alıb sevgilisinə bağışlayırdı. Əslin-

də gül satan oğlanın yerində özünü görürdü və sanki özü özünə yaxşılıq edirdi.

Günlər bir-birini əvəz edirdi. Artıq əvvəlki kimi gül satmaq ona bir o qədər utancverici görünmürdü. Şəhərin ən ucqar yerində gül satmağa razılaşdığından demək olar ki, tanış adamlara rast gəlməmişdi. Bu da onu bir qədər rahatlaşdırmışdı.

Bir gün adəti üzrə yenə də əlində çoxlu gül dəstəsi həmişəki yerində dayanıb gül satırdı. Birdən yanında bahalı bir maşın dayandı. Sürücü onun üzünə baxmadan, xüsusi əda ilə, lağ edirmiş kimi:

"Gül satan oğlan, gül neçəyədi?" – deyə soruşdu.

Sonra da cavabı gözləmədən başını arxa oturacaqda oturmuş qadına çevirib:

"Hansı güllərdən xoşlanırsız?" – dedi.

Gül satan oğlan bir qədər başını aşağı salıb arxa oturacaqda oturan qadınlara gül seçimində öz köməyini təklif etmək istədi və dərhal da ildırım vurmuş adam kimi yerindəcə quruyub qaldı.

Arxa oturacaqda sevdiyi qız anası ilə yan-yana oturmuşdu. Qadın təkəbbüründən oğlanın üzünə baxmadı belə. Qız oğlanı görən kimi bir anlığa özünü itirdi. Üzündə izahı çətin olan qəribə bir ifadə yarandı.

Sevdiyi oğlanın düşdüyü vəziyyət, təkəbbürlü valideynlərinin istehzalı baxışı qızı bir anda qeyri-müəyyən vəziyyətə saldı. Oğlan da həmin anda sevdiyi qızla bağlı bütün xəyallarının ildırım sürəti ilə puç olduğunun ağırlığı altında sıxılmaqda davam edirdi.

Qızın atası iki dəstə gül alıb oğlana uzatdığı pulun qalığını istəmədiyini deyərək sürətlə maşını sürüb ordan uzaqlaşdı.

Həmin an oğlan hiss elədi ki, gələcəklə bağlı bütün xoş arzuları tələm-tələsik onu tərk edib sürətlə uçaraq o maşının arxasınca gözdən itdilər.

Oğlan bir əlində pul, bir əlində gül, ürəyində ağır bir kədər qarışıq ümidsizlik, beynində bir-birinə qarışmış fikirlər – düşünmə qabiliyyətini itirmiş biri kimi gedən maşının və puç olmuş gələcək arzularının arxasınca baxa-baxa qaldı.

OYUN VƏ YA "ÜÇÜNCÜ ARTIQDIR"

(Psixoloji hekayə)

"Həyat teatrdır, insanlar aktyor."
Vilyam Şekspir

Onların dostluğu təsadüfən başlamışdı...

Həmişə olduğu kimi, həyətdə uşaqlar ucadan qışqıra-qışqıra futbol oynayırdılar. Ruslan da kənarda dayanıb onların oyununa tamaşa edə-edə iki-üç il bundan qabağı xatırlayırdı. O da öz yaşıdları ilə hər gün dərsdən gələn kimi top qovalayardı. Amma indi universitetdə psixologiya ixtisası üzrə təhsil alırdı. Boş vaxtlarında müntəzəm idman məşqlərinə gedir, üzgüçülüklə məşğul olurdu. Günü-gündən kişiləşirdi: sinəsi enlənmiş, əzələləri geydiyi nazik köynəyinə iz salırdı. Təzəcə buraxdığı qısa saqqal və nazik bığ onu çox yaraşıqlı göstərirdi. Digər oğlanlar kimi o da fəxr edirdi ki, qızların diqqətini çəkir.

Ruslanı xatirələrdən qəflətən uşaqların dalaşma səsi ayırdı. İki oğlan rəqib komandadan birini yerə yıxıb döyürdülər. Bir həyətdə yaşasalar da, Ruslan onların heç birini yaxından tanımırdı. Amma hər halda uşaqları ayırmağı özünə borc bildi. Yaxına gedib savaşanları ayırdı. Yerdə yıxılıb qalmış, ağzı-burnu qan içində olan oğlanın qolundan yapışıb ayağa qaldırdı, üstünü çırpdı.

– Niyə boş yerə savaşırsınız?

Oğlan ağlaya-ağlaya:

– Görmürsən, cığallıq edirlər, – dedi.

Ruslan güldü:

– Əşi, dünya dağılmır ki. Elə bil dünya çempionatında oynayırsınız. Adam hər şeydən ötrü savaşmaz ki. Yaxşı, əl-üzünü yu, başını yuxarı tut, burnundan qan gəlməsin.

Oğlan əli ilə burun pərlərini sıxıb qanaxmanı kəsməyə çalışdı. Bu zaman Ruslan onun üzünü gördü. Qara qıvrım saçlı, iri gözlü, qalın dodaqlı, çox yaraşıqlı bir oğlan idi. Ruslan qeyri-ixtiyari soruşdu:

– Sənin adın nədir?

– Fərid, – oğlan artıq ağlamırdı.

– Yaxşı, Fərid, gəl səni evinizə aparım. Deyəsən, çox əzilibsən.

Ruslan cavabı gözləmədən təzə tanış olduğu oğlanın qolundan tutub dartdı. Fərid müqavimət göstərmədi, əksinə sakitcə onun yanında addımladı. Yolda qısa söhbətlərindən məlum oldu ki, Fəridgil onların binasından iki-üç bina aralı, təzə tikilmiş 20 mərtəbəli binaya yenicə köçüblər. Atası mühəndis, anası həkim işləyir və o, bu ailənin yeganə uşağıdır.

Fəridgilin binasına çatanda:

– Mən özüm gedərəm, sağ ol, – deyə mızıldandı.

Ertəsi gün Ruslan universitetdən evə qayıdanda keçmiş məktəblərinin qarşısında Fəridlə rastlaşdı.

– Sən də burda oxuyursan?

– Hə, bir aydır ki, bu məktəbə keçmişəm.

Onlar söhbət edə-edə evlərinə doğru addımladılar. Məlum oldu ki, Fərid səkkizinci sinifdə oxuyur. İncəsənətə böyük marağı var, əlavə olaraq musiqi təhsili alır.

Fərid Ruslanın tam əksinə, çox incə bədənli, oğlan uşaqlarına xas olmayan bir gözəlliyə malik idi. Yolda gedə-gedə oğlan gözaltı oğrun-oğrun Ruslanı süzürdü. Onun bədən quruluşuna həsəd aparırdı. Özünün də belə bədənə sahib olmasını çox istərdi, amma idmanı heç sevmirdi. Ürəyindən onunla dost olmaq istəyirdi. Elə bil Ruslan onun ürəyindən keçənləri eşitdi:

– İstəsən, dostluq edək.

– Edək! – Fərid sevincini gizlədə bilmədi.

Əslində "ura" deyə qışqırmaqdan özünü güclə saxladı. İndi Fəridin onu himayə edəcək güclü, bütün qızların həsədlə baxdığı idmançı dostu vardı. O, artıq Ruslanla dostluğuna görə fəxr edirdi. Özündə ildırım sürəti ilə Ruslana qarşı xüsusi bir hissin yarandığını hiss etdi. Bu hissi dostluq kimi qəbul etdi. Çünki valideyn sevgisindən başqa heç bir emosiyanı tanımırdı.

Ruslan da Fərid kimi gözəl, ağıllı və nəcib bir dost tapdığına görə məmnun idi. Evə çatanda sanki neçə illərin dostları kimi ayrıldılar.

Həmin gündən dostlar hər gün birlikdə evdən çıxır, Fəridin məktəbinə çatana qədər piyada gedir, sonra sağollaşıb ayrılırdılar. Bir müddət sonra bir-birinin evinə gedib-gəlməyə başladılar. Ailələr də övladlarının dostluğu vasitəsilə yaxınlaşmışdı. Ruslanın valideynləri həkim idi, buna görə Fəridin anası ilə tez dil tapmışdılar. Ailə şənliklərində bir-birinin ən əziz qonağı olurdular.

Ruslanla Fərid arasındakı münasibət getdikcə dərinləşirdi. Artıq onlar iki bədəndə bir ruh kimi idilər. Bir gün bir-birini görməyəndə darıxırdılar. Vaxtlarının çoxu birlikdə keçirdi.

İllər sürətlə ötdü. Ruslan üçüncü kursda oxuyanda Fərid yüksək balla İncəsənət Universitetinin aktyorluq fakültəsinə daxil oldu. İndi hər ikisi tələbə idi.

Onların ən sevdiyi məşğuliyyət ya şəhərdə gəzmək, ya da birinin evində birlikdə vaxt keçirmək idi. Bir-birindən heç bir sirr saxlamırdılar. Ruslan tam bir cəngavər formasına düşmüşdü. Fərid onun əzələli bədəninə baxmaqdan doymurdu. Ruslan da bunu hiss edirmiş kimi çox vaxt yarıçılpaq halda Fəridin qarşısında müxtəlif bədən hərəkətləri göstərirdi. Fəridin ona həsədlə baxmasından zövq alırdı.

Fərid də öz növbəsində yetkin bir gəncə çevrilmişdi. Daha yaraşıqlı, incə, həssas idi. Onda oğlanlardan çox qızlara xas kövrəklik vardı. Kiçik şeydən inciyir, gözləri dolur, ağlamaqdan özünü

güclə saxlayırdı. Ruslan qızların diqqətini daha çox çəkirdisə, Fəridin gözəlliyinə hətta oğlanlar da laqeyd qalmırdı. Birlikdə isə bir-birini tamamlayırdılar.

Fərid hələ də Ruslana özünün hamisi kimi baxırdı. Ona tabe olmaqdan, onun xoşladığı şeyləri etməkdən xüsusi zövq alırdı. Evdən çıxanda saçını Ruslanın xoşladığı kimi düzəldir, onun ad günündə hədiyyə etdiyi köynəyi geyir, hətta üz ifadələrini belə Ruslanın bəyəndiyi formaya salmaq üçün məşq edirdi.

Ruslan da Fəridi himayə etməyi özünə borc bilirdi. Onun problemlərinin həllində xüsusi canfəşanlıq göstərirdi. Dostlar o qədər mehribanlaşmışdılar ki, hətta bir-birini qısqanırdılar. Ruslanı başqa bir oğlan və ya qızla görəndə Fərid bəhanə tapıb günlərlə ondan küsürdü.

Ruslan isə Fəridin davranışlarını anlaya bilmirdi:

– Bu nədir, iki gündən bir qız kimi küsürsən. Əgər qəbahətim var, üzümə de, üzr istəyim. Biz axı dostuq.

Fərid bunu eşidən kimi dərhal barışırdı:

– Küsməmişəm, bir az başım qarışıq idi.

Əslində Ruslan da Fəridi qısqanırdı. Amma yalnız oğlanlarla dostluğuna reaksiya verirdi. Fərid kimi küsməsə də, onunla yaxınlıq etmək istəyən oğlanları uzaqlaşdırmaq üçün yüz bəhanə tapırdı:

"Birdən narkoman olar",

"Bəlkə pozğun ailənin uşağıdır".

Fərid isə bu sözləri eşitməkdən həzz alırdı. Dostunun onu qısqandığını bilmək onu ruhən rahatlaşdırırdı.

Qarşılıqlı qısqanclıq onları adamlardan qaçmağa, daha sakit yerlərdə gəzməyə sövq edirdi. Son vaxtlar bulvarda alaqaranlıq bir küncdə özlərinə daimi görüş yeri tapmışdılar – köhnə dəbdə hazırlanmış ikinəfərlik taxta oturacaq. O tərəflərdə adamlar nadir hallarda görünürdü. Oturacaq sanki yalnız onları gözləyirdi.

Bir dəfə Fərid sınayıcı nəzərlərlə Ruslana baxa-baxa soruşdu:

– Necə bilirsən, bəlkə biz özümüzə üçüncü bir dost da seçək? Üçlükdə daha maraqlı olmaz?

Əslində Fərid Ruslanın belə bir fikrə necə reaksiya verəcəyini yoxlayırdı. Onların arasına üçüncü birinin girməsi fikri onu dəli edirdi.

Ruslan üzünə baxmadan avtomatik cavab verdi:

– "Üçüncü artıqdır" deyimini eşitməmisən?

Fərid:

– O deyim oğlan-qız münasibətinə aiddir. Oğlanlar arasındakı dostluğa aidiyyəti yoxdur.

Ruslan:

– Nə fərqi var, məhəbbət məhəbbətdir. Ya dostluq məhəbbəti, ya sevgili məhəbbəti.

Fərid bu sözlərdən içində gizli bir sevinc duydu. Amma üzündə laqeydlik yaradıb söhbəti davam etdirdi:

– Yaxşı, bəs sevgili məsələsi necə? Birdən üçüncü dostumuz qız oldu və ya birimiz bir qıza vurulduq. Onda necə olacaq? Yenə "üçüncü artıqdır" deyəcəksən? Onda hansımızı seçəcəksən?

Fəridin özünü qızla müqayisə etməsi Ruslanda qəribə bir hiss yaratdı. Bir anlığa Fərid onun üçün sevgiliyə çevrildi və dərhal yox oldu. Ruslan özündə Fəridlə bağlı ani yaranan hissdən diksindi. Dərhal, həyəcanla:

– O başqa məsələdir, onu buna qarışdırma.

Fəridin ürəyi Ruslanın bu sözlərindən sıxıldı. Dostunun bir qızla tanış olduqdan sonra onu unudacağından, itirəcəyindən kədərləndi. O, Ruslanı kiməsə güzəştə getməyəcəyini anlamağa başlayırdı.

– Yaxşı, sənə psixoloq kimi bir sual verim. Oğlanla dost olduğun kimi qızla da dost olmaq olar?

– Hə, əlbəttə. Dost dostdur da, nə fərqi, qız ya oğlan?!

– Yaxşı, dost olduğun qızı sonra sevə bilərsən?

Ruslanın yadına psixologiya mühazirəsində məhəbbətlə bağlı lektorun dediyi fikirlər düşdü:

"Dostluqda məhəbbət güclənəndə, o sevgiyə, əksinə sevgidə məhəbbət azalanda dostluğa çevrilir."

Bunu nəzərdə tutub dedi:

– Əlbəttə, əgər qızla dostluqda məhəbbət güclənirsə, o sevgiyə çevrilir.

– Bəs onda oğlanla dostluqda məhəbbət güclənsə sevgiyə çevrilə bilər?

Ruslan Fəridin söhbəti hara apardığının fərqində olmadığından bu sualı gözləmirdi. Nə deyəcəyini bilmədi. Çevrilib Fəridin üzünə baxdı. Fərid başını aşağı salıb yerə baxırdı. Onun üzünü görməsə də, Ruslan onun qızardığını, həyəcanla əsdiyini aydın sezirdi. Fəridin halından heç nə anlamadı. Özü də dəqiq cavabını bilmədiyi bu suala cavab verməyə cəhd etdi:

– Yox, çevrilməz. Çünki iki oğlan arasında dostluqda məhəbbət heç vaxt güclənmir.

Dərhal da özü öz yalanını tutdu. Ürəyində Fəridlə olan dostluq tarixçəsini düşündü. Təsadüfi, adi bir tanışlıqdan başlayıb illərlə davam edən dostluqlarında bir-birinə məhəbbətləri demək olar ki, hər gün güclənmişdi. İndi o qədər bir-birini sevirdilər ki, hətta biri o biri üçün ölümə belə hazır idi.

– Niyə? Nə fərqi var? Necə olur ki, qız həm dost, həm sevgili ola bilir, amma oğlan yox?

Ruslan psixologiyadan öyrəndiyi seksuallıqla bağlı məsələləri beynindən keçirdi. Əslində o, Fəridə homoseksuallıq haqqında nəsə demək istədi, amma fikrindən daşındı. Ümumiyyətlə, söhbətin bu istiqamətdə inkişafı ona xoş gəlmirdi. Sonra kobudluqla:

– Fərqi çoxdur. Qızla sevgi meyvə verir, oğlanla sevginin meyvəsi olmur. Səncə kim meyvəsiz ağac bəsləyər?

Ruslan öz "kəşfindən" razı qaldı. Doğrudan da, qızla sevgi sonda dünyaya üçüncü bir insanın gəlməsinə səbəb olur. Bəlkə də buna görə oğlanla sevgi mümkün deyil.

Fərid əl çəkmirdi. Dostunun psixologiyadan bilikli olmasını bəhanə edib sualı sual dalınca verirdi. Elə bil Ruslanla aralarındakı münasibəti təhlil edib hansısa həqiqəti üzə çıxarmağa çalışırdı.

– Yaxşı, bəs onda sonsuz qadını sevmək olar? Ya da başqa adamın uşağını övladlığa götürəndə, niyə bunu ancaq qızla sevgidə etmək olar, oğlanla yox?

Ruslan bu dəfə başqa arqument gətirdi:

– Qızla sevgi normaldır, oğlanla sevgi anormal.

– Yaxşı, onda niyə cəmiyyətdə başqa anormallıqlara dözümlə yanaşırlar, iki eyni cinsdən olan arasındakı "anormal" münasibətə yox?

– Çünki biri təbiidir, o biri qeyri-təbii.

– Nə olsun? İndi hər yerdə geni dəyişmiş məhsullar istehsal edirlər, insan klonlaşdırılır, qeyri-cinsi hüceyrələrdən nəsil alınır, biz sintetik mühitdə yaşayırıq. Sən deyirdin ki, insan təbiətdən ayrıldıqca əsl insana çevrilir. Onda qeyri-təbiilik bizim insaniliyimizin təzahürü deyil?

Ruslan Fəridin ard-arda verdiyi suallara cavab tapa bilmirdi. Həm bəzi sualların cavabını bilmirdi, həm də bu mövzuda danışmaq ona xoş gəlmirdi. Elə bil Fəridin onun gizlətdiyi hansısa sirri açacağından qorxurdu. Axırda:

– Belə söhbətlərin nə mənası var? Onsuz da kim necə istəyir, elə yaşayır. Sadəcə cəmiyyət buna pis baxır, çünki din qadağan edir, mentalitetimizə ziddir.

Fərid yarı istehza, yarı ciddi:

– Yaxşı, başqa dinə keçib başqa mentaliteti qəbul etsən onda necə? Məsələn, Avropada necə olur ki, hətta eyni cinsdən olanların evlənməsini qanuniləşdirirlər?

– Avropada təkcə belə qanun yoxdur. Orada ümumiyyətlə ailə üslubu bizimkindən fərqlidir. İndi onlarda kontrakt ailə institutuna keçilib. Həm də cəmiyyət özü belə əlaqələri normal qəbul edir.

– Onda onların cəmiyyəti nəyə görə qeyri-təbii olanları qəbul edir, bizimki yox?

Ruslan artıq əsəbiləşirdi:

– Çünki onlarda çoxluq belə əlaqələri xoşlayır.

– Belə çıxır ki, bizdə də belə münasibətlər çoxalsa, qanuniləşəcək?

– Mən nə bilim. Bizdə heç vaxt çoxalmaz. Bizim öz xüsusi dəyərlərimiz var.

– Bəs onda niyə başqa məsələlərlə bağlı universal dəyərləri müdafiə edirik?

Ruslan əsəbi halda:

– Fərid, xahiş edirəm, bu söhbəti qurtaraq. Bunun bizə nə aidiyyəti var? Bu nə söhbətdir salmısan? Bir də belə şeylərdən danışmağı xoşlamıram.

Fərid özünü arsızlığa qoyub şit-şirkin güldü:

– Qorxdun başına gələr?

Ruslan Fəridin bu sözlərindən diksindi. Özünü bilməməzliyə vurub:

– Mənim səndən başqa dostum yoxdur. Olmayacaq da. Ona görə başıma gələ bilməz.

Fərid istədi desin: "Bəlkə elə mənimlə bağlı başına gələcək", amma özünü saxladı. Ruslanın ondan şübhələnəcəyindən çəkindi.

Ruslan ürəyində özü də dediyinə inanmırdı. Psixologiyadan seksuallıqla bağlı oxuduqları əslində dediklərini təkzib edirdi. O, son aylar Fəridlə aralarında formalaşan münasibətin xarakterini və bir-birinə olan məhəbbəti psixoloji olaraq izah edə bilmirdi. Xüsusən son vaxtlar Fəridlə görüşəndə və ayrılarkən onu öpməkdən özünü saxlaya bilmirdi. Bir yerdə olanda Fəridin ona sıxılıb başını

sinəsinə qoymasından, saçlarını qoxlamaqdan qeyri-adi həzz alırdı. Hətta Fəridin saçlarından gələn və ağlını başından alan qoxuya özlüyündə ad da qoymuşdu – "Məhəbbət ətri". Amma bunu dostluq məhəbbəti kimi yozurdu.

Ruslan Fəridlə bağlı ən kiçik hadisəyə belə güclü reaksiya verir, ona müxtəlif bəhanələrlə hədiyyələr almaqdan zövq alırdı. Özünə Fəridin gözü ilə baxır, ona xoş gəlsin deyə özünə əl gəzdirirdi. Elə bil Fəridə xoş gəlmək üçün özü özü ilə yarışırdı. Hətta bir neçə dəfə uzun müddət küsülü olduqları vaxtlarda axşam yatanda onu xatırlayıb xeyli ağlamışdı.

Ruslan başa düşürdü ki, Fəridə olan münasibəti dostluq çərçivəsindən çoxdan çıxıb, amma bunun hansı çərçivəyə daxil olduğunu anlamırdı, bəlkə də anlamaq istəmirdi.

Fərid də elə bil Ruslanın duyğularını hiss edir və düşünülmüş şəkildə ona qarşılıq verirdi. Yol gedəndə çox vaxt ya Ruslanın əlindən tuturdu, ya da əlini onun çiyninə qoyurdu. Bir yerdə oturanda ona sığınır, bədəninin hərarəti ilə qızışmaqdan zövq alırdı. Ruslanın əlini öz boynuna dolayıb saxlayırdı. Ruslanın əli təsadüfən onun belinə dəyəndə bunun əbədi davam etməsini istəyirdi.

Hətta bir dəfə Ruslan bu hərəkətlərlə bağlı ona demişdi:

– Kənardan baxan elə bilər, biz sevgiliyik. Belə davranışlar bir-birini sevən oğlan-qız arasında olur.

Fərid isə:

– Mənə xoşdur. Kim necə başa düşür, düşsün.

Əslində doğrudan da onları sevgililərdən seçmək çətin idi. İncəsənət institutunda oxumasını bəhanə edən Fərid oğlanlara xas olmayan rəngli paltarlar geyinməyə, uzun saç saxlamağa üstünlük verirdi. Hərəkətlərində artistlik edib bəzən qız roluna girir, Ruslanla zarafatlaşırdı.

Bir dəfə Ruslanın valideynləri rayona getmişdi. O, tək qalmamaq üçün Fəridi onlarda qalmağa razı salmışdı. Axşam yatanda

Fərid nədənsə onunla bir çarpayıda yatmaq istəmişdi. Ruslan da buna etiraz etməmiş və yataqlarını ikinəfərlik çarpayıda salmışdı. Gecə yarı yuxudan ayılanda Fəridin onu qucaqlayıb şirin yuxuya getdiyini görmüşdü. Əvvəl onu özündən ayırmaq istəməmişdi, hətta fürsət bilib onu bir az da özünə sıxmışdı. Qəribə hisslər keçirməyə başlayanda isə dərhal aralanmış və çarpayının kənarına çəkilib yatmışdı.

İndi də Fəridin bu mənasız sualları onsuz da ağlı qarışmış Ruslanın düşüncələrini daha da dolaşdırırdı.

Fərid dayanmaq bilmirdi:

– Yaxşı, insan həm biri ilə dost ola-ola başqa biri ilə də sevişə bilər?

– Əlbəttə, niyə də olmasın.

– Bəs deyirlər ki, üçüncü artıqdır. Onda əgər sən bir qızla sevişsən, mənlə necə bir yerdə olacağıq? Deməli, mən artıq olacağam da.

Ruslan heç bu sualı düşünməmişdi. Doğrudan da, əgər özünə bir qız sevgili tapsa və onu dərin məhəbbətlə sevsə, onda bu gün Fəridə həsr etdiyi vaxtı ona həsr etməli olacaq. Deməli, Fəridlə əlaqələrini zəiflətməlidir.

– Yox, mən belə düşünmürəm. Hərənin öz yeri var. Bir də başqalarını deyə bilmərəm, sən mənim üçün heç vaxt artıq olmayacaqsan.

Fərid:

– İnanmıram. Necə deyərlər, qoyunun yoxdur, bıçağın itidir. Hələ sevdiyin qız yoxdur. Baxaq görək, sevməyə başlayanda yenə belə deyəcəksən? Məni unudub onunla sevişməyəcəksən?

Ruslan dinmədi. Çünki deyəcək söz tapmadı. Həm də cavab verdikcə Fərid söhbəti daha da dərinləşdirirdi. Bunun yaxşı nəticə verməyəcəyindən narahat olmağa başlamışdı. Ruslan qətiyyətlə üzünü Fəridə tutub dedi:

– Xahiş edirəm, bu mövzuda bir daha mənimlə danışma.

– Niyə? Nədən qorxursan? Bunun bizə aidiyyəti yoxdur ki. Elə-belə vaxt keçirmək, həm də bəzi şeyləri özüm üçün aydınlaşdırmaq istədim. Dediklərimi zarafat kimi qəbul et, unut getsin. Söz, bir də bu haqda sənlə heç nə danışmayacağam.

Ruslan söhbətin məcrasını dəyişmək üçün təşəbbüsü ələ aldı:

– Yaxşı, gəl sənin ixtisasından danışaq. Məsələn, rol nədir? Sosial rolla səhnə rolunun nə fərqi var? Bir roldan başqasına keçmək asandır, yoxsa çətin? Sən hansı rollarda oynamaq istərdin?

Fərid Ruslanın söhbətdən qaçmaq istədiyini anladı. Amma cavabları elə vermək istəyirdi ki, əvvəlki mövzunun davamı kimi səslənsin:

– Əslində Şekspir demişkən: "Həyat teatrdır, insanlar aktyor." Yəni teatr rolu ilə sosial rol formaca eyni, amma mahiyyətcə fərqlidir. Məsələn, teatrda rolu sənə verirlər, həyatda rolu sən özün alırsan. Səhnə rolu müvəqqətidir, həyatda isə rol daimidir. Səhnədə çoxlu müxtəlif rol oynaya bilərsən, həyatda yalnız bir rol oynamalısan. Səhnədə rol dəyişmək adi bir işdir, həyatda rol dəyişmək bəzən insanın həyatı bahasına başa gəlir. Teatrda hər iki cinsin rolunu oynamaq təbiidir, amma həyatda əks cinsin rolunu oynamaq qeyri-təbiidir. Teatrda qadın rolu oynayan kişi aktyorları alqışlayırlar, mükafatlandırırlar, amma həyatda əks cinsin rolunu oynayanları ittiham edir, cəzalandırırlar...

Ruslan diqqətlə qulaq asdı və sonda verdiyi sualdan peşman oldu. Çünki kəsmək istədiyi mövzular indi daha ciddi və elmi şəkildə davam edirdi.

– Aydındır. Bu gün sən psixologiyadan, mən də aktyorluq sənətindən çox şey öyrəndik. Daha gecdir, evə gedək.

Bir dəfə Fəridgilə gedəndə Fərid öz istedadını göstərmək üçün iki qadın rolunu Ruslana oynamaq istədiyini dedi:

– İmtahana hazırlaşıram. Mən qadın rolunda oynamalıyam. İki rol seçmişəm: Şekspirin Dezdemonasını, Cəfər Cabbarlının "Vəfalı Səriyyə"sini. İlk tamaşaçım sən olacaqsan. İstəyirəm imtahan üçün oynayacağım rolu sən seçəsən.

O, Ruslanı əvvəlcə Otellonun yerinə qoydu. Otellonun qısqanclığı qarşısında ona məhəbbətini və sədaqətini sübut edirmiş kimi Ruslanın ayaqlarına yıxılıb əllərini öpməyə, ayaqlarından yapışıb ağlamağa başladı. Fərid elə ürəkdən ağlayır, yalvarırdı ki, Ruslan onun rolda olduğunu bir anlıq unutdu. Ona elə gəldi ki, Fərid doğrudan da onu – Ruslanı sevdiyini, ona sədaqətli olduğunu sübut etməyə çalışır. Özü də bilmədən:

– Qalx, Fərid, mən sənə inanıram. Mən də səni sevirəm, – dedi.

Fərid gülə-gülə:

– Yox, olmadı. Sən Ruslan yox, indi Otellosan və məni boğmalısan. Tut boğazımdan, məni boğ.

Ruslan pərt oldu. İfşa olunduğunu hiss etdi. Sonra hirslə:

– Mən artist deyiləm, əl çək, – deyib kompüterin qarşısına keçdi və özünü məşğul kimi göstərdi.

Fərid ayağa qalxıb nüfuzedici nəzərlərlə Ruslanın gözlərinə, sanki onun qəlbinin dərinliklərinə baxdı:

– Görürsən? Deməli, rolumu yaxşı oynamışam. Sən bunun rol olduğunu belə unutdun.

Ruslan öz-özünə düşündü:

"Yaxşı, mən rolu unutdum, bəs dediyim sözlər nə idi? Əgər bunun rola aidiyyəti yox idisə, onda..."

Pərt halda:

– Lap məni çaşdırdın. Yaxşı rola girə bilirsənmiş. Məndən aktyor çıxmaz, boynuma alıram.

Fərid teatrını davam etdirməkdə israrlı idi. Bu dəfə Ruslan nökər Əbdül rolunda, Fərid isə Səriyyə rolunda idi. Uzaqdan toy səsləri gəlirdi. Səriyyə – Fərid ağır xəstə halda çarpayıdan yerə yıxı-

lır, nakam eşqinin fəryadı ilə Əbdülə – Ruslana səslənirdi. Ruslan yenə özünü itirdi. Gözləri yaşardı. Sanki qarşısındakı hadisələr real həyatda onun canı qədər sevdiyi Fəridlə bağlı baş verirdi. Ona elə gəldi ki, Fərid onun – Ruslanın xəyanətindən əzab çəkir, Səriyyənin ölümünə günahkar odur.

Ruslan aşağı əyilib guya ölmüş Səriyyəni – Fəridi qaldırdı. Fəridin rəngi avazımışdı, ağlamaqdan gözləri qızarmışdı. Yazıq-yazıq Ruslana baxıb:

– Dostum, mənə xəyanət etmə, məni tərk etmə. Mən buna dözə bilmərəm, – dedi.

Ruslan:

– Qurtar da bu gic-gic hərəkətlərini. Bayaqdan qadın roluna girmisən, hələ də çıxa bilmirsən. Elə bil sevgiliyik. Bu nə sözlərdir danışırsan?

Fərid yorğun-yorğun:

– Deməli, rolumu yaxşı oynayıram ki, səni qıcıqlandırıram.

Ruslan başa düşmədi ki, Fərid hansı rolu nəzərdə tutur – həyatda oynadığı, yoxsa məşqdəki.

Artıq Ruslan münasibətlərinin başqa bir məcraya yönəldiyini hiss edirdi. Özlüyündə çıxış yolunu həm özünə, həm də Fəridə qız dostu tapmaqda görürdü. Məqsədini bildirmədən dedi:

– Məncə, artıq vaxtdır. Hər kəsin qız dostu var. Gəl, biz də özümüzə qız tapaq.

Fərid:

– Sən istəyirsən tap, mən istəmirəm. Mənim üçün üçüncü artıqdır.

Sonra zarafatla:

– Mənim qəlbim bir sevgi üçün hesablanıb. Orada iki sevgi yan-yana yerləşməz.

Ruslan öz qərarında qəti idi. İndi o, ətrafındakı qızlara diqqətlə baxmağa, xoşuna gələnlərlə könülsüz də olsa yaxınlıq etməyə ça-

lışırdı. Hətta Fəridlə bir yerdə olanda, o istəməsə də, qoşa gəzən qızları axtarıb onların dalınca düşürdülər.

Dərsləri eyni vaxtda qurtarmayanda qabaqcadan sözləşib, Fəridlə Ruslan çox vaxt ayrı-ayrılıqda bulvara gəlir və həmişəki görüş yerlərində birləşib adamların arasına qarışırdılar.

Bu dəfə də adəti üzrə Ruslan Fəridlə bulvarda gəzmək üçün ondan qabaq görüş yerinə gəldi. Uzaqdan, alaqaranlıqda həmişə oturduqları oturacaqda bir nəfərin oturduğunu gördü. Düşündü ki, yəqin Fəriddir. Dərsləri tez qurtarıb, ona görə tez gəlib. Yanından keçən qızlara baxa-baxa oturacağa yaxınlaşdı və oturana baxmadan:

– Salam, çox gözlətmədim ki səni? – deyib əlini uzatdı.

– Mən sizi gözləmirəm.

Cavabı eşidəndə dönüb qarşısındakına baxdı.

Bu, Fərid yox, gözəl bir qız idi. Şabalıdı saçları, iri mavi gözləri, qıvrım kiprikləri, al yanaqları, zövqlə boyanmış qalın dodaqları… Ruslan qarşısında həmişə xəyal etdiyi qızı görürdü. Əslində, Ruslanın xəyalındakı qızın prototipi Fərid idi. O çox istəyirdi ki, sevdiyi qız Fəridlə eyni cizgilərə, xarakterə, boya malik olsun. Həm də nədənsə onun Fəridə çox oxşamasını arzulayırdı.

İndi qarşısında dayanıb ona gülümsəyən qız elə bil xəyallarından çıxmışdı. Fəridlə bir alma kimi iki yerə bölünmüşdülər. Hətta səsi də Fəridin səsinə çox oxşayırdı. Ruslan qızın gözlərinə baxanda o gözlərdə hiylə dolu, amma sanki tanış bir təbəssüm gördü. Yalnız gözlərinin rəngi fərqli idi – mavi. Əgər bu fərqi görməsəydi, qızın Fərid olduğuna inanardı.

Ruslanın ürəyi atlandı. O, ildırım sürətli məhəbbətə heç vaxt inanmamışdı, amma indi ilk baxışdan sevgi ilə üz-üzə idi. Qızı görməyi ilə ona vurulmağı bir oldu. Elə bil qız da ona vurulmuşdu. Ruslan həyatının bu fürsətini əldən verə bilməzdi.

– Adınızı bilmək olar?

Artıq ayağa qalxmış qız:

– Əgər bu vacibdirsə, adım Fəridədir, – dedi.

Ruslan bu təsadüfə bir daha sevindi. Dostu Fərid, sevgilisi Fəridə… Hələ zarafatla düşündü: "Fərqimiz bir 'ə'dir".

Ruslan tanışlığı dərinləşdirməyə çalışdı:

– Əgər etiraz etmirsinizsə, birgə gəzə bilərik.

– Yox, etmirəm. Rəfiqəmi gözləyirəm. O gələnə kimi gəzə bilərik.

– Hə, yaxşı. Mən də dostumu gözləyirəm. O da gələr, onda dördlükdə gəzərik.

Fəridə utancaq-utancaq:

– Artıq dördümüzün də əvəzinə hər şeyi sən qərar verməyə başladın.

Ruslan Fəridə ilə gəzməyə başladı. Bəxtlərindən nə Fəridənin rəfiqəsi, nə də Fərid gəlib çıxdı. Ruslan bundan çox sevindi. Ən azı qızla birlikdə xeyli vaxt keçirdi, bir-biri haqqında bəzi məlumatlar öyrəndilər. Fəridə də rəfiqəsinin gəlməməsinə elə bil narahat olmadı. Hətta görünürdü ki, onu gözlədiyini belə unudub.

Ruslan Fəridəyə onunla daimi dost olmaq istədiyini bildirdi.

– Olar, amma mənim iki şərtim var.

Ruslan hər şərtə hazır idi, təki Fəridə ona "yox" deməsin.

– Birincisi, aramızda bəlli bir məsafə olacaq, yəni fiziki təmas olmayacaq. İkincisi, heç vaxt məni evimizə ötürməyəcəksən.

Fəridə hər iki şərti ailəsi ilə əlaqələndirdi. Üç qardaşı vardı. Onlar Fəridənin kimlə gəzdiyini bilsəydilər, qan düşərdi. Fəridə özü də yaxşı tanımadığı insanlarla ifrat yaxınlığı düzgün hesab etmirdi.

– Hələ biz dostluğa başlayırıq, kim bilir hara qədər gedə biləcəyik.

Ruslan fərqinə varmadan razılaşdı. Ürəyində düşündü: "Bir müddətdən sonra şərt-mərt yaddan çıxacaq".

Artıq xeyli vaxt keçmişdi, qaranlıq düşürdü. Fəridə evə getmək vaxtının çatdığını deyəndə Ruslan:

– Ötürüm səni, – dedi.

Fəridə:

– Şərtimizə görə yox. Və heç vaxt bunu ağlına gətirmə.

Sonra Ruslanla əl vermədən sağollaşıb dayanacaqdakı avtobusa mindi.

Həmin gündən Ruslan Fəridə ilə tez-tez görüşməyə başladı. İndi o, Fəridəni sevirdi. Bu sevgi ilə Fəridə olan dostluq məhəbbəti arasında heç bir fərq görmürdü. Bundan həm sevinir, həm də təəccüblənirdi. Sevinirdi, çünki dostu ilə sevgilisi arasında seçim etmək məcburiyyətində qalmırdı. Təəccüblənirdi, çünki qızla oğlana eyni hissləri bəsləməyinin səbəbini özü də anlaya bilmirdi. O əvvəllər düşünürdü ki, qızlara olan hisslərlə oğlanlara olan hisslər arasında heç bir oxşarlıq ola bilməz. Amma indi bunun tam əksini görürdü.

Ruslan Fəridə ilə tanış olduğu gündən Fəridlə görüş vaxtını dəyişdirmişdi. Əvvəlcə o, Fəridin onun özünə qız tapdığını bilməsini istəmirdi. Ondan gizlədirdi. Düşünürdü ki, Fərid qısqanclıq edər, küsər. Sonra gec-tez bunu deməli olduğunu düşünüb ilk məhəbbəti haqqında dostuna danışdı.

Fərid əvvəl özünü küsmüş kimi göstərdi:

– Mən artıq sənin üçün artığam, – dedi.

Sonra:

– Onda ikimizi də eyni dərəcədə sevəcəyinə söz ver.

Ruslan Fəridin bu cür danışıqlarına adət etmişdi.

– Yaxşı-yaxşı. İkiniz arasında heç bir fərq qoymayacağam ki, hər hansı biriniz mənim üçün "üçüncü" kimi artıq olmayasınız.

Fərid:

– Hə, onda problem yoxdur. Bəs nə vaxt bizi tanış edirsən? Danış da, onu necə sevirsən? Məni çox istəyirsən, ya onu?

Fərid cavab gözləmədən sualı suala calayırdı.

Ruslan Fəridəyə olan məhəbbətini ən gözəl sözlərlə Fəridə danışmağa başladı. Onunla necə tanış olduğunu, necə vurulduğunu, Fəridənin necə gözəl olduğunu danışdıqca Fəridin gözlərində sevinci görüb:

"Yəqin mənim xoşbəxtliyimə sevinir", – deyə düşündü.

Fəridin qısqanclığı keçmişdi. Əksinə, indi o, Ruslanı Fəridə ilə daha yaxın olmağa təhrik edirdi. Oxuduğu əsərlərdəki sevgililər arasında deyilmiş ən gözəl sözləri Ruslana öyrədirdi ki, Fəridəyə desin.

Ruslan Fəridəyə də Fərid haqqında danışmışdı. Bir dəfə hətta ifrata varıb Fəridə olan hissləri ilə bağlı o qədər ehtirasla danışmışdı ki, bu dəfə də az qala Fəridəni küsdürmüşdü.

O, sevgilisi ilə dostunu tanış etməyə tələsirdi. Əvvəl Fəridə buna etiraz etdi, amma sonra:

– Sən bilərsən, – dedi.

Ruslan Fəridə sevdiyi qızla onu tanış etmək istədiyini deyəndə Fərid dərhal:

– Lap yaxşı, mən hazıram, – dedi.

Ruslan sabah dostunu Fəridə ilə tanış etmək üçün vaxt təyin etdi və onun həmən zaman bulvarda olmasını xahiş etdi. Ertəsi gün deyilən vaxtda Fəridə ilə Fəridi gözləməyə başladılar. Vaxtdan yarım saat keçmişdi, amma Fərid gəlib çıxmırdı. Ruslan narahat olmağa başladı.

– Görəsən, harda qaldı bu? Birdən bir hadisə zad olar?

Fəridədən üzr istəyib bir kənara çəkildi və Fəridə zəng etdi. Əvvəl Fəridin nömrəsi cavab vermədi. Bir qədər gözləyib yenidən zəng etmək istəyəndə telefonuna Fəriddən mesaj gəldi: "Məşqdəyəm, gələ bilməyəcəyəm."

Ruslan çox pərt oldu. Fəridənin yanına qayıdıb:

– Fərid məşqdədir, bu gün alınmayacaq, qalsın sabaha, – dedi.

Fəridə bir söz deməmdi.

Sabahısı gün Ruslan Fəridi də götürüb bulvara gəldi. Vədələşdikləri vaxtdan xeyli keçsə də, bu dəfə də Fəridə görünmürdü. Narahat oldu. Fəridəyə zəng etdi. "Abonent əhatə dairəsindən çıxıb" sözlərini eşidib pərt oldu. Bir saat da gözlədilər. Dəfələrlə Fəridəyə zəng etdi, telefon bağlı idi. İkilikdə bir az gəzib evə qayıtdılar.

Ruslan bunu uğursuzluq kimi dəyərləndirdi, amma:

"Eybi yox, başqa bir gün mütləq tanış edərəm. Mənim dostum və sevgilim bir-birini tanısa yaxşıdır", – deyə düşündü.

Amma sonrakı tanışlıq cəhdləri də alınmadı. Hər dəfə ya Fəridin işi çıxırdı, ya da Fəridə gələ bilmirdi. Bəzən heç biri deyilən yerdə görünmürdü. Ruslan dilxor olmuşdu. Fərid də, Fəridə də ayrı-ayrılıqda ona ürək-dirək verirdilər:

– Niyə tələsirsən, görüşərik də, – deyirdilər.

Amma Ruslan onların bir-birini tanımasını çox istəyirdi. Bir neçə belə uğursuz cəhddən sonra artıq Fəridlə Fəridəni tanış etmək istəyindən vaz keçdi:

– Nə vaxt alınar, o vaxt tanış olarlar.

Ruslan Fəridə ilə daha çox yaxınlaşmışdı. Bir gün ona ürəyini açdı:

– Sənlə evlənmək istəyirəm. İcazə ver, ailənlə mənim valideynlərim danışsın.

Fəridə bu təklifi çoxdan gözləyirdi. Cavabı hazır idi:

– Valideynlərim mən ali təhsil almayınca evlənməyimə icazə verməzlər. Buna görə tələsmək lazım deyil.

Əslində Ruslan bir dəfə də olsun Fəridənin əlindən tuta bilməmiş, onun ətrini yaxından qoxlaya bilməmişdi. Çünki hər dəfə ona bir az yaxınlaşanda Fəridə sərt şəkildə şərtlərini xatırladırdı. Ruslan bunu Fəridənin əsl ev xanımı kimi tərbiyə almasında görürdü.

İndi düşünürdü ki, nişanlansalar artıq onları ayıran şərtlər əhəmiyyətini itirər.

Ruslan dəfələrlə eyni təklifləri edir, Fəridəsiz yaşaya bilməyəcəyini, tezliklə onunla bir dam altında olmaq istədiyini deyirdi. Fəridədən isə eyni cavabı alırdı:

– Olmaz, tezdir.

Ruslan iztirab çəkməyə başlamışdı. Fərid dostunun əzab çəkdiyini görürdü. Ruslan Fəridə ilə aralarında olan söhbəti ona danışdı. Fərid bir az düşündükdən sonra:

– Bəlkə o səni sevmir?

– Yox, nə danışırsan? Onun məni necə sevdiyini hər an hiss edirəm.

– Onda bəlkə sənin onu sevmədiyini düşünür?

– Yox, mən onu sənin qədər sevirəm.

Dərhal da Fəridin inciyəcəyindən qorxub əlavə etdi:

– Sənin qədər… amma qız kimi sevirəm.

Fərid Ruslana radikal bir ideya verdi:

– Əgər ancaq valideynləri problemdirsə, onda onu razı sal, qaçır. Sonra valideynləri məcbur olub verərlər.

Ruslan bu fikirdən dərhal xoşlandı.

Ertəsi gün Fəridə ilə görüşəndə:

– Əgər məni həqiqətən sevirsənsə, onda valideynlərini bir kənara qoy. Özümüz ailə quraq, sonra onlar fakt qarşısında qalanda bizi dəstəkləsinlər, – dedi.

Fəridə əvvəl özünü tərəddüd edən kimi göstərdi:

– Birdən sonralar məndən üz döndərərsən, başqa birini sevsən… onda mən nə edərəm?

Ruslan Fəridənin ayaqlarına yıxılıb sevgisini izhar etməkdən özünü güclə saxladı:

– Yox, mən ölənə qədər sənlə olacağam. Bu həyatda sənin qədər sevdiyim ikinci biri varsa, o da dostum Fəriddir.

Ruslan həqiqətən onlara olan sevgisi arasında fərq görmürdü. Özü də buna təəccüblənirdi. Başqalarından soruşmağa isə utanırdı.

Uzunmüddətli təkiddən sonra nəhayət Fəridə razılıq verdi.

Ruslan ailələrinin rayona istirahətə getməsini gözləməyə başladı. O, öz valideynləri üçün də evlənməsinin sürpriz olmasını istəyirdi. Rayondan qayıdanda valideynləri evlərində gəlin görsəydilər, yəqin ki, sevincdən uçardılar.

Bu barədə Fəridə də danışdı. Fərid:

– Sən doğrudan onu elə sevirsən ki, nə olursa olsun onunla evlənməyə hazırsan?

– Əlbəttə. Ölümdən başqa nə olursa olsun, mən onu sevəcəyəm.

Fərid:

– Onda sizi təbrik edirəm. Xoşbəxt olun.

Ruslan Fəridin sözlərində nə təəssüf, nə qısqanclıq, nə də kədər hiss etdi. Əslində evlənməyinin Fəridlə dostluğuna pis təsir edəcəyindən narahat idi. İndi isə Fərid əksinə onlara xeyir-dua verəndə Ruslan xeyli rahatladı.

Planlarını Fəridə açdı:

– Amma həmin gün ən azından mənim yanımda ol. Səni onunla tanış edim.

Fərid:

– Baxım da… işim olmasa mütləq gələrəm, – dedi. Sonra əlavə etdi:

– Mən sənin ürəyindəyəmsə, həmişə sənінləyəm. Sənin kiminlə bir yerdə olmağından asılı olmayaraq.

Ruslan ürəyində Fəridə haqq qazandırdı. Həqiqətən, Fərid onun ürəyində özünə yer tutmuşdu.

Ruslanın planlaşdırdığı gün gəlib çatdı. O, Fəridəni götürüb evlərinə gətirdi. Hava qaralırdı. Fəridə üçün aldığı gəlinlik paltarını çıxarıb ona verdi.

– Geyin, bunu sənə toy hədiyyəsi almışam.

Sonra cibindən təkqaş brilyant üzük çıxarıb Fəridənin barmağına taxdı. Üzüyü taxmaq üçün onun əlindən tutanda elə bildi, Fəridin əlindən tutur – çünki Fəridənin əlinin hərarəti ona çox tanış gəldi. Yenə də özündə bir hallar olduğunu düşünüb buna fikir vermədi.

Üzüyü Fəridənin barmağına taxandan sonra alnından öpüb:

– Həyatıma xoş gəldin, sevgilim, – dedi.

Fəridə həyəcanla tir-tir əsə-əsə:

– Sən nə olursa olsun mənimlə evlənəcəksən? Sən həmişə məni sevəcəksən? Heç vaxt məndən imtina etməyəcəksən ki?

Ruslan nəfəsi kəsilə-kəsilə:

– Əlbəttə, sevgilim. Məni səndən ancaq ölüm ayıra bilər. Nə olursa olsun, sənlə olacağam.

Sonra Ruslan yuyunmaq üçün vanna otağına keçdi. O, evliliklərinin ilk gecəsinin həyəcanını yatırtmaq üçün üzünü soyuq su ilə yudu. Qəsdən vanna otağında bir qədər gecikdi ki, Fəridə də rahat paltarlarını dəyişə bilsin.

Ruslan vanna otağından çıxıb Fəridənin olduğu yataq otağına keçdi. Otaq alaqaranlıq idi. Fəridə, görünür, utandığından işığı söndürmüş, yenicə geyindiyi gəlinlik paltarında üzü pəncərəyə tərəf oturmuşdu. Ruslan asta addımlarla arxadan ona yaxınlaşdı. Fəridə başını aşağı salmış, gəlinlik örpəyini üzünə çəkmişdi. Ruslan qaranlıqda Fəridənin üzündən ağ örpəyi qaldırdı və yerindəcə donub qaldı.

Gəlinlik duvağının altından Fərid çaşqın və qorxaq nəzərlərlə ona baxırdı.

Ruslan nəhayət başa düşdü ki, Fəridlə Fəridəni niyə bu günə qədər görüşdürə bilmirdi.

Fəridə elə… Fərid idi.

Fərid əslində Ruslanla aralarındakı dostluğu sınaqdan keçirmək üçün bir plan qurmuşdu. Qız rolunda Ruslanla tanış olacaq, ondan özü haqqında həqiqi münasibətini öyrənəcək, sonra roldan çıxıb Ruslanla əvvəlki kimi dostluqlarını davam etdirəcəkdi. Bunun üçün o, hər dəfə görüşə gedəndə qız kimi qrimlənir, xüsusi parik geyinir, gözlərinin rəngini dəyişdirmək üçün mavi linza taxırdı. Qız kimi danışmaq və davranmaq isə onun üçün çətin deyildi – o, istənilən rolu mükəmməl oynaya bilən məharətli aktyor idi.

Amma ilk gündən qız rolunda ürəyində Ruslana dostluqdan fərqli hisslər bəslədiyini anladı. Digər tərəfdən, Ruslanın bu oyundan heç nə başa düşmədən onun girdiyi rola vurulması, ona eşq elan etməsi Fəridin o qədər xoşuna gəlmişdi ki, roldan çıxmır, oyunu mümkün qədər uzadırdı. Gün keçdikcə özü də bilmədən qurduğu oyunun içində ilişib qalırdı.

Ruslan onu həm sevdiyi qız kimi, həm də çox yaxın dostu kimi sevirdi. O isə Ruslanı bir məhəbbətlə – dostluqdan qat-qat güclü bir məhəbbətlə sevirdi. İllərdir qəlbində gizlətdiyi sevgini indi açıq şəkildə, amma qız obrazında onunla bölüşür, bundan sonsuz ləzzət alırdı.

Ruslanın evlilik təklifi isə onun üçün gözlənilməz oldu. O, oyunun bu qədər sürətlə başqa bir məcraya yönələcəyini gözləmirdi. Amma artıq son pərdəni oynamaq məcburiyyətində idi. Qarşısında iki yol vardı: ya oyundan çıxıb hər şeyi Ruslana demək, ya da oyunu sonuna kimi oynamaq. Bu sonun necə olacağı barədə isə heç bir təsəvvürü yox idi.

Oyundan çıxmaq istəmirdi – buna gücü çatmırdı. Oyunu davam etdirmək isə sonun necə olacağına cavab tələb edirdi, amma o cavab onda yox idi. Hər şeyi axarına buraxmağa qərar verdi.

Əgər Ruslan ondan dost kimi imtina edəcəksə, deməli sevgisi güclü deyilmiş. Yox, imtina etməsə?..

Ruslan Fərid–Fəridənin qarşısında heykəl kimi dayanmışdı. Qeyri-ixtiyari:

– Bu nə oyundur?! – deyə bildi.

İndi bu oyunu necə bitirmək problemi hər iki gəncin qarşısında dayanmışdı. Fərid hər şeyi Ruslanın ixtiyarına buraxmış, taleyi ilə barışmış bir adam kimi görünürdü. Onun üçün seçim problemi yox idi – hər iki obrazda Ruslan onu sevirdi.

Ruslanın vəziyyəti isə tam fərqli idi. O, həyatının ən ağır seçimi qarşısında idi. Həmişə çətinliklərdən çıxış yolu tapan Ruslan indi düşdüyü vəziyyətdən necə çıxacağını düşünə bilmirdi. Çünki çıxış yolu yox idi.

Əgər qarşısındakını dostu Fərid kimi qəbul etsəydi – həyatından artıq sevdiyi sevgilisi Fəridəni itirəcəkdi. Yox, onu Fəridə kimi qəbul etsəydi – onda canından artıq sevdiyi dostunu itirəcəkdi.

Ruslan onların heç birini itirmək istəmirdi.

Çünki üçüncü onun üçün artıq deyildi…

Ruslan indi başa düşürdü ki, "olum ya ölüm" sualına cavab verməlidir. Fərid ağ gəlinlik paltarında, dostunun verəcəyi hökmə baş əyməyə hazır bir vəziyyətdə dayanmışdı. O da bu vəziyyətdən çıxmağın düzgün yolunu bilmirdi. İndi o, məharətlə oynadığı oyunun qurbanına çevrilmişdi. Onun üçün teatr rolu ilə həyat rolu arasındakı bütün sərhədlər silinmişdi.

Belə yaşamağın davamı isə yalnız Ruslandan asılı idi.

Ruslan hər ikisinin əvəzinə düzgün hesab etdiyi qərarı verdi:

– Mən nə sənsiz, nə də Fəridəsiz yaşamaq istəyirəm.

Fərid də sakitcə:

– Mən də sənə qarşı olan iki hissin heç birindən imtina etməyi bacarmaram… və istəmirəm.

Səhərisi Ruslanın ailəsi rayondan evə qayıtdı. Qapının zəngini nə qədər çaldılarsa, açan olmadı. Qonşudan Ruslanın evdən çıxıb-çıxmadığını soruşdular. Qonşu dedi ki, Ruslanı dünəndən görməyib.

Valideynləri təşvişə düşdü. Əvvəl ev telefonuna zəng etdilər. İçəridən zəngin səsi gəlirdi, amma cavab verən yox idi. Sonra Ruslanın mobilinə zəng etdilər. Telefon çalırdı, amma açan yox idi.

Ruslanın anasının ürəyinə pis şeylər gəldi. Cilingər çağırıb qapını açdırdılar.

İçəri girəndə gördükləri mənzərədən dəhşətə gəldilər.

Fəridlə Ruslan döşəmədə yan-yana uzanmışdılar. Fəridin başı Ruslanın sinəsinin üstündə idi. Ruslanın qolu Fəridin boynuna dolanmışdı. Hər ikisinin üzündə qəribə bir xoşbəxtlik ifadəsi donub qalmışdı. Bir az aralıda isə tamamilə boş yuxu dərmanı qutusu dayanırdı.

Ruslanın atası özünü irəli atdı. Əlini oğlunun şah damarına qoydu.

Ruslan da, Fərid də artıq həyatda deyildilər.

Səhər qəzetlərində iki gəncin yaşadıqları mənzildə naməlum səbəblərdən həyatlarına son qoyduqları barədə məlumat yayıldı. Məlumatda istintaqın davam etdiyi, amma hələlik bu qərarın səbəbi ilə bağlı heç bir məntiqli dəlilin tapılmadığı vurğulanırdı.

II HİSSƏ

"ÖLÜMÜN QAPISI"

Bu hissə ölümün özünü yox,
ölümə aparan mənəvi səbəbləri araşdırır.
Burada hekayələr daha sərt, daha kəskin, daha metafizikdir.

ACI XURMA

(Hekayə 44 günlük müharibədə yaşanmış real bir ailə dramı əsasında yazılıb.)

Fəridə məktəbdə təmizlik işlərini görüb başa çatdırmışdı. Bir az əyləşib yorğunluğunu çıxardıqdan sonra evə getməyə hazırlaşırdı. Xadimə işlədiyi məktəbin ikinci mərtəbəsinin pəncərəsi qarşısında oturub həyətə baxa-baxa xəyala daldı. Yenə həmişəki kimi, özü də istəmədən, ürəyində ən çox sevdiyi el bayatısını təkrarlamağa başladı:

Dərya, səndən kim keçdi,
Kim qərq oldu, kim keçdi?
Yadıma kimlər düşdü,
Xəyalımdan kim keçdi?

Fəridənin yadına həmişə bir nəfər düşürdü – yolunda həyatını qurban verməyə hazır olduğu, dünya qədər sevdiyi, amma çox erkən yaşlarda faciə nəticəsində itirdiyi, bu dünya dəryasında qərq olan həyat yoldaşı Fərid. Əslində, o heç vaxt Fəridənin yadından çıxmamışdı. Sadəcə, başı işə-gücə qarışanda bir anlıq onun haqqında düşünməyə vaxt tapmırdı.

O, həyat yoldaşı Fəridlə məktəb illərindən tanış olmuşdu. İlk gündən bir-birlərini sevməyə başlamış, bu sevgi günbəgün, saatbasaat güclənərək sonda iki taleyin birləşməsi ilə nəticələnmişdi. Fəridə Fəridi, Fərid də Fəridəni dünyalar qədər sevirdi. Hətta məktəbli dostları onların münasibətini zarafatla “2F = 1A” düsturu ilə ifadə edirdilər. Bu da hər iki gəncin xoşuna gəlirdi.

Fəridə, Fəridin simasında ona arxa-dayaq, güvən verən, gələcəyə ümidlə baxmağa sövq edən həqiqi bir həyat yoldaşı tapmışdı. O, öz varlığını Fəridsiz təsəvvür edə bilmirdi. Fərid onda, o isə Fəriddə yaşayırdı. Bir-birilə nəfəs alırdılar.

Fərid hündürboylu, yaraşıqlı, gülərüzlü, rəhimli bir insan idi. İxtisasca həkim idi. Fəridə də ali təhsil almaq istəsə də, imtahan qorxusu sindromundan xilas ola bilmədiyi üçün tələb olunan balı heç vaxt yığa bilməmişdi. Onun ali təhsil almaq cəhdi daha çox Fəridə olan sevgisindən, ona layiq olmaq istəyindən irəli gəlirdi. Elə düşünürdü ki, ali təhsil almasa, Fəridə layiq olmayacaq və uşaqlıqdan ürəyində bəslədiyi Fəridlə ailə qurmaq arzusuna çata bilməyəcək.

Amma Fərid onu o qədər sevirdi ki, Fəridənin təhsil alıb-almaması onun üçün heç bir əhəmiyyət daşımırdı. Universitetdə oxuduğu vaxt Fəridəyə evlilik təklifi etmiş və müsbət cavab aldıqdan sonra xoşbəxt bir ailə qurmuşdular. Fərid ailəni iqtisadi cəhətdən tam təmin edirdi. Heç bir problemləri yox idi. Can deyib can eşidirdilər.

Fəridə heç bir yerdə işləmirdi, buna ehtiyac da yox idi. Zarafatla Fərid onu "daxili işlər naziri" adlandırırdı. Fərid işdə olanda bir gündə dəfələrlə evə zəng edib Fəridənin kefini soruşur, onu bir an belə darıxmağa qoymurdu. Üstündən on dəqiqə keçməmiş bu dəfə Fəridə zəng edib onunla hal-əhval tuturdu. Kənar adamların bəziləri bu məhəbbətə təəccüb, bəziləri isə qibtə edirdi.

Fərid çox ləyaqətli, ailəcanlı, ədəbli, vətənpərvər bir insan idi. Peşəsinə sadəcə iş kimi yox, sosial bir vəzifə kimi yanaşırdı. Azərbaycan tarixi və mədəniyyətinin vurğunu idi. Ürəyi xalqına sevgi, dövlətinə sədaqətlə dolu idi. Fəridə bəzən zarafatla Fəridin bu sevgisinə görə onu xalqına və dövlətinə qısqandığını deyirdi. Fərid də gülə-gülə: "Zatən sən mənim xalqımın bir üzvü, dövləti-

min bir vətəndaşı olduğuna görə vətənimə və millətimə eşqim belə böyükdür", – deyirdi.

Evliliklərinin ikinci ilində bir oğul övladları dünyaya gəldi. Sevincləri bir idisə, min oldu. Ad qoymaq məsələsində ər-arvad arasında fikir ayrılığı yarandı. Fərid oğluna "İgid", Fəridə isə "Ümid" adını qoymaq istəyirdi. Axırda Fəridə güzəştə getdi və birlikdə İgidi böyütməyə başladılar.

Amma sən saydığını say, gör fələk nə sayır…

Bir gün Fərid vaxtında evə qayıtmadı. Fəridə əvvəl "Yəqin bir işi var" deyə düşündü. Amma adətən Fərid xəstəxanada gecikəndə mütləq zəng edib nə vaxt gələcəyini bildirirdi. Bu gün isə ondan bir xəbər yox idi.

Fəridə özü zəng etmək istədi, amma nədənsə qorxdu. Ürəyi sıxılmağa başladı. Elə bilirdi ki, zəng etsə, pis bir xəbər eşidəcək. Telefon əlində donub qalmışdı. Vaxt sürətlə keçirdi.

Nəhayət, telefon zəng çaldı. Fəridənin ürəyi yerinə gəldi. Telefonu açdı və Fəridin səsini eşitmək ümidi ilə "Alo, Fərid, necəsən, hardasan?" deyə soruşdu.

Telefondan Fəridin əvəzinə yad bir səs eşidildi:

– Siz Fəridin nəyisiniz?

Fəridəni sanki ildırım vurdu. Donub qaldı. Dili tutuldu. Adam sualı təkrar etdi. Fəridə böyük çətinliklə özünü ələ alıb:

– Həyat yoldaşıyam… – deyə bildi.

Zəng edən bir anlıq susdu. Sonra soruşdu:

– Sizdən başqa evdə kimsə var?

Artıq Fəridə düşünə bilmirdi. Cavabları mexaniki şəkildə verirdi.

– Yoxdur… Niyə soruşursunuz ki…

Telefonun o başındakı adam deyəsən kimlərləsə məsləhətləşirdi. Fəridə səsləri eşidirdi, amma sözləri ayırd edə bilmirdi. Kiçik bir pauza oldu. Sonra adam yenidən danışdı:

– Bəs yaxınlarınızdan kiminsə nömrəsini verə bilərsiniz?

Fəridə heç nə başa düşmürdü. Bu adam nə istəyirdi? Niyə qohumların nömrəsini soruşurdu? Fərid hardaydı?

Beynində ildırım sürəti ilə suallar axırdı, cavab isə yox idi. Göz yaşları boğazına yığılırdı. Nəsə pis bir şey olduğunu hiss edirdi. Amma nə?

Fəridin dırnağına belə daş dəysə, Fəridə həyatından keçməyə hazır idi.

– Nə olub? Fərid hardadı? Niyə qohumlarını axtarırsınız? – deyə hönkürməyə başladı.

– Heç nə olmayıb, siz bir nömrə verin…

Fəridə çətinliklə Fəridin qardaşının nömrəsini dedi… və sonra hər şey qaranlığa qərq oldu.

Gözünü açanda evdə qohum-qardaş vay-şivən edirdi. “Fəridə, nə olub?” – desə də, kimsə cavab vermədi. Anası onu qucaqlayıb ağlaya-ağlaya:

– Can bala… Fəridi itirdik… – dedi.

Elə o anda Fəridə bir insan kimi öldü. Yalnız bir ana kimi yaşamağa başladı.

Günlər keçdikcə yasa gələnlər seyrəlirdi. Fəridə çox vaxt oğlu İgidlə tək qalırdı. Valideynləri dəfələrlə onları öz evlərinə aparmaq istəsələr də, Fəridə Fəridin xatirəsinin yaşadığı bu evi tərk etməyi ona xəyanət kimi görürdü.

Tezliklə ailənin dolanışıq problemi yarandı. Qohumların yardımını qəbul etmirdi. Buna görə də gizlincə iş axtarmağa başladı. Hara müraciət edirdisə, ya peşə, ya diplom tələb olunurdu.

Məktəb illərindən dostluq etdiyi bir sinif yoldaşı onların evinə yaxın məktəbdə müəllimə işləyirdi. Vaxt tapan kimi Fəridəgilə gəlir, onu tək qoymurdu. Fəridə öz dərdini danışıb kimisə əziyyətə salmaq istəmirdi. Amma yaşamaq lazım idi. Oğlunun məktəb

xərcləri, evin sosial ehtiyacları – geyim, yemək, içmək… Pul çox lazım idi.

Fəridin sağlığında Fəridə bu problemlərin heç birini hiss etmirdi. Fərid elə edirdi ki, Fəridə ehtiyacın nə olduğunu düşünməsin. Amma indi hər şey onun üzərinə düşmüşdü.

Söhbət əsnasında rəfiqəsi məktəbdə xadimə yerinin boş olduğunu dedi. Fəridə ondan xahiş etdi ki, bu işə düzəlməyə kömək etsin. Fəridənin xadimə işləmək istəyi rəfiqəsini təəccübləndirdi. Vaxtilə hamının yaşayışına qibtə etdiyi birinin xadimə işləmək istəməsi ağlasığmaz görünürdü.

Əvvəlcə rəfiqəsi bunun yaxşı fikir olmadığını dedi və başqa iş axtarmağa söz verdi. Amma Fəridə təkid edirdi. İş yeri evə yaxın idi və oğlu da həmin məktəbdə oxuyurdu. İndi o, Fəridin qoxusunu İgiddən alırdı. İgid onu həyata bağlayan yeganə tel idi.

Uzun çək-çevirdən sonra rəfiqəsi onu məktəbdə xadimə işinə düzəltməyə vasitəçi oldu. O gündən Fəridə hər səhər uşaqlar məktəbə gəlməmiş İgidi də götürüb məktəbə gəlir, işlərini görüb qurtarandan sonra məktəbdə gözləyir, İgidin dərsi bitən kimi onu özü ilə evə aparırdı.

Fəridənin bütün xəyalları yalnız İgidlə bağlı idi. O, İgidi həm də Fəridin əvəzinə böyüdür, ona həm ana, həm ata olurdu. Oğlunu Fəridin görmək istədiyi ruhda tərbiyə edirdi. İgid son siniflərdə oxuyanda atası kimi yaraşıqlı, boy-buxunlu bir gəncə çevrilmişdi. O da atası kimi vətənpərvər, millətinə və dövlətinə bağlı idi. Əzbərlədiyi bütün şeirlərin mövzusu vətən və millət haqqında olurdu. Azərbaycan tarixi ilə bağlı nə kitab vardısa oxumuşdu. Mədəniyyətimizi həm sevir, həm də onun alovlu təbliğatçısı kimi çıxış edirdi.

Bir sözlə, İgid ikinci Fərid idi. Bu da Fəridəyə böyük təsəlli verirdi. O, itirdiyi Fəridi böyütdüyü İgidin simasında tapmışdı.

İgidin yaxın dostları da onun kimi vətənpərvər gənclər idi. Bir yerə yığışanda Qarabağdan, Cənubi Azərbaycandan və digər milli məsələlərdən danışırdılar. İgid yaşına baxmayaraq vaxtından əvvəl kişiləşmişdi. Özünü böyük bir adam kimi aparırdı. Məhəllədə də, məktəbdə də hamı ona hörmət edirdi. Müəllimləri onun gələcəyinə böyük ümid bəsləyirdilər. İgid dərslərini əla oxuyur, başqa uşaqlara nümunə olurdu. İctimai işlərdə həmişə öndə idi. Tərbiyəsi ilə də nümunə idi – bir çox uşaq onun təsiri ilə özünü yığışdırmışdı. Fəridə bununla fəxr edir, belə bir övlad böyütməsi ilə təsəlli tapırdı.

Onun ən böyük arzusu oğlunun atası kimi ali təhsil alması və xoşbəxt ailə qurması idi. Bundan sonra yaşamaq da olardı. Az qala hər gün Fəridə İgidin toy gününü xəyal edir, ürəyində gələcək gəlini ilə danışır, hətta nəvəsini oynatmağı belə təsəvvür edirdi.

Polad Həşimovun xaincəsinə şəhid edilməsi xəbəri bütün Azərbaycanı ayağa qaldırdı. Əvvəlki illərdən fərqli olaraq, bu cinayəti planlayanların gözlədiyinin əksinə, onun ölümü bütün Azərbaycan gənclərində intiqam hissi oyatmışdı. Hər bir gənc Poladın intiqamını almağa and içirdi.

Əvvəllər müharibə sözü insanları narahat edirdisə, indi hamı döyüşmək istəyirdi. Minlərlə gənc Milli Məclisin qarşısına toplaşıb Qarabağın azadlığı üçün Vətən müharibəsi elan olunmasını tələb edirdi. Artıq hər yerdə müharibə hazırlığı gedirdi. Televiziyada hamı müharibədən danışırdı. Poladın, Mübarizin və digər qəhrəmanların şəkilləri yayılırdı. Qarabağın azad edilməsi fikri bir an belə insanların beynindən çıxmırdı. Gənclər qisas hissi ilə alışıb yanırdı.

Fəridə gördüklərindən qorxuya düşmüşdü. Fikirləşirdi ki, müharibə olsa, İgid birincilər sırasında gedəcək. Amma bəzən özünə təsəlli verirdi: İgid Tibb Universitetinin birinci kursunda oxuyur,

ailənin tək oğludur, hərbi mükəlləfiyyətdən müvəqqəti azaddır. Təcrübəli əsgərlərimiz çoxdur… Amma ana ürəyi ona yaxınlaşan təhlükəni hiss etdirirdi.

Həmin gün Fəridə yenə erkəndən işə gəlmişdi. Həmişəki kimi İgidin yeməyini hazırlayıb stolun üstünə qoymuş, cib xərcliyini də unutmayıb vermişdi. Məktəbdə bir müəllimə ümrə ziyarətindən qayıtmışdı. Məkkədən xurma gətirib hamıya təbərrük kimi paylayırdı. Fəridəyə də xurma uzatdı. Fəridə iki dənə götürdü. Müəllimə nə qədər təkid etsə də, üçüncünü almaq istəmədi.

Bu xurma iri və yumşaq idi. Elə bil pətəkdən bal damırdı. Fəridə xurmanın birini kağıza büküb çantasına qoydu – axşam İgidə verəcəkdi. Digərini isə təbərrük olduğuna görə ağzına qoydu. Hələ çeynəməmiş ağzı şirinləşdi. Xurma həddindən artıq şirin idi, az qala adamın boğazını qovuşdururdu. Su içdi, amma şirinlik keçmədi.

İş vaxtının bitməsinə az qalırdı. Beş dəqiqədən sonra evə gedəcəkdi ki, qonşu uşaq qaça-qaça gəlib:

– Fəridə xala, İgid müharibəyə gedir! Tez gəl, yoxsa görə bilməyəcəksən!

Fəridəni soyuq tər basdı. “Nə müharibə? Necə yəni aparırlar?” Uşağın arxasınca qaçıb toplaşma yerinə çatdı. Artıq İgid digər çağırışçılarla birlikdə avtobusa minmişdi.

– Səni niyə aparırlar ki? Axı sənin təxirəsalman var!

– Ana, mən könüllü gedirəm. Poladın intiqamını almadan yaşamaq mənə haramdır.

Fəridə söz tapa bilmədi. Hər şey onsuz həll olunmuşdu. Çantasını açıb Məkkədən gətirilmiş xurmanı oğlunun ovcuna qoydu:

– Oğlum, bunu ye. Təbərrükdür. Allah səni xətadan-bəladan qorusun.

İgid xurmanı alıb döş cibinə qoydu və gülümsədi:

– Baş üstə, ana. Sonra yeyərəm. İndi bu qədər adamın içində necə bölüm? Tək yemək də yaraşmaz axı.

Fəridənin göz yaşları axıtmaqdan başqa əlacı qalmamışdı. Oğlu könüllü getdiyi üçün kiməsə üz tutmaq da mənasız idi.

İgid müharibəyə gedən gündən Fəridənin onsuz da gənc yaşlarından dən düşmüş saçları tam ağardı. Hər gün telefonla danışmaqla təsəlli tapırdı. İgid onu inandırırdı ki, arxa cəbhədə hospitalda tibb qardaşı kimi işləyir, təhlükəsiz yerdədir, yaralılara yardım edir. Fəridə həm inanırdı, həm də yox.

Bir gecə Fəridə ürək sıxıntısı ilə oyandı. Az qala boğulurdu. Bu hiss ona tanış idi… Həyat yoldaşı Fəridin ölüm xəbərindən əvvəl də belə olmuşdu. Allaha yalvarmaqdan başqa çarəsi yox idi. Axşam oğlu ilə danışsa da, müharibədə hər an hər şey ola biləcəyini düşünürdü, pis fikirlər beynini didirdi. Özünü nə qədər məcbur edib bu fikirləri qovmaq istəsə də, bacarmadı. İgidə zəng edib onu narahat etmək istəmədi.

– Səhər zəng edərəm… Yəqin yorulub yatıb…

Qəhər boğazına yığılırdı. “Mənə nə olub belə?” – deyə özünə sual versə də, cavab tapa bilmirdi.

Fəridə işə necə çatdığını belə bilmədi. Məktəbə girəndə qəribə bir mənzərə gördü. Bütün kollektiv həyətə toplaşmışdı. Onu görən kimi sükut çökdü. Qadın müəllimələrin gözləri ağlamaqdan şişmişdi. Direktor başını iki əli ilə tutmuşdu, sanki saçlarını yolmaq istəyirdi.

Fəridənin ürəyi daha da sıxıldı.

– Nə olub? – deyə soruşdu.

İki müəllimə hönkür-hönkür ağlamağa başladı. Direktor başını qaldırıb:

– Qızım… bu gün işləmə. Get evə…

Fəridə anlamadı. “Niyə?” demək istəyirdi ki, qadın müəllimələr hər tərəfdən ona sarılıb ağlamağa başladılar.

Ayılanda özünü məktəbin tibb məntəqəsində gördü. Qolunda iynə yeri vardı. Bütün qadın müəllimələr başı üstündə dayanmışdı. Artıq hər şeyi anlamışdı. Demək, cəbhədən bəd xəbər var idi.

Ürəyində Allaha yalvardı: "Şikəst də olsa, sağ qayıtsın… Mənə bəsdir…"

Amma içindəki ümid incə bir tel kimi qırılmaq üzrə idi.

– İgiddən xəbər var? – deyə soruşdu.

Müəllimələrdən biri göz yaşlarını silib dedi:

– Özünü ələ al. Sən ləyaqətli bir qadınsan. İgid kimi övladla fəxr etməlisən. Onunla indi bütün Azərbaycan fəxr edir. Cəbhədə qəhrəmancasına döyüşüb… neçə-neçə düşməni məhv edib. Onsuz da deyirdin ki, onu vətən üçün böyütmüsən. O da vətən borcunu vermək üçün könüllü getdi. Qızım… İgid müqəddəs şəhidlik zirvəsinə ucalıb…

Fəridə bu sözləri axıra qədər eşidə bilmədi. Yenidən huşunu itirdi.

İgidin nəşinin necə gətirildiyi, necə dəfn edildiyi Fəridənin yadında qalmadı. O, tibbi nəzarət altında saxlanılırdı. Tez-tez sakitləşdirici iynələr vurulur, sistemlər qoşulurdu. Evdə, həyətdə, küçədə insan seli vardı. Tanımadığı minlərlə insan İgidin yasına öz övladlarının yasına gəlirmiş kimi, bəlkə də daha böyük yanğı ilə gəlirdi. Hər gün minlərlə insan qəbirüstünə gedirdi.

İgidin yeddisi çıxandan sonra Fəridə baş verənləri yavaş-yavaş dərk etməyə başladı. Artıq həyatda onu bu dünyaya bağlayan heç kim qalmamışdı. Qohumlar, rəfiqələri onu tək qoymurdu. Hər gün evə çoxlu tanımadığı insanlar gəlirdi. Rayon rəhbərliyi bütün dəfn adətlərini dövlət hesabına təşkil etmişdi.

Fəridə bütün bunları bir tamaşaçı kimi izləyirdi. Nə özünü ələ ala bilir, nə də ağlaya bilirdi. Anası:

– Qızım, ağla, ürəyini boşalt… – desə də, Fəridə heç bir məna ifadə etməyən baxışlarla ətrafa boylanır, cavab vermirdi.

O, özünü kimsəsiz bir adaya düşmüş kimi tək və tənha hiss edirdi.

İgidin tabutuna bürünmüş Azərbaycan bayrağı və ağ parçaya bükülmüş bir boğça stolun üstündə idi. Onsuz da o bayraq haqqında İgidə çox şeirlər əzbərlətmiş, ona vətən sevgisini özü aşılamışdı. "Özü yıxılan ağlamaz" deyiblər…

Fəridə stola yaxınlaşıb bayrağı öpdü, gözlərinə sürtdü. Ondan İgidin ətri gəlirdi. Ürəyi bir qədər sakitləşdi, gözlərinə işıq gəldi. O, həmişə öz-özünə düşünürdü: "Bir məişət hadisəsində ölməkdənsə, müharibədə qəhrəmancasına şəhid olmaq yaxşıdır." Ona görə başqa şəhid xəbəri eşidəndə anaların yerinə özü özünə təsəlli tapırdı.

İndi isə tək oğlu İgid şəhid olmuşdu. Həm də igidliklə döyüşərək… Deyilənlərə görə, Poladın intiqamını da ala bilmişdi. Çoxlu düşmən əsgər və zabitini məhv etmiş, sonda düşmənin torpağa basdırdığı minaya ilişərək qanı vətən torpağına qarışmışdı.

"Bayraqları bayraq edən üstündəki al qandır,
Torpaq – uğrunda ölən varsa, vətəndir."

Bu misralar İgidin tez-tez təkrarladığı misralar idi. İndi isə o, Azərbaycan bayrağına tökülən qanı ilə onu dünyanın ən uca bayrağına çevirmiş, torpağa tökülən qanı ilə onu özünə haqlı və əbədi vətən etmişdi.

Fəridə əvvəl boğçaya məhəl qoymadı. Amma sonra içində bir hiss onu boğçaya tərəf çəkdi. Titrək əlləri ilə boğçanı açdı. İçəridə İgidə məxsus əşyalar, döyüş zamanı üstündə olan paltarlar vardı. Ən üstə isə qana, toz-torpağa bulaşmış hərbi köynəyini qoymuşdular.

Fəridə qeyri-ixtiyari köynəyi üzünə yaxınlaşdırdı. Sanki üzü İgidin üzünə dəydi. Bir anlıq kədər qarışıq sevinc hissi yaşadı. Amma bu hiss tezliklə ağır, üzücü, sonsuz bir kədərə çevrildi. O,

vaxtilə hər gün İgidin başını sığalladığı kimi köynəyi sığallamağa başladı.

Əli köynəyin cibində bərk, qabarıq bir şeyə dəydi. Fəridəni maraq götürdü: "Bu nədir belə?" Ehtiyatla cibin düymələrini açdı. İçəridə kağıza bükülü bir şey vardı. Kağızı açdı… və yerindəcə donub qaldı.

Kağızın içində İgidi müharibəyə yola salarkən ona verdiyi, Məkkədən gəlmiş həmin xurma idi.

Fəridə bu xurmaya çox ümid etmişdi. Düşünürdü ki, İgid bu təbərrükü yesə, Allah onu amanında saxlayar. Amma İgid o xurmanı anasız yeməyi özünə rəva bilməmişdi. Onu ən əziz xatirə kimi ürəyinin başında saxlamış, döyüşün ən ağır anlarında belə xurmanın onu qoruyacağına inanmışdı. Bu xurma ana ilə oğul arasında sanki görünməz bir körpü yaratmışdı. Xurmadan anasının qayğısını, məhəbbətini, onu böyüdərkən çəkdiyi əziyyətlərin ağrılarını hiss edirdi.

Düşünürdü ki, müharibədən sağ qayıdandan sonra o xurmanı anası ilə birlikdə yeyəcək… və xurma onları bir daha birləşdirəcək.

Fəridə qeyri-ixtiyari xurmadan kiçik bir parça qopardı. Allahdan dözüm diləyərək onu ağzına qoydu. Amma dərhal da çıxardı. Xurma zəhər kimi acı idi. Ömründə belə bir acılıq dadmamışdı. Xurmanın dadı dilini-dodağını yandırdı.

Heç nə anlamadı. Eyni xurmanın birinin bal kimi şirin, digərinin zəhər kimi acı olmasına məna verə bilmədi.

Əslində isə xurma bal kimi şirin idi.

Fəridəni acılayan xurmanın özü deyildi… O, bir təbərrük kimi xurmaya bağladığı ümidin boşa çıxmasının, oğul itkisinin yaratdığı acının dadını duyurdu. Onu yandıran dad xaricdən yox, daxildən gəlirdi.

O bilmirdi ki, bu acılığı hələ bütün ömrü boyu – bu dünyanı tərk edənə qədər, dəfələrlə, az qala hər gün, İgidsiz yediyi hər tikədə, onsuz keçirdiyi hər anın içində dadacaq… və yalnız gözlərini bu dünyaya qapayıb Fəridinin, İgidinin getdiyi aləmə yola düşəndə bu acılıqdan birdəfəlik xilas olacaq.

YUXU

"Görəsən, mən yuxuda kəpənək olduğunu görən Çjuan-tsziyam, yoxsa indi yuxuda Çjuan-tszi olduğunu görən bir kəpənəyəm?"
Çjuan-tsi

Azad işdən yorğun evə girən kimi həyat yoldaşı Azərin qabağına çıxıb dedi:

– A kişi, səni TV-yə dəvət ediblər.

– Nə TV? Bəyəm mən artist zadam ki, məni TV-yə dəvət etsinlər? – sonra da əlavə etdi: – Nə üçün dəvət ediblər? Hansı verilişə?

Azərin:

– Biz həmişə baxmırıq? Axtarış verilişinə.

Azad xəbəri eşidən andan narahat olmağa başladı. "Məni kim axtara bilər ki?" sualı ildırım sürəti ilə beynindən keçdi. Bir anlığa sanki bütün həyat kitabını vərəqləyib özünə gəldi:

– Məni kim axtara bilər ki? Mən ki heç kimi axtarmıram!

– Nə bilim, a kişi… Mənə də çox maraqlıdır səni kim axtara bilər deyə bayaqdan düşünürəm, – deyən Azərin, bir az əvvəl ərinə sevinclə xəbər çatdırsa da, indi özü də narahatlıqla ona baxdı.

Bu xəbər sanki illərlə bir çardağın altında bir-birinin xətrinə dəymədən yaşayan, sədaqətlərinə şübhə etməyən ər-arvadın arasına bir anda soyuq su səpmişdi.

– Yox, bir yanlışlıq var. Məni heç kim axtarmaz. Yəqin ünvan oxşar olub, bizi kimləsə səhv salıblar. Axı mən kimisə axtarmıram… düşünəm ki, yəqin o da məni axtarır. Nə çoxdu eyni ad və familiyalı adam…

Əslində Azad bu sözlərlə özünə təsəlli vermək istəyirdi. Həqiqətən də onu kim axtara bilərdi? Azad əsgəri xidmətdə olmamışdı, ona görə də əsgərlik yoldaşı yox idi. İnstitut illərindəki tələbə

dostları ilə bu gün də əlaqə saxlayır, ildə bir dəfə bir araya gəlib gözəl vaxt keçirirdilər. Məktəb yoldaşları ilə də əlaqəsi vardı. Artıq dünyasını dəyişmiş şagird yoldaşlarının qəbrini ziyarət etməkdən və ailələri ilə əlaqə saxlamaqdan qalmırdı. Sağ qalanlarla isə ən azı bayramdan bayrama danışırdı. Hamı hamının ünvanını, yerini-yurdunu bilirdi. Ona görə də televizordan axtarmağa ehtiyac yox idi.

Hətta otuz il əvvəl qonşuluq etdiyi adamların da xeyrindən-şərindən xəbərsiz deyildi. Bəs onu kim axtara bilərdi? Həm də belə inadkarlıqla? Bir adamı yalnız ona çox yaxın biri axtara bilərdi.

Azadın bütün yaxın qohum-əqrabası mehriban idi, münasibətləri sıx idi. Bir-birinin xeyrinə-şərinə yarayırdılar. Kənarda heç kim yox idi.

"Bəs məni kim axtarır?!" Azad proqrama çıxana kimi bu sualın cavabını tapmaq istəyirdi. "Məni axtaran kim ola bilər?" Bir tərəfdən özünə arxayın idi: "Məni heç kəs axtara bilməz, axı mən kimisə itirməmişəm ki, məni də axtarsın." Amma digər tərəfdən: "Bəlkə doğrudan da kimsə məni axtarır? Bəs o adam kimdir? Mənim həyatımda nə rolu olub? Onun bu gün meydana çıxması mənim həyatımı necə dəyişəcək?"

TV-dən dəvət alan Azad həmin gündən rahatlığını itirmişdi. Qeyri-müəyyənlik onu içdən yeyirdi. Artıq o, əvvəlki Azad deyildi. Proqrama bir neçə gün qalırdı, Azadın daxili gərginliyi isə durmadan artırdı.

Azad dəfələrlə Azərinlə bu dəvəti müzakirə etmişdi:

– Bəlkə sənin qohumlarından kimsə bizi axtarır? Elə isə niyə səni yox, məni axtarsın? Yox, bu ola bilməz…

Ərinin halına acıyan Azərin, əslində özünə təsəlli verirmiş kimi:

– A kişi, özünə gəl. Nə olsun ki, kimsə səni axtarır? Bunun nəyi pisdir? Yəqin köhnə dostlarından kimsə səni yadına salıb.

Amma əslində Azərin də çox narahat idi. Düzdür, o inanırdı ki, Azadın ondan gizli heç bir sirri yoxdur. Amma ürəyinə gələndə ki, birdən Azadın gizli macərası olub və bir qadın illərlə xoşbəxt evlilikdən sonra çıxıb "Azad mənim sevgilim olub" desə, onda Azərin nə edəcək? Yaxud biri çıxıb "mən Azadın qeyri-qanuni övladıyam" desə necə? O, bir tərəfdən Azadın onu aldatmasını bağışlaya biləcəkmi, digər tərəfdən bu yeni vəziyyətdə Azadla əvvəlki kimi mehriban yaşaya biləcəkmi?

Azad ürəyində "kaş ki sən deyən olaydı" dedi və hirslə Azərinə:

– Əşi, mənim elə dostum yoxdur axı! – deyib yenə özünə qapıldı.

Doğrudan da Azadın həyatında elə bir qaranlıq səhifə olmamışdı ki, onu evlənməmişdən əvvəl Azərinə deməsin. Hətta gənclik illərində baş vermiş bir əhvalatı Azərinlə münasibətinə pis təsir edəcəyini düşünsə də, nişanlı vaxtı ona danışanda əksinə, daha müsbət reaksiya almışdı.

Həmin əhvalat çox kədərli idi.

Azad sovet hakimiyyəti illərində tibb universitetini bitirdikdən sonra iki illiyə Moskvaya ordinaturaya göndərilmişdi. Gənc, yaraşıqlı, qanı qaynar, subay bir oğlan idi. Şəvə kimi qara gözləri, qıvrım saçları, əzələli hündür boyu, qıyqacı baxışları, özünə inamı və bir qədər də ağayana duruşu hər qızı yoldan çıxarmağa bəs edirdi. Bir yerdə oxuduğu qızların hamısının ondan xoşu gəlirdi. Azad isə ilk gündən bir qıza – Annaya vurulmuşdu.

Anna rus qızlarına xas olmayan təmkinli, ağır təbiətli, ağıllı, tərbiyəli və utancaq idi. Azadın ona olan duyğularını hiss etsə də, qarşılıq vermir, özünü bilməməzliyə vururdu.

Bir dəfə gec saatlarda birlikdə işdən çıxanda Azad Annaya:

– İndi gecdir. İcazə verin sizi evinizə qədər ötürüm, – deyəndə Anna azacıq qızarıb:

– Bəlkə özünə əziyyət verməyəsən? Mən özüm də gedə bilərəm, – dedi.

Azad bunu razılıq kimi qəbul edib:

– Yox, bizdə Qafqazda belə gec saatlarda qızı tək buraxmaq kişiyə qəbahət hesab edilir, – deyib Annanın yanına düşüb onun getdiyi istiqamətdə addımlamağa başladı.

Azad Annanın kim olduğunu bilmirdi. Ailəsi haqqında heç bir məlumatı yox idi. Amma günbəgün Annanı daha çox sevir, ona daha çox bağlanırdı. Ürəyində "kaş ailəsi salamat insanlar olaydı" deyə dua edirdi. Çünki düzgün insanlar olmasa, Azad öz ailəsinə onları qəbul etdirə bilməzdi.

Azadın fikri ciddi idi. O, Annanı artıq özünün gələcək həyat yoldaşı, anasına-atasına gəlin, doğulacaq körpəsinə ana kimi görürdü.

Əslində Azad bilməsə də, Anna da dəli kimi ona vurulmuşdu. O da ürəyində Azadı layiqli həyat yoldaşı kimi görürdü.

Yolda bir kəlmə kəsmədən yanaşı addımlayan bu iki gənc ürəklərində bir-biri ilə danışır, suallar verib cavablarını özləri düşünürdülər.

Metrodan çıxıb avtobus dayanacağında gözləyəndə Azad özündə güc tapıb soruşdu:

– Anna, sənin ailən başqa millətdən olan bir gənclə evlənməyinə necə baxar?

Cavab çox qısa oldu:

– Deyə bilmərəm.

Yenə hərəsi öz daxilində söhbəti davam etdirdi…

Avtobus gəldi, hər ikisi minib yanaşı oturdular. Annanı gördüyü altı ay ərzində ilk dəfə ona bu qədər yaxın olan Azadın qanı qaynadı, həyəcan gözlərini yaşartdı. Özü də bilmədən nəfəsi təngiyə-təngiyə birnəfəsə…

– Anna, mən səni sevirəm, – dedi və sonra utana-utana onun üzünə baxdı.

Azad "yox" cavabından qorxurdu. O cavabla çoxdan beynində qurduğu həyatının dağılacağını, xoşbəxtliyinin məhv olacağını hiss edirdi.

Anna özünə xas utancaqlıqla gülümsədi. Heç nə demədi. Onun susması – "yox" deməməsi – Azad üçün razılıq kimi göründü.

Artıq Azadın uçmağa qanadı yox idi. Ürəyində "Ura!" deyə qışqırdı.

Avtobusdan sevgililər kimi düşdülər. İndi bir-birinin qoluna girib addımladıqlarının fərqində belə deyildilər. Hər ikisi susurdu, amma ürəkləri sevinclə birgə döyünür, xoşbəxtlik sifətlərindən çölə vururdu.

Annagilin evinə çatanda Azad qayıtmaq istədi. Anna onu evə dəvət etdi. Azad nə etikaya, nə də marağa görə bu təklifi rədd etməyə güc tapmadı və birlikdə yuxarı qalxdılar.

O gündən Azadın sevgi həyatı öz axarına düşdü. İlk görüşdən Annanın anası da Azada yaxşı münasibət göstərdi və onun Annaya olan istəklərinə sevindi. Artıq Azad hər gün Annanı evlərinə yola salır, bəzən yuxarı qalxıb çay içir, hətta onlarda yemək yeyirdi. Azad bu ailəyə o qədər isinmişdi ki, bir gün getməyəndə Annanın anası onu axtarırdı.

Bir dəfə söhbətə o qədər dalmışdılar ki, gec oldu. Annanın anası getmək istəyən Azada imkan vermədi. Ondan qalmağı xahiş etdi. Son vaxtlar başı qırxıqların gecələr başqa millətlərdən olanlara hücum etdiyini və nəqliyyatın dayanacağını nəzərə alaraq Azad bu təkliflə razılaşdı.

Yatmaq vaxtı idi. Annanın anası qızının otağı ilə yanaşı olan otağı Azada təklif etdi.

Gecənin gec saatlarında Azadla Anna qonşu otaqlarda yataqlarında uzanıb bir-biri haqqında düşünür, gələcəkləri ilə bağlı xoşbəxt planlar qururdular.

Azad susamışdı. Su içmək üçün qalxıb mətbəxə keçəndə Annanı açıq pəncərədən şəhərin sayrışan işıqlarına tamaşa edərkən gördü. Arxadan ona yaxınlaşdı, nə vaxt onu qucaqladığının belə fərqinə varmadı. Dodaqları Annanın çılpaq boynuna toxunanda Anna sanki elektrik vurmuş kimi titrədi. Arxaya dönüb qollarını Azadın boynuna doladı.

Hər ikisi bir-birini həyəcanlı öpüşlərə qərq etdilər. Necə Azadın yataq otağına keçdiklərini, necə çarpayıya uzandıqlarını xatırlamadılar. Yadda qalan o idi ki, artıq Anna ilə Azad səhəri ər-arvad kimi açmışdılar.

Səhər Annanın anası onlara baxan kimi hər şeyi başa düşdü. Gənclərin hər ikisi peşmanlıq çəkirdi. Annanın anası gülə-gülə, heç bir ciddi hadisə baş verməmiş kimi:

– Əgər bir-birinizi həqiqətən sevirsinizsə, evlənə bilərsiniz, – dedi.

O gündən Azad yataqxanadan Annagilə köçdü. Rəsmi nikahı Annanın atasının qayıtmasına qədər təxirə salmağa razılaşdılar. Ailəliyin rəsmiləşməsi üçün Annanın atasının xaricdən qayıtması, Azadın isə öz ailəsinin razılığı lazım idi.

Bir neçə ay keçdi. Artıq Annanın hamilə olduğu bilinirdi.

Annanın atasının qayıtmasına günlər qalmış Azad ailəsinin razılığını almaq və rəsmi nikahda onların da iştirakını təmin etmək üçün Azərbaycana qayıtdı.

Azadı kənddə xoş olmayan sürpriz gözləyirdi. Azad gəlməmişdən iki gün əvvəl atasının beyninə qan sızmışdı. Azad atasını çox ağır vəziyyətdə gördü. Belə vaxtda evlənməkdən söz salmaq olmazdı. Gözləməyi qərara aldı. Atası yaxşılaşan kimi evlənmək istədiyini deyəcəkdi.

Lakin atasının vəziyyəti günbəgün ağırlaşırdı. Ailənin üzərində ölümün qara buludları sıxlaşırdı. Atasının ağır durumu Azadı çaşdırmışdı. O, vəziyyət haqqında Annaya yazmağı belə unutmuşdu.

Bir neçə ay belə keçdi. Azad vaxt tapıb Annaya qısa məktub yazdı. Gecikməyinin səbəbini və atasının ölüm ayağında olduğunu bildirdi.

Bu məktubdan çox keçmədi ki, Azadın atası dünyasını dəyişdi.

İndi Azad matəm mərasiminin bitməsini gözləməyə başladı. Artıq Annanın doğum vaxtı çatmışdı. Azad bu vaxt Annanın yanında olmamağın nə demək olduğunu yaxşı bilsə də, el adətini pozub Moskvaya gedə bilməzdi. Həm də ailənin böyük oğlu kimi indi hamı ona başsağlığı verməyə gəlirdi.

Azad övladının dünyaya gələcəyi gün Annanın yanında ola bilməyəcəyi ilə bağlı təəssüf dolu ikinci məktubu yazdı. Səbəbini də atasının matəmi ilə izah etdi.

Bu məktubdan iki həftə sonra Azad Moskvadan qısa teleqram aldı.

Teleqram Annanın atasından idi. Atası yazırdı ki, Anna uşaq doğarkən özü də, körpə də ölüb.

Azad teleqramı oxuyanda huşunu itirdi. Hamı onun başına yığışdı. Matəm mərasimi yaddan çıxdı. İndi Azadın başına gələn faciədən xəbər tutan ailə ikinci dəfə matəmə büründü. Xüsusən Azadın anası – üzünü görmədiyi gəlinin və nəvəsinin ölümündən sarsılmışdı. Oğlunun çaşqın sifətinə baxdıqca:

– Can bala… bu yaşda sən bu faciəni necə yaşayacaqsan… – deyə inildəyirdi.

Atasının və Annanın itkisi Azadı bir günün içində on il qocaltdı.

Atasının qırxını verdikdən sonra Azad anasından icazə alıb Annanın qəbrini ziyarət etmək üçün Moskvaya uçdu. Təyyarədən düşəndə birbaşa Annagilə getməyə ayağı gəlmədi. Düzdür, üzürlü

səbəbdən doğum vaxtı Annanın yanında ola bilməmişdi, amma yenə də özünü günahkar bilirdi.

Aeroportda telefon budkasından Annagilə zəng edib Anna və körpənin qəbrinin yerini öyrənmək istədi. Telefonu bir kişi açdı. Səsi soyuq və rəsmi idi. Özünü Annanın atası kimi təqdim etdi.

Azad özünü təqdim etdikdən sonra Annanın harada dəfn edildiyini və qəbrini ziyarət etmək istədiyini bildirdi.

Annanın atası dərhal cavab vermədi. Bir xeyli susduqdan sonra:

– Sabah birlikdə gedərik, – dedi və Azadın hansı mehmanxanada qaldığını soruşdu.

Azad bu "harada qalırsan?" sualını həm də "bizə gəlmə" kimi başa düşdü. Düzdür, o, Annagilə gedib bilavasitə Annanın valideynlərinə, xüsusən anasına başsağlığı vermək istəyirdi, lakin atanın danışıq tonu artıq o evdə Azadı gözləyən kimsənin qalmadığını açıq göstərirdi.

Azad həmişə qaldığı mehmanxananın adını dedi və ora yollandı.

Səhərisi gün Annanın atası mehmanxanaya gəldi. Hündürboy, sifətindən zəhər yağan, qaraqabaq, hərbi duruşlu, sərt baxışlı bir adam idi. Danışmasaydı, onun canlı insan olduğuna inanmaq olmazdı. Heykəl kimi soyuq və cansız görünürdü.

Əlini Azada uzadıb quru səslə:

– Annanın atası, İvan, – dedi.

Azad da özünü təqdim etdi:

– Annanın nişanlısı, Azad.

Deyəsən, "nişanlı" sözü İvan üçün söyüş kimi səsləndi. Azad onun dodaqları arasından çıxan "niqodyay… svoloç…" sözlərini aydın eşitdi. Özünü eşitməzliyə vurdu. Bu söyüşü Annanın ölümündə onu günahkar sayması ilə əlaqələndirdi. Ürəyində ona

haqq da qazandırdı: “Kim bilir, bəlkə mən olmasaydım, Anna doğuşda ölməzdi…”

Onlar birlikdə İvanın xidməti maşınına minib yola düşdülər.

Azad özü ilə Azərbaycandan Annanın çox sevdiyi bir qucaq qırmızı qərənfil gətirmişdi. İndi onları Annanın və üzünü belə görmədiyi, amma qiyabi olaraq həyatından artıq sevdiyi övladının qəbrinə səpəcəkdi.

Yolboyu İvan bir kəlmə də danışmadı. Onun üzündə kədərdən çox qəzəb vardı. Azad hiss edirdi ki, o, ona nifrət edir. Ürəyində düşündü: “Yəqin yeganə övladını itirməsinin günahını məndə görür…”

Maşın şəhərin kənarında bir qəbiristanlığa çatdı. Azadın halı özündə deyildi. Göz yaşını güclə saxlayırdı. Dizləri əsirdi. Ürəyində təkrar edirdi:

“Anna… sən niyə məni tərk etdin… məni bağışla…”

Qəbiristanlığın qapısına çatanda İvan sürücüyə əmr etdi ki, Azadı dediyi qəbrin yanına aparsın.

Sürücü ilə birlikdə təzəcə qazılmış bir qəbrin yanına getdilər.

– Bu, Annanın qəbridir, – deyən sürücünün səsi Azadın içini parçaladı.

Azad hönkürə-hönkürə qəbrin üstünə uzandı. Sanki öz sevgilisini və doğulmamış övladını qucaqlayırdı. Üzünü torpağa sürtüb uzun müddət ağladı. Gətirdiyi güllərlə qəbri bəzədi.

Ayrılmaq istəmirdi.

Birdən maşından siqnal səsi gəldi. Sürücü getmək lazım olduğunu bildirdi.

Azad:

– Siz gedin… mən bir az da burada qalım… – dedi.

Sürücü sərt şəkildə:

– Olmaz. İcazə yoxdur. Bura qapalı müəssisədir, – deyə etiraz etdi.

Sonra Azadın qolundan tutub kobudcasına qapıya tərəf dartdı.

Birlikdə qəbiristanlıqdan çıxdılar.

Azad İvanın üzünə baxdı. Onun sifətində indi də hiylə qarışıq istehza və nifrət vardı. Azad heç nə anlamadı.

Üzünü ona tutub…

– Siz mənim Annanın qəbrini heç olmasa ildə bir dəfə ziyarət etməyimə etiraz etmirsiniz ki? – deyə soruşdu.

Annanın atası ona kəskin nəzərlə baxıb kinayə ilə:

– İldə bir dəfə… və yalnız mənim icazəmlə, nəzarət altında, – dedi.

Deməli, bu il artıq o, Annanın qəbrini ziyarət edə bilməzdi. Azad bir söz demədi. Onların gəldiyi qəbiristanlığın ünvanını belə öyrənə bilməmişdi. Üstəlik, bura qapalı və qorunan bir yer idi. Azad istəsə də ora icazəsiz gələ bilməzdi.

O vaxtdan Azad hər il Annanın qəbrini atasının təyin etdiyi adamların nəzarəti altında ziyarət edirdi. Sonralar evləndi, ailə qurdu.

Azərinə başına gələnləri danışdı. Azərin Azadı başa düşdü və hətta Annanın qəbrini onunla birlikdə ziyarət etmək istədiyini dedi. O vaxtdan hər il məzuniyyətini Moskvada keçirən Azad ailəsi ilə birlikdə, yenə nəzarət altında Annanın qəbrini ziyarət edirdi. Övladları olandan sonra da bu adətindən qalmadı.

On il keçdi.

Növbəti dəfə Azad Annanın qəbrini ziyarət etmək üçün Annanın atasına müraciət etdikdə:

– Olmaz. Bu teatrı qurtar. Bir daha məni narahat etmə, – deyib telefonu üzünə bağladı.

Artıq Annanı ziyarət etmək Azad üçün qadağan olunmuşdu.

90-cı illərdə SSRİ dağılandan sonra Azad Bakıya köçdü. Başı elmi işlərinə, övladlarının böyüməsinə qarışdı. İndi hər il evlərin-

də Annanın böyüdülmüş və qara çərçivəyə salınmış portretinin ətrafında ölüm günündə onu yad edirdilər.

İndi "Axtarış" verilişinə dəvət alanda Azad bu əhvalatı bir daha xatırladı. "Bəlkə Annanın anası və ya atası məni axtarır?" – deyə düşündü. Sonra dərhal özü-özünə:

"Yox… onlar çoxdan dünyadan köçüblər. Bir də bu qədər vaxtdan sonra niyə məni axtarmalıdırlar ki?"

Yaxşı, bəs onu kim axtarır?

Azad birdən sevinclə Azərinə baxdı:

– Yəqin məni verilişə ekspert kimi dəvət ediblər!

Bu fikir Azərinin də ağlına gəlməmişdi. Hər ikisi dərindən nəfəs aldı. Sanki üzərlərindən ağır yük götürüldü.

Əlbəttə, ekspert kimi olmalı idi. Azad tanınmış elm və ictimai xadim idi. Gənc nəslin mənəvi problemləri ilə bağlı kitab yazmışdı. Tez-tez bu mövzuda KİV-də çıxış edirdi. Yəqin indi də onun fikirlərinə ehtiyac yaranmışdı.

Azərin sakitləşmişdi. Əslində, o, son bir ildə Azad üçün çox narahatlıq keçirirdi. Bir ilə yaxın idi ki, Azad qəribə yuxular görməyə başlamışdı. Tez-tez yuxudan hövlanak, göz yaşları içində ayılıb yatağında otururdu. Azərinin çox təkidindən sonra yuxusunu ona danışmışdı:

Azad yuxuda iki çılpaq körpə oğlan uşağını görürdü. Onlar qaranlıq bir qəbrin içində oturub soyuqdan və qorxudan tir-tir əsir, ağlaya-ağlaya:

– Ata, bizi burdan qurtar… – deyə yalvarırdılar.

Azad yuxuda onları xilas etməyə çalışsa da, harada olduqlarını tapa bilmirdi. Qışqırırdı:

– Siz hardasınız? Mən sizi axtarıram!

Sonra uşaqlar yox olur, Azad öz səsinə ayılırdı. Ayılandan sonra ürəyi kədərdən partlayacaq kimi olurdu.

Bu yuxu son vaxtlar hər gün təkrarlanırdı. Körpələrin o qədər yanğılı şəkildə kömək istəməsi Azadı ayıqlıqda da onları axtaran adam kimi davranmağa vadar edirdi.

Azərin Azadın psixoloji vəziyyətində ciddi problemlər yaranmasından qorxurdu. Müraciət etmədikləri psixoloq, psixiatr qalmamışdı. Azad hətta müalicə də almışdı. Amma qarabasmalar keçmirdi. Azad hər gün yatmağa könülsüz uzanır, səhər isə ağır təəssüratla oyanırdı.

Azərin boş dayanmaq istəmirdi. Gözünün qarşısında özündən çox sevdiyi həyat yoldaşının çəkdiyi əzablara dözə bilmirdi. Hətta heç vaxt inanmadığı falçı və ekstrasenslərin qapılarına Azaddan gizlin ayaq açmışdı.

Hərə bu yuxunu bir cür yozurdu:

– Onun itkin düşmüş yaxınları onu axtarır.

– Onun ölmüş bildiyi yaxınları sağdır.

– Onun diri-diri basdırılmış yaxın adamı var.

Azərin bunları əsassız saysa da, axtarışlarını davam etdirdi.

Hətta bir falçının dedikləri onu dəhşətə gətirmişdi. Falçı qəbirdən Azadın çağırılmasını "tezliklə kiminsə öləcəyi" kimi yozmuşdu.

Azərin soruşmuşdu:

– Kim öləcək?

Falçı cavab vermişdi:

– Kimi qəbrə çağırırlar, o.

Azərin falçını söyüb təhqir etmişdi, amma o gündən bu fikir beyninə ilişib qalmışdı:

"Deyəsən, Azad tezliklə məni tərk edəcək…"

İndi də "Axtarış" verilişinə dəvətin gəlməsi Azərinin ağlını tamamilə qarışdırmışdı.

Azad yarıkönüllü və özünə verdiyi saysız cavabsız suallarla Azərinlə birlikdə verilişə qatıldı. Veriliş başlayanda Azad özünü dəvətli ekspertlər sırasına tərəf yönəltdi. Amma aparıcı gülə-gülə:

– Azad bəy, səhnəyə keçin, – deyəndə Azad yenidən şoka düşdü.

Birdən ona elə gəldi ki, yuxu görür. Hipnoz altındakı adam kimi aparıcının sözlərinə tabe oldu. Düşündü ki, ayılanda bu yuxunu da Azərinə danışsa, o inanmayacaq.

Proqramda ondan başqa iki nəfər də vardı. Aparıcı üzünü ona tutub soruşdu:

– Kimisə axtarmısınızmı?

Azad:

– Mən heç kimi axtarmıram.

Aparıcı gülümsədi:

– Bəlkə axtarmaq istəmirsiniz?

Azad:

– Yox, niyə ki? Əgər mənim itmiş bir yaxınım olsaydı, onu çoxdan axtarıb tapmışdım.

Aparıcı zarafatla:

– Bəlkə həyat yoldaşınız Azərin xanımdan ehtiyat edirsiniz?

Azad yarı zarafat, yarı ciddi:

– Yox, əksinə. Elə biri olsaydı, yoldaşım məndən qabaq onu axtarardı.

Aparıcının “Bəs sizi kim axtara bilər?” sualına isə qətiyyətlə:

– Heç kim! – dedi.

Aparıcı:

– Yaxşı fikirləşin. Bəlkə sizə doğma olan kimsə var? Siz onu axtarmasanız da, o sizi axtarır?

– Yox, mənim elə bir yaxınım yoxdur. Ola da bilməz. Yəqin səhv salmısınız.

Aparıcı:

– Yəni sizin gənclik illərində heç bir sevgi macəranız olmayıb?

Azad bu sualdan diksindi. Bədənindən gizilti keçdi.

Bir az düşündükdən sonra Anna ilə bağlı əhvalatı danışdı.

Aparıcı gülərək:

– Siz Annanın ölüm əhvalatını qorxunuzdan, arvadınızı aldatmaq üçün uydurmusunuz, ya necə?

Azad:

– Yox! Yoldaşım da dəfələrlə mənimlə birlikdə onun qəbrini ziyarət edib.

Aparıcı yenə gülə-gülə:

– Mən sizin danışdıqlarınıza inanmıram.

Azad inamsız və tərəddüdlü şəkildə:

– Bəyəm burda inanmamalı nə var ki?

Aparıcı:

– Gəlin bir süjet izləyək.

Hamının gözü səhnədəki böyük ekrana zilləndi. Azad da qeyri-ixtiyari qorxa-qorxa baxdı.

Ekranda onun gənclik illərində Anna ilə çəkdirdiyi şəkillər, Annanın qəbrinin üstünə yıxılıb ağladığı anlar, Azərin və uşaqları ilə müxtəlif illərdə Annanın qəbrini ziyarət etdikləri görüntülər nümayiş etdirilirdi.

Azad çaşmışdı:

“Bu şəkillər necə çəkilib? Haradan və kim tərəfindən verilişə göndərilib? Nə məqsədlə?”

Azad özünə təsəlli verdi:

“Yəqin yuxu görürəm… yuxuda hər şey olur…”

Onu təəccübləndirən o idi ki, demə, o hər dəfə Annanı ziyarət edəndə bütün hərəkətləri gizlincə fotoya çəkilirmiş.

Annanın atasının KQB generalı olduğunu nəzərə alanda özünə təsəlli verdi:

“Yəqin bu onun işidir…”

Amma bu şəkillərin niyə indi və burada göstərildiyini başa düşə bilmirdi. Ürəyi sıxılmağa başladı. Nə edəcəyini bilmirdi.

Gözü zalda tamaşaçıların arasında oturan həyat yoldaşı Azərini axtardı. Azərin də gözlərini ona zilləyib çaşqınlıqla baxırdı. Azərin Azadın yaxşı vəziyyətdə olmadığını dərhal anladı. Aparıcıdan onun yanında oturmaq üçün icazə istədi. Aparıcı etiraz etmədi.

Azərin Azadın yanına keçib əllərini tutdu. Azadın əlləri bumbuz idi. Azərin onun içdən-içə əsdiyini hiss edirdi. Çox narahat oldu. Özündə gətirdiyi sakitləşdiricini Azada verdi. Azad dərmanı içib bir qədər özünə gəldi.

Aparıcı digər iştirakçılarla danışır, onlara eyni məzmunlu suallar verir, gah zarafat, gah ciddi sözlər atırdı.

Bir qədər keçdikdən sonra:

– Gəlin bir süjet də izləyək, – dedi.

Hamı yenidən ekrana baxdı.

Bu dəfə video material göstərilirdi.

Bir-birinə çox bənzəyən, 30–35 yaşlarında, qara saçlı, qara gözlü, yaraşıqlı, ziyalı görkəmli iki gənc oğlan öz həyatları haqqında danışırdı.

Onların dediklərindən belə anlaşılırdı ki, onlar anadan olduqları gündən atalarını görməyiblər. Onlara atalarının əyyəş bir yəhudi olduğu, onlar doğulan gün onları tərk etdiyi və sonradan İsrailə köçdüyü deyilib.

Xüsusən onları canından çox sevən və bütün qayğılarını öz üzərinə götürən babaları onlarda atalarına qarşı nifrət tərbiyə etmişdi. Onlara ataları haqqında o qədər pis fikirlər demişdi ki, atalarının olmasındansa olmamağı ilə barışmışdılar.

Anaları ataları onları tərk edəndən sonra heç kimlə ailə qurmayıb. Özünə qapanmış həyat tərzi keçirib. Evdən nadir hallarda çıxıb. Heç bir şənliyə qatılmayıb. Onun güldüyünü demək olar ki, görməyiblər. Atalarından söz düşəndə həmişə göz yaşları içində:

– Ondan danışmağın heç bir mənası yoxdur… – deyib.

Onlar 15 yaşına çatanda anaları ağır xəstəlikdən dünyasını dəyişib.

Bundan sonra onlar yalnız babalarının himayəsində böyüyüblər. Babaları çox imkanlı adam olub, onları xarici ölkələrdə təhsil almağa göndərib. Biri tibb elmləri doktoru, digəri texnika elmləri doktoru elmi dərəcəsi alıb. Gənclər babalarını həm də ata əvəzi seviblər, əldə etdikləri hər şeyə görə ona minnətdar olublar. Ataları ilə müqayisədə babalarının nə qədər gözəl insan olduğunu düşünüblər.

Bir neçə ay əvvəl babaları ölüm ayağında onları yanına çağırıb:

– Balalarım, mən həyatımda sizə qarşı çox böyük haqsızlıq etmişəm, ananıza qarşı isə cinayətə bərabər ədalətsizlik göstərmişəm. Öz əlimlə öz övladımı məhv etmişəm. İndi görürəm ki, ölürəm. Sizə həyatımızın bir sirrini açmaq istəyirəm.

Burada süjet qurtarır. Aparıcı üzünü Azada tutub:

– Sizcə, babaları bu gənclərə hansı sirri açə bilər?

Onsuz da ayıqlıqla yuxululuq arasında qalan Azad fikirləşə bilmirdi. Həmişə məntiqli cavabları ilə hamını heyran qoyan Azad yalnız çiyinlərini çəkdi.

– Bəs bu sirrin sizinlə əlaqəsi ola bilərmi?

Azad artıq əsəbiləşməyə başlamışdı.

– Axı bunun mənə nə aidiyyəti ola bilər? Mən nə o qoca kişini, nə də o oğlanları tanımıram. Bir də burada bir yəhudinin vicdansızlığından söz açılır. Bunun mənimlə nə əlaqəsi ola bilər ki? Sizə dedim axı – mən heç kimi axtarmıram və məni də heç kim axtarmaz!

Azad hirslə ayağa qalxıb verilişi tərk etmək istədi. Aparıcı gülə-gülə:

– Hirslənməyin, Azad bəy. Bəlkə sizə məlum olmayan, amma sizinlə bağlı bir sirrdir bu.

Azad qətiyyətlə "Ola bilməz!" dedi və Azərinin təkidi ilə yenidən kresloya əyləşdi.

Azadın öz qətiyyəti ona bir az güc verdi. Sanki düşdüyü şokdan çıxdı, bir qədər sakitləşdi. İndi qəti şəkildə inanırdı ki, bu sirrin ona heç bir aidiyyəti yoxdur.

Sonra gənclər:

– Babamızın dediklərini öz xahişi ilə videoya çəkmişik. Gəlin, onun dilindən eşidək bu əhvalatı, – dedilər.

Ekranda arıq, qoca, güclə danışan bir xəstə kişi görünməyə başladı. Azad diqqətlə ona baxdı. Bu adamı qətiyyən tanımadığına əmin oldu. Bir az da rahatladı. Ürəyində: "Deyirəm də, mənə nə aidiyyəti var bu əhvalatın…" – deyə düşünərək Azərinə sığındı. Hətta gülümsəməyə cəhd etdi.

Bir azdan Azad özünü unudub bu gənclərin taleyini maraqla izləməyə başladı. Qocanın heç bir sözünü qaçırmaq istəmirdi. Arada diqqətlə baxanda danışan adam ona nəsə tanış kimi gəlirdi, amma dərhal da tanımadığına yenidən əmin olurdu.

Qoca ad çəkmədən belə danışırdı:

"Mənim yeganə bir qız övladım var idi. Ona gözəl tərbiyə və yüksək təhsil vermişdim. Həyatımın yeganə məqsədi onun sağlam ailə qurması idi. Bunun üçün onu təsadüfi tanışlıqlardan qoruyurdum. O da mənim istəyimə uyğun olaraq kim gəldi ilə əlaqə yaratmırdı. Ciddi nəzarət altında böyüdüyündən pak və saf bir gənc xanım olmuşdu. Çox da gözəl idi. Mən ona Ruslan kimi igid bir rus kürəkəni tapacağıma and içmişdim. O mənim Lyudmilam idi. Ona yalnız Ruslan yaraşardı.

Amma sonralar onun bir Qafqazlı gənclə sevişdiyini və ondan qanundan kənar hamilə qaldığını öyrəndim. Mən Qafqazlıları əvvəldən sevmirdim. Onları alverçi, yalançı, hiyləgər, arvadbaz və

Moskvada kriminal qruplar yaradan adamlar kimi tanıyırdım. İşləri rus qızlarını tovlayıb yoldan çıxarmaqdan ibarət idi. Günahın bir yarısı da bizim qızlarda idi – qaraları görən kimi əldən-ayaqdan gedirdilər.

Xaricdən Moskvaya qayıdanda qızımın hamilə olduğunu gördüm. Onun nişanlısının kimliyi ilə maraqlandım. Onu mənə yaraşıqlı, ağıllı, savadlı, mədəni, sədaqətli biri kimi təqdim etdilər və öz ailəsi ilə danışıb Moskvaya qayıdacağını, doğum günü qızımın yanında olacağını dedilər. Mən Qafqazlılara inanmasam da düşündüm ki, yəqin belələri də var.

Amma qızımın doğmasına iki gün qalmış ondan bizə teleqram gəldi. Teleqramda guya atası öldüyü üçün gələ bilməyəcəyini yazmışdı. Qəzəbimdən nə edəcəyimi bilmədim. Bu da növbəti Qafqazlı hiyləsi! Gəlmək istəmir, bəhanə kimi hətta atasını da öldürür. Mən də düşünmədən dərhal ona teleqram göndərdim – qızımın doğuş üstə uşağı ilə birlikdə öldüyü xəbərini verdim. Düşündüm ki, bu xəbər onun ürəyincə olacaq. Onsuz da bizdən canını qurtarmaq istəyir. Qoy elə olsun. Biz də bu yalancıdan qurtulaq.

Qızım əkiz oğlan uşağı doğdu. Onun yatağı yanında özümə söz verdim ki, bu iki uşağı əsl rus kimi böyüdəcəyəm. Onlara ataларının kimliyini unutduracaq, ata məhəbbəti ilə hər şeyi edəcəyəm. Elə də etdim.

Doğuşdan sonra qızımın gözü yolda qalmışdı. Nişanlısının niyə qayıtmaması ilə bağlı narahatlıq keçirirdi. Məndən dəfələrlə xahiş etdi ki, öz kanallarımla onu axtarım, bəlkə başına bir iş gəlib. Bir neçə gündən sonra qızıma "nişanlın vətəninə qayıdandan sonra avtoqəzaya düşüb ölüb" xəbərini verdim. Anna o gündən qara geyinib ölənə qədər öz nişanlısının yasını saxladı.

Mən nəvələrimin xoşbəxt gələcəyi naminə, bir alverçi Qafqazlı tərbiyəsi görməmələri naminə yalan danışmağa məcbur oldum. Amma sonralar o gənc qızımı axtarmağa başlayanda və ona gös-

tərdiyim yalançı qəbrin başında hönkür-hönkür ağlayanda çox böyük səhv etdiyimi anladım. Amma iş işdən keçmişdi. Qızım da onun öldüyünü qəbul etmişdi və həqiqəti öyrənsəydi, mənə ata deməyəcəyindən əmin idim.

İndi ölüm ayağında bu sirri özümlə o dünyaya aparmaq istəmirəm. Sizə bir paket verəcəyəm. Həmin paketdə atanızın və ananızın şəkilləri, sizin doğum haqqında şəhadətnamələriniz var. Həmin şəhadətnamələrdə atanızın gələcək oğlanlarına seçdiyi Azərbaycan adları – Anar və Yaşar – yazılıb. Sonralar bu adlar sizin inkişafınıza mane olar deyə adlarınızı dəyişdirib İqor və Viktor qoymağa ananızı razı saldım.

Siz tək deyilsiniz. Sizin çox gözəl, ağıllı atanız var. Onun sağ və ya ölü olduğunu bilmirəm. O azərbaycanlıdır. Adı Azaddır. O mənim qızım Annanın nişanlısı və sizin doğma atanızdır. O sizin yaşadığınızdan, mövcudluğunuzdan xəbərsizdir. O Annanı ölmüş, sizi isə doğulmamış bilir. Buna görə o sizi axtarmır və heç vaxt da axtarmayacaq.

İndi məni necə istəyirsiniz, elə ittiham edin. Amma onu axtarın. Əgər sağ tapsanız, mənim əvəzimdən üzr istəyin. Ananızdan da o dünyada Allahın divanında yalvarıb məni bağışlamasını istəyəcəyəm. Mən qızımı diriykən öldürdüm. Mən həm də iki gənci ata məhəbbətindən məhrum etdim. Əslində mən caniyəm. Mən sizin atanızın və ananızın qatiliyəm. Mən atanızı sizin gözünüzdə öldürmüşəm. Mənim başqa xalqlar haqqında yanlış mövqeyim öz faciəmə çevrildi…”

Azad “Anar” və “Yaşar” adlarını eşitdiyi andan özünün ayıq, yoxsa yuxuda olduğunu ayırd edə bilmirdi. Artıq heç bir səs eşitmirdi, heç nə görmürdü, düşünə də bilmirdi. Onu qatı bir qaranlıq bürümüşdü. Bu qaranlıqda güclə seçilən qəbir daşları görünürdü.

Deməli… bura qəbiristanlıq idi.

Yenidən həmişə gördüyü yuxunu görməyə başlamışdı. Amma bu dəfə fərq vardı – o, illərdir köməyə çağıran körpələrin olduğu qəbiristanlığı tapmışdı.

Qəbir daşlarından birinin altından yenə iki oğlan uşağının səsi gəlirdi:

– Ata… bizi burdan qurtar…

Azad səs gələn qəbrin yanına yaxınlaşdı. Baş daşına diqqətlə baxanda bunun qəbrə enən yolun qapısı olduğunu anladı. Qapını açıb içəri boylandı. Qəbrin içi zülmət qaranlıq idi. İçəridən adamın iliyinə işləyən qəribə, soyuq bir meh əsirdi.

Azad ayağını baş daşındakı qapıdan içəri qoyan kimi əlləri hər yerdən üzüldü və dibsiz bir zülmət uçurumuna yuvarlandı. Qışqırmaq istədi – səsi çıxmadı. Köməyə adam çağırmaq istədi – yadında heç bir adam adı qalmamışdı. Əlini nəyəsə atıb yapışmaq istədi – amma heç nə yox idi.

Azad zülmətə düşdükcə qaranlıqda əriyir, qaranlığa qarışırdı.

Azərin eşitdiklərinə inanmaq istəmirdi. Bütün tamaşaçılar kimi o da göz yaşlarını sel kimi axıdırdı. Birdən ağlına Azad gəldi. Görəsən o, bu xəbərə necə reaksiya vermişdi?

Gözlərinə sıxdığı dəsmalı üzündən çəkib kresloda oturan Azada baxdı.

Azad kresloda donub qalmışdı. Gözləri bir qədər aralanmış halda monitora zillənmişdi. Sifəti bənizsiz ağarmışdı. Yanaqlarında iki damcı göz yaşı donub qalmışdı. Üzündə qəribə – həm acı, həm sevincə bənzər bir ifadə vardı.

Azərin sevindi: “Yox, deyəsən Azad bu xəbəri qaldıra bildi…”

Aparıcı da ağlayanlara qarışmışdı. Auditoriyada ağlamayan yox idi.

Nəhayət, aparıcı özünü ələ alıb Azada döndü:

– Hə, Azad bəy… indi nə deyirsiniz? Yenə də “məni heç kim axtarmaz” və ya “mən heç kimi axtarmıram” deyəcəksiniz?

Azad yenə monitora baxırdı. Tərpənmirdi.

Aparıcı bir daha ucadan səsləndi:

– Azad bəy, mən sizə müraciət edirəm. Siz kimisə axtarırsınız-mı?

Azad cavab vermədi.

Azərin onun səs çıxarmadığını görüb yanına qaçdı. Əlini yavaşca Azadın çiyninə qoyub silkələdi:

– Azad… cavab ver… sənlə danışırlar…

Azadın başı ağır-ağır çiyninə düşdü.

Azərin dəhşətdən qışqırığı bütün studiyanı lərzəyə gətirdi:

– Azaaad!

Azad çoxdan keçinmişdi.

Bəli… indi o, həqiqətən də heç kimi axtarmırdı.

METAMORFOZ

Əjdər müəllim çox böyük zəhmət bahasına ərsəyə gətirdiyi bağın qapısı ağzındakı iri daşın üzərində oturub sevinclə təzəcə çiçəklənməyə başlamış ağaclara baxa-baxa dərin xəyallara getmişdi.

Əjdər müəllim orta məktəbdə 50 ilə yaxın müəllimlik etmiş, yalnız kəndlərində deyil, ondan çox-çox uzaqlarda belə öz peşəsinin yüksək bilicisi kimi ad-san qazanmışdı. Əlindən tutub yazı yazmağı, kitab oxumağı öyrətdiyi yüzlərlə şagirdi ölkənin elmi, ictimai-siyasi həyatında parlaq nəticələr əldə etmiş insanlara çevrilmişdi. Onun dərs dediyi bütün uşaqlar həm də vətənpərvər, xalqına, dövlətinə, ailəsinə bağlı vətəndaşlar kimi yetişmişdi.

Əjdər müəllimin həm də yaxşı bir bağban olduğu bilinirdi. Amma o məktəbdə də özünü təəccüblü şəkildə müəllimdən daha çox bağban kimi aparır, pedaqoji məsələləri tez-tez bağçılığa aid bilgilər əsasında izah edir, hətta dərs dediyi uşaqlara ayrı-ayrı meyvələrin adlarını verirdi. Onun davranışları da müəllimdən daha çox bağban davranışlarına oxşayırdı. Məktəbdə birlikdə işlədiyi müəllim yoldaşları yalnız pedaqogika ilə bağlı yox, bağçılıqla bağlı bilmək istədiklərini də Əjdər müəllimdən öyrənirdilər. Buna paralel olaraq Əjdər müəllim pedaqoji bilgilərini bağçılıq terminləri ilə ifadə edir və öz pedaqoji təcrübəsini bağbanlıq nümunələri əsasında izah edir, təəccüblü olsa da, öz fikirlərini bu yolla daha asanlıqla başqalarına çatdıra bilirdi.

Əjdər müəllim həmişə vətəni bir bağa, dərs dediyi uşaqları həmin bağda bitən ağaclara bənzədirdi. Sevə-sevə həmişə uşaqlara:

"İnsan doğulduğu torpaqlardan heç vaxt ayrılmamalıdır, yoxsa torpaqdan çıxarılmış ağaclar kimi tez quruyub məhv olar," – deyə məsləhət verirdi.

Partada düz oturmayan uşaqlara:

"Əyri ting kimi oturma," – deyə irad bildirirdi.

Əjdər müəllimin gözündə həqiqətən məktəb bir bağ, uşaqlar isə o bağda bitmiş ağaclar kimi görünürdü. O nə qədər istəsə də, bu təsəvvürdən xilas ola bilmirdi. Çox vaxt ondan:

"Nə üçün siz həmişə məktəbi bağla, uşaqları ağaclarla müqayisə edirsiniz, fikirlərinizi bağçılıq terminləri ilə ifadə edirsiniz?" – deyə soruşanda, o müəmmalı şəkildə çiyinlərini çəkib:

"Heç özüm də bilmirəm," – mənası verən gülümsəmə ilə cavab verirdi.

Əslində Əjdər müəllim sadəcə məktəbi bağla müqayisə etmirdi – o, həqiqətən sinfə girəndə özünü bağban, dərs dediyi uşaqları isə təzə əkilmiş və çiçəklənməyə başlamış fidanlar kimi görürdü. Onun gözündə sinifdəki hər bir uşaq bir meyvə ağacına çevrilirdi. Elə müəllim yoldaşlarına da bağbanlar kimi baxırdı.

Sinifdə əlvan geyinmiş qızlar ona ərik, alma, heyva, gilas, albalı, nar, şaftalı; oğlanlar isə qoz, badam, fındıq, şabalıd, zoğal, alça, armud ağacları kimi görünürdü. Hətta sinifdə Heyvagül, Almayanaq, Nardan adında qızlara rast gələndə daha çox çaşqınlığa düşürdü.

Oğlanları müxtəlif meyvələrə oxşatması da təsadüfi deyildi. Məsələn, idmanla məşğul olan oğlanların köynəklərinin yaxası açılanda qoz rəngində əzələli bədənlərini yetişmiş qozların qabığından çıxması kimi təsəvvür edirdi. Günəşdən bədənləri qaralmış, dəstə ilə hərəkət edən və dəcəllikdən qalmayan uşaqlar onda eyni qabığın içində topa şəklində olan şabalıd assosiasiyası yaradırdı. Dərsdə balacaboy, şuluq, bir yerdə durmayan oğlan yüz faiz fındıq idi. Özünə fikir verən, həmişə səliqəli geyinən, qız yaraşığı olan oğlanları armud kimi görürdü. Sözünün yerini bilməyən, ağzına gələni danışan, mübahisə etməyə həvəsli oğlanlar onda ağız büzən turşməzə alça və ya zoğal təsiri yaradırdı. Dərsi mənimsə-

məyən və pis oxuyan uşaqlar isə onun gözündə meyvəsi olmayan söyüd və qovaq ağacları idi.

Bir qayda olaraq uşaqların xarici görünüşü, geyimləri onda daha sürətlə ayrı-ayrı meyvələrin görüntüsünü yaradırdı. Əjdər müəllim bu ikiləşməni heç cür anlaya bilmirdi. Özündə psixoloji problem olduğunu düşünsə də, həkimə müraciət etməkdən çəkinirdi.

Əjdər müəllim bütün bunların səbəbini özlüyündə keçmişin yaşantıları ilə əlaqələndirirdi. Əjdər müəllim bağçılığı uşaq vaxtlarında peşəkar bağban olan babasından öyrənmişdi. O babasını, babası da onu çox sevirdi, bir-birinə çox bağlı idilər. Əjdər babasının hər sözünə şəksiz inanır, onun nağıllarını belə reallıq kimi qəbul edirdi. Babası hər dəfə bağa gedəndə onu da özü ilə götürür, ona ağacların canlı olduğunu, onların da insanlar kimi hiss etdiklərini, bir-biri ilə dost və ya küs olduqlarından danışardı. Kiçik Əjdər eşitdiklərinə uşaq məsumiyyəti ilə inanır, onları reallıq kimi qəbul edir, bəzən tək qalanda gizlicə babasından xəbərsiz ağaclarla danışmağa, onlarla söhbət etməyə cəhd edirdi. Ağacların onunla danışmamasını isə onların başqa dildə danışması ilə izah edirdi.

O, bağdakı şirin meyvələri özünə dost seçmişdi, turşməzələrlə arası bir o qədər yaxşı deyildi. Bağa girən kimi dost seçdiyi ağacların yanına qaçır, onlara salam verir, sanki onlardan da salam alırdı. Bəzən hər biri ilə qısa da olsa söhbət edirdi. Onların budaqları ilə oynayır, yarpaqlarını sığallayır, onlara olan münasibətini belə ifadə edirdi. Ona elə gəlirdi ki, ağaclar onu eşidir, amma öz dillərində cavab verir.

Havada azacıq meh olanda ağacların yarpaqlarından sirli səslər gəlirdi. Əjdər bunu ağacların bir-biri ilə söhbət etməsi kimi başa düşürdü. O çox istəyirdi ki, onlar onunla da danışsın, amma onların dilini bilmədiyindən heç nə anlamırdı.

Bərk küləkli havada ağacların budaqları qəzəblə bir-birinə dəyirdi. Əjdərə elə gəlirdi ki, ağacların arası dəyib, onlar bir-biri ilə savaşırlar. Bəzən hətta dostlarına kömək etmək məqsədilə onların arasına girirdi, amma külək kəsənə kimi ağaclar sakitləşmir, bir-biri ilə vuruşmaqda davam edirdi.

Babası ağacları sulayanda Əjdər onların necə su içməsini öyrənmək məqsədilə dəqiqələrlə gözlərini onlara dikirdi. Su ağacların dibindən torpağa hopanda Əjdərə elə gəlirdi ki, ağacların ağızları torpağın altındadır, ona görə su yerin altına sorulur. Babası ağacları gübrələyəndə ona elə gəlirdi ki, gübrə ağacların yeməyidir. Yəqin acıblar ki, babası onlara yemək verir. Bəzən babası əlində qayçı ağacları budayanda ona elə gəlirdi ki, babası ağacların dırnağını tutur, saçlarını qaydaya salır. Bağ dərmanlananda isə ağacların xəstələndiyini və babasının onları sağaltmaq istədiyini düşünürdü.

Bir sözlə, Əjdərin gözündə bağda hər şey insanlaşmışdı. O, bu barədə heç kimə sirr vermirdi, hətta babasına belə. Babası Əjdərin ağaclarla insan kimi ünsiyyətə girmək cəhdinə uşaqlığın təzahürü kimi baxırdı, baxmayaraq ki, bəzən bu o qədər ciddi xarakter alırdı ki, babası hətta bundan narahat olur, uşaqda psixoloji problem olması fikrinə düşürdü.

Sonralar Əjdər böyüdü, məktəbə getməyə başladı. Artıq babası da əldən düşmüşdü, bağçılıqdan əl çəkmişdi. Əjdərin də bağa getməyə vaxtı və həvəsi qalmamışdı. Amma bağla bağlı təsəvvürləri onu bir an da tərk etmirdi.

Bir dəfə ədəbiyyat müəllimi Füzulinin “Meyvələrin söhbəti” adlı əsəri haqqında danışmağa başlayanda Əjdər yenidən uşaq vaxtı yaşadığı psixoloji təcrübəyə qayıtdı. O, Füzulinin şeirini metafora kimi yox, real təsvir kimi qəbul etmişdi. Ona elə gəlirdi ki, Füzuli meyvələrin dilini bilib, onlarla danışıb, ona görə bu əsəri yaradıb.

Məktəbdə botanika dərsi keçməyə başlayanda Əjdər bağda keçirdiyi vaxtlara qayıdır, uşaqlıq təsəvvürlərini aldığı elmi bilgilərlə əlaqələndirir və özü-özündə yenidən qeyri-adi psixoloji hala düşürdü. Ona elə gəlirdi ki, bitkilərlə bağlı verilən bilgilər əslində insanlar haqqındakı məlumatlarla eynidir. Hətta özünü inandırmışdı: vaxt gələcək elə cihazlar kəşf olunacaq ki, insanlar bitkilərlə ünsiyyətə girib onlarla danışa, onlardan əlavə bilgilər əldə edə biləcəklər.

Əjdərin bu cür fantastik fikirləri dostları tərəfindən qeyri-ciddi, gülüşlə qarşılanırdı, amma o özünü buna qəti surətdə inandırmışdı.

Məktəb illəri ali təhsil illəri ilə əvəz olundu. Universitet illərində də Əjdər özünün psixoloji durumunu – bitki aləminə münasibətini hamıdan gizlədə bilmişdi. Nəhayət, Əjdər pedaqoji universiteti əla qiymətlərlə başa vurub orta məktəbdə ibtidai siniflərə dərs deməyə başladı.

Əjdər müəllim ilk dəfə sinfə girəndə ona elə gəldi ki, o vaxt babasının onu ilk dəfə apardığı bağa girir və özünü bağban, sinfi bağ, uşaqları isə yenicə əkilmiş ağaclar kimi görməyə başlayır. Əjdər müəllim nə qədər çalışsa da, reallıq aləminə qayıda bilmirdi, buna görə də taleyi ilə barışmışdı. Sadəcə öz təsəvvürlərini başqalarından gizlətməkdən başqa yol görmürdü.

O dərs deyəndə sanki bağa ümumi qulluq edən bağban kimi, uşaqlardan dərs soruşanda hər bir ağacdan bar gözləyən bağban kimi davranırdı. Bəzən dərsi mənimsəməkdə çətinlik çəkən uşaqlara xüsusi vaxt ayırıb onlarla məşğul olanda ona elə gəlirdi ki, o, bağda yaxşı inkişaf etməmiş ayrı-ayrı tinglərə xüsusi qulluq edir, bəzisinin gübrəsini artırır, bəzisinin suyunu bol edir. Hətta bəzən uşaqları cəzalandıranda ona elə gəlirdi ki, bağda zərərvericilərə qarşı dərmanlamanı həyata keçirir.

Təbaşiri ağacların dibini boşaltmaq üçün istifadə edilən kürək kimi, qələmi calaq aləti kimi, dəftər-kitabı hər bir ağac haqqında xüsusi məlumat kitabçası kimi görürdü. Əjdər müəllim bu hisslərdən heç cür xilas ola bilmirdi. Müəllim yoldaşları Əjdər müəllimin qəribəliyini ilk gündən hiss etmişdilər. Amma onun təhsildə yüksək nailiyyət əldə etməsi qarşısında bu qəribəlik arxa plana keçmişdi.

O, uzun illər orta məktəbdə ibtidai sinif şagirdlərinə dərs demiş, oynamaqdan və dəcəllik etməkdən başqa bir şey bilməyən körpələri səbirlə elmin qapısına gətirmiş, onları tərbiyələndirərək gələcək vətəndaşlığa hazırlamışdı. Dərs dediyi şagirdlərin sırasından böyük alimlər, siyasi xadimlər, sənətkarlar çıxmışdı. O, hər bir şagirdinin nailiyyətində özünün payı olduğunu düşünür və bununla fəxr edirdi.

O həmişə deyirdi ki, heç bir müəllim uşağa istedad verə bilməz, amma həqiqi müəllim uşaqlarda gizli olan istedadı üzə çıxara, onu parıldadıb nizama sala və həmin uşaqdan cəmiyyətə layiqli mütəxəssis və vətəndaş yetişdirə bilər. O, özlüyündə bunu bağbanın barlı ağaca qulluq edib bol məhsul alması kimi görürdü. Ona görə müəllim bir bağbanın bütün ağaclara qulluq etdiyi kimi bütün uşaqlara eyni diqqət və səy göstərməlidir. Nəticənin isə daha çox uşaqların istedadından asılı olduğunu qəbul edirdi.

İllər sürətlə bir-birini əvəz edirdi. Əjdər müəllim o qədər işinə aludə olmuşdu ki, təqaüd vaxtının çatdığının belə fərqinə varmırdı. Artıq Əjdər müəllim təqaüdə yola salınırdı. Yaxın münasibətdə olduğu müəllim yoldaşları tez-tez "Təqaüdə çıxandan sonra nə işlə məşğul olacaqsan?" – deyə soruşurdu. Əjdər müəllim isə "Hələ bir fikrim yoxdu," – desə də, qəlbində yalnız bağbanlıq edəcəyini qət etmişdi. Ona elə gəlirdi ki, müəllimlik peşəsi ilə bağbanlıq əkiz qardaşlar kimidir. Əjdər müəllim hətta bir anlığa təqaüdə çıxmasına sevinmişdi belə. İndi o bilavasitə bağbanlıqla

məşğul olacaq, uzun illər heç kimə açıb deyə bilmədiyi, ona əzab verən məktəblə bağlı təsəvvürlərinin bağbanlıqla yanlış assosiasiya edilməsindən xilas olacaq və reallıq aləmində yaşaya biləcəkdi.

Amma Əjdər müəllim işləmək üçün bağa girdiyi ilk andan gözlədiyinin əksinə yenə də irreallığa yuvarlandı. Bu dəfə tərsinə – onun gözündə bağ sinif, ağaclar isə uşaqlar kimi görünməyə başladı.

İndi də Əjdər müəllim hər bir ağaca uyğun olaraq ya qız, ya oğlan adı vermişdi. Əjdər müəllim ağacları küləkdən qorumaq üçün bağın şimal tərəfində qovaq və söyüd ağacları əkmişdi. Gözü həmin ağaclara sataşdı. Onları mənimsəmə qabiliyyəti çox aşağı olan, istedadsız, həmişə arxa partada oturub dərsə diqqət etməyən, fürsət düşən kimi şuluqluq salaraq digər uşaqların da diqqətini dərsdən yayındıran problemli uşaqlar kimi görürdü. Buna görə də tez-tez qovağa və söyüdə irad tutur, onların sürətlə qolbudaq atıb başqa ağacları sıxışdırmasının qarşısını almaq məqsədilə budayırdı. O bunu bu cür ağaclara verilən cəza – düzgün tərbiyə üsulu kimi həyata keçirirdi. O yaxşı bilirdi ki, nə qədər zəhmət çəkib qulluq etsə də, bu ağaclar bar verməyəcək. Onlara ayırdığı vaxta heyifsilənirdi. Bu ağaclar istedadsız uşaqlara oxşayırdı – nə qədər çalışsan da bilik əldə etməkdə irəli gedə bilmirdilər.

Əjdər müəllim taleyi ilə barışmışdı. İndi o bağa girəndə özünü yenidən sinif otağına girən müəllim kimi hiss edirdi. Özündən asılı olmayaraq bağ üçün jurnal tərtib etmiş, bu jurnalda hər bir ağacı onlara verdiyi insan adları ilə qeyd etmiş, onların əkilmə tarixlərini – anadan olma tarixi kimi, tinglərin alındığı yeri – onların doğum yeri kimi, bağdakı sıralarını – ünvanları kimi və hər il nə qədər bar verməsini – mənimsəmənin qiymətləndirilməsi kimi ifadə etmişdi.

Bir qayda olaraq hər gün səhər saatlarında bağa gələn Əjdər müəllim əvvəlcə ümumi şəkildə bağa göz gəzdirir, hər bir ağacın

öz yerində olub-olmamasını yoxlayırdı. O bunu məktəbdə uşaqların davamiyyətinin yoxlanması kimi qavrayırdı. Məktəbdən fərqli olaraq bağda dərsdən yayınma halları demək olar ki, yox idi. Bütün ağaclar dərs başlayan kimi öz yerlərində olurdu. Ona elə gəlirdi ki, o bağa girəndə bütün ağaclar ayaq üstə qalxıb onu salamlayır, o da uca səslə onların salamını alır və "Otura bilərsiz," – deyib jurnalı açırdı.

Sonra jurnal əsasında hər bir ağacın yanına gedir, onun vəziyyətini – xəstəliyini, mineral və ya vitamin çatışmazlığını, tələb olunan qulluq növünü xüsusi qrafaya qeyd edirdi. Bir dəfə adəti üzrə bağa girəndə gözünə armudun budaqlarının alma ağacının üzərinə doğru uzanması dəydi. O bunu oğlan uşağının qız uşağına doğru meyillənməsi kimi qəbul etdi. Ürəyində: "Vaxt gələr bir-birinizə yaxınlaşarsız, amma indi tezdir, olmaz. Əsas diqqəti dərsə vermək lazımdır," – deyib əndazəsini aşmış armudun budağını ehtiyatla kəsib yerə atdı.

O, bağdakı calağa məktəb illərində bir-birini sevən sevgililərin evləndirilməsi kimi baxırdı və hər dəfə bağda calaq edəndə bağa maqnitofon gətirir, xoşuna gələn musiqini uca səslə səsləndirir və həmin musiqinin sədaları altında calağı başa çatdırır, sonra hər iki ağacı təbrik edir, onlara bol meyvəli – oğullu-uşaqlı olmağı arzu edirdi.

Məhsul dövrü başlayanda hər bir ağacı verdiyi məhsula görə qiymətləndirir, çox bar verənləri tərifləyir, az bar verən ağacın yanına gəlib onları danlayır, nə üçün az bar verməsi ilə bağlı onları sorğu-suala tuturdu. Ona elə gəlirdi ki, hər bir ağac uşaq kimi ona öz problemini açıb deyir. Bir ağac az su içdiyini, digəri gübrə çatmadığını, üçüncüsü küləyin onun barını puç etdiyini, dördüncüsü yerinin sıx olduğunu, beşincisi xəstə olduğunu deyirdi. Əjdər müəllim də səbirlə deyilənlərin doğruluğunu yoxlayırdı. O təcrübəsindən yaxşı bilirdi ki, bəzi ağaclar tənbəllik etdiyindən bir il çox,

bir il az bar gətirir. O, hər bir ağacı dinlədikdən sonra onların yaxşı bar verməsi üçün lazım olan köməkliyi edirdi.

Qonşular səliqə ilə geyinmiş, əlində portfel bağa gedən Əjdər müəllimi görəndə çox təəccüblənirdilər. Hətta bəzən bağın yaxınlığından keçən adamlar Əjdər müəllimin ağaclarla ucadan danışdığını, bəzilərini danladığını, bəzilərini tərifləyini eşidir və onda psixoloji problem yarandığını düşünürdülər.

Əslində Əjdər müəllim üçün heç bir qeyri-adilik yox idi. O özünü psixoloji olaraq tam sağlam hiss edirdi. Sadəcə o, müəllimlik peşəsi ilə bağbanlıq peşəsini özündə elə birləşdirmişdi ki, hər iki peşə bir peşəyə çevrilmişdi. Nəticədə əmək fəaliyyətində psixoloji olaraq spontan və avtomatik şəkildə bir peşədən digərinə keçirdi. Əjdər müəllim hər iki peşəyə eyni dərəcədə vurğun və hər iki peşəni eyni mükəmməllikdə mənimsədiyindən sürəkli olaraq psixoloji səviyyədə peşə metamorfozasına məruz qalırdı…

SVİNQERLƏR ALƏMİ

Onlar hər ikisi – Kamran və Namiq tanış olarkən təsadüfən eyni instituta daxil olduqlarını öyrənmişdilər. Bir-birindən uzaq rayonlarda doğulsalar da, təhsil almaq niyyətləri onları eyni bir yerə, paytaxta gətirmişdi. Hər ikisi hündürboylu, yaraşıqlı idi. Hər ikisinin də özündənrazılığı açıq şəkildə sezilirdi. Hər ikisi səliqəli və dəblə geyinməyi sevirdilər. Kənardan baxanda imkanlı ailənin uşaqları olduğu bilinirdi. Bütün bu oxşarlıqlara görə çox tez dil tapdılar. İlk görüşdən köhnə dostlar kimi davranmağa başladılar. Hətta bir mənzil kirayələyib orada birlikdə yaşamağa qərar verdilər.

Yeni dostların "xobbi"ləri də demək olar ki, eyni idi. Hər ikisi "qızbaz" idi. Buna baxmayaraq, həm də özlərini çox qısqanc kimi bir-birinə tanıtmağa cəhd edirdilər. Təsadüfi tanış qız "dostları"na belə başqalarını qısqanırdılar. Öz aralarında xüsusi jarqonla danışırdılar ki, başqaları onları anlamasın. Qızlara "ov", qız tovlamağa "tilov atmaq", qız ələ almağa "tilova düşmək", qızlarla intim yaxınlığa "ovunu parçalamaq" və s. kimi ifadələr tapmışdılar.

Dostlar boş vaxt tapan kimi şəhərin ən məşhur parklarına, bulvara, mərkəzi küçə və meydanlara gəzməyə gedirdilər. Məqsədləri də özlərinin dedikləri kimi "ov etmək" olurdu. Qarşılarına çıxan, yanlarında oğlan olmayan xoşagəlimli qızlara söz atmadan keçmirdilər. Bəzi qızlardan iltifat görən kimi dərhal işə keçirdilər; tanış olur, onları gəzməyə və ya yeməyə dəvət edirdilər. Bir çox hallarda onları yatağa da sala bilirdilər. Aralarında heç bir gizlilik yox idi. Tanış olduqları qızlarla harada və necə əyləndiklərini təfərrüatlarına kimi bir-birinə danışırdılar və bundan da zövq alırdılar. Onlar özlərini əsl "kişi" hesab edirdilər.

Dostlar çox vaxt birlikdə "plan" qurur və ikilikdə "ova" çıxırdılar. Bəxtləri gətirən günlərdə olurdu, gətirməyən də... Bəzən dördlükdə vaxt keçirməyin fürsətini yaxalayırdılar. Bu cür qrup əyləncəsini "iclas" kimi kodlaşdırmışdılar. Dostlar bir-birinə çox isinişmişdilər. Hər ikisi varlı ailədən çıxdıqlarından pul problemləri yox idi; bir-birinə əvəz gözləmədən əliaçıqlıq edir, pul xərcləyir, bir-birinə arxa olurdular. Hətta çox vaxt biri özünə dəbdə olan paltar alanda dostunu da unutmurdu. Onlar bir-birinə olan əvəzsiz münasibətləri ilə fəxr edir və bunu əsl kişilik nümunəsi kimi başqalarına nümayiş etdirməkdən həzz alırdılar. Əvəzləşməni kişiliyə zidd hərəkət hesab etmələri ilə özlərini öz gözlərində böyüdürdülər.

Bir dəfə dostlar arasında svinqerlər haqqında söhbət düşdü. Svinqerlər – seks partnyorlarını bir-biri ilə dəyişdirərək seksual həyat yaşayan ailələrə deyilir. Hər iki dost eyni fikirdə idi; bu cür insanları cəmiyyətdən təcrid etmək lazımdı. Hətta bunu biqeyrətlik hesab etdiklərindən, millətin adına yaraşmayan hərəkət olduğunu deyib uzağa gedərək belə insanları məhv etmək lazım gəldiyi qənaətinə varmışdılar. Gənclər Azərbaycanda belə bir hadisənin ola biləcəyinə inanmırdılar. Onlar belə hadisələrin ancaq "əxlaqsız" Qərbdə ola biləcəyini düşünürdülər.

İş elə gətirdi ki, hər iki dost ikinci kursa keçəndə nişanlandılar. Dostlar nişanlıları haqqında bir-birinə çox da geniş bilgi vermədilər. Sadəcə Kamran nişanlısının Konservatoriyada, Namiq nişanlısının Tibb Universitetində oxuduğunu deməklə kifayətlənmişdi. Günlər sürətlə keçirdi. Dostlar yalnız nişanlıları ilə vaxt keçirəndə bir-birindən ayrılırdılar. Onlar bir-biri ilə dost olsalar da, qızların qəlbini ovlamaqda həm də gizli rəqiblər kimi davranırdılar. Biri çox gözəl qızı qarmağa salmağı bacaranda digəri üzdə olmasa da, ürəyində dostuna həsəd aparırdı. Narahat olurdu ki, niyə onun yerində deyil. Bəlkə də buna görə nişanlılarını bir-birinə tanış etmə-

yə tələsmirdilər. Hər ikisində olan qısqanclıq da burada az rol oynamırdı. Amma üzdə vaxt tapıb dördlükdə vaxt keçirməyin vacibliyini bir-birinə sübut etməyə çalışırdılar.

Günlər bir-birini qovur, fəsillər bir-birini əvəzləyir, onlar da tanış qızlarını dəyişdirməkdə davam edirdilər. Kim daha çox qızla tanış ola və fırlada bilər məsələsində öz aralarında yarışmağa başlamışdılar. Kim daha çox qız əldən keçirəcək? Dostlar hər bir yeni qızla tanışlığı "şad xəbər" ifadəsi ilə kodlaşdırmışdılar. Öz aralarında biri "Məndə şad xəbər var" deyəndə digəri anlayırdı ki, dostu yeni qız tapıb.

Dostlar heç vaxt gəzdirdikləri qızların kiminsə qızı, kiminsə bacısı, kiminsə nişanlısı olması haqda düşünməmişdilər. Onlara elə gəlirdi ki, bu qızlar həyatda tək-tənhadırlar. Onlar ancaq oğlanların keçici əyləncələri üçün yaradılıblar. Hətta çox vaxt məşhur bir mahnının "Allah qızı yaradıb oğlan subay qalmaya" misrasını "Allah qızı yaradıb oğlan bekar qalmaya" kimi zümzümə edirdilər. Bəzi mahnı sözlərini isə daha açıq-saçıq ifadələrlə dəyişərək öz aralarında oxuyurdular. Hətta bəzən bu qədər "sahibsiz" qızın haradan meydana çıxması ilə bağlı bir-biri ilə uzun-uzadı filosofluq edirdilər. Özlərinin qızbaz olmaqlarına baxmayaraq, öz uzaq qız qohumlarından kiminsə yolunu azacağı təqdirdə mütləq öldürəcəklərinə bir-birini inandırmağa çalışırdılar.

Günlər bir-birindən maraqlı və əyləncəli keçirdi. Növbəti dəfə hər iki dost bir-birinə "şad xəbər" verdi. Kamran Tibb Universitetində oxuyan bir qızla, Namiq Konservatoriyada oxuyan bir qızla tanış olmuşdu. Hər ikisi yeni ovlarından ağızdolusu danışır, demək olar ki, çox vaxt hər biri ayrı-ayrılıqda öz təzə sevgililəri ilə vaxt keçirirdilər. Əslində dördlükdə vaxt keçirməyi həm qızlar istəməmişdi, həm də dostlar özləri. Qızlar bu cür münasibətin çox gizli saxlanması üçün bunu istəmirdi. Dostlar da qorxurdular ki, qızlar onlarla eyni yerdə oxuyan nişanlıları ilə tanış çıxa bilər və

onların macəralarının üstü açılar. Buna görə yersiz problem yaranmasını istəmirdilər. Ona görə başları ağrımasın deyə bir-birinin yeni sevgilisindən özünü gizlətmək istəyirdi. Sadəcə hər dəfə görüşdən gələndə bir-birinə məhəbbət sahəsində nə qədər məsafə qət etmələri haqqında bilgilər verirdilər.

Nəhayət, bir aydan sonra dostlar yeni sevgililəri ilə yataq macəralarını bir-biri ilə bölüşdürməyə başladılar. Dostların yeni sevgi macəraları qurtarmaq bilmirdi. Hər ikisi vaxtının çoxunu yeni ovları ilə keçirirdilər. Təsadüfi tanışlıqdan qaçmaq üçün yaşadıqları mənzillərini qrafik əsasında istifadə edirdilər. Hər kəs öz günündə mənzildən istifadə edir, dostunun növbəsində isə ondan xəbər gəlməyənə kimi evə qayıtmırdı. Bu üsul onların bir-birinin əyləndikləri qızları görməsinə imkan vermirdi. Qızlar yavaş-yavaş açılışmağa başlayırdı. Nəhayət, hər ikisi bir-birindən xəbərsiz dördlükdə vaxt keçirməyə razılıq verdi. Dostlar da artıq heç bir təhlükə hiss etmirdilər. Yeni dostlarının ağzıbütövlüyünə əmin olmuşdular.

Dostların uçmağa qanadı yox idi. Əvvəla, bir-birinin fırlatdığı qızı görüb kimin "qızı" yaxşıdır sualına cavab alacaqdılar, həm də birgə vaxt keçirməyin ləzzətini tutacaqdılar. Dostlar öz aralarında belə bir plan cızdılar: onlar evdə qalıb yemək-içmək hazırlasınlar, qızlar özləri eyni vaxtda onlara qonaq gəlsinlər. Qızların gələcəyi vaxt daraldıqca dostları həyəcan basırdı. Nədənsə hər ikisini qəribə bir narahatçılıq hissi bürümüşdü. Hətta bir müddət peşmançılıq hiss etməyə başladılar. Sanki hansısa pis bir hadisə baş verəcəkdi. Dostlar "Qızlar gələnə kimi adama yüz qram içmək pis olmaz" deyib həyəcanlarını basdırmaq üçün bir az içdilər. Artıq həyəcanları öz yerini marağa verməyə başladı. Dumanlı başlarında "Kimin 'qızı' daha gözəl olacaq?" sualından başqa heç bir fikir qalmamışdı.

Hər iki dost öz "ovunun" daha yaxşı olmasını istəyirdi. Dostlar arasında sezilməyən bir rəqabət baş qaldırmışdı. Nəhayət, deyilən vaxtda qapının zəngi çalındı. Dostlar sevinclə birlikdə qapıya cumdular. Qapı açılanda dostlar ildırım vurmuş insanlar kimi yerlərində donub qaldılar. Gələnlər Kamranla Namiqin nişanlıları idi. Sadəcə Kamranın nişanlısı Namiqin "ovu", Namiqin nişanlısı Kamranın "ovu" kimi görüşə gəlmişdilər. Sən demə, onlar uzun müddətdir ki, bir-birinin nişanlısı ilə əylənirmişlər. Svinqerlər haqqında ən kəskin mənfi fikirdə olan gənclər özlərinin uzun müddətdir svinqerlər aləmində yaşadıqlarının fərqinə varmışdılar, amma artıq çox gec idi. Sən demə, bir-birinə əvəzsiz xidmət edən dostlar uzun müddətdir ki, "ov" məsələsində əvəzləşirmişlər. Hər şey çoxdan – ilk dəfə "ova" çıxdıqları, sahibsiz hesab etdikləri qızları tovlamağa başladıqları andan başlamışdı. Sən demə, həyatda sahibsiz heç bir fahişə yox imiş; onlar adsız kimlərinsə anası, kimlərinsə bacısı, kimlərinsə arvadı və ya nişanlısı imiş.

III HİSSƏ

“YAŞAMAĞA UTANANLAR”

Bu hissə kitabın zirvəsidir. Burada qəhrəmanlıq, şə-hidlik, ləyaqət, vicdan, şərəf və ölümün mənası ən yüksək fəlsəfi səviyyədə açılır.

YAŞAMAĞA UTANANLAR!

(Ailəmin şəhidlərinə elegiya)

Sən yanmasan,
Mən yanmasam,
Necə çıxar qaranlıqlar aydınlığa?!

Nazim Hikmət

Böyük mütəfəkkir, humanizmin görkəmli nümayəndələrindən biri Hötenin "Şərəfli ölüm mümkün olduğu yerdə şərəfsiz yaşamaq nahaqdır" fikri orta məktəb dövrlərindən yadımda qalıb və zaman-zaman bununla Hötenin nə demək istədiyini anlamağa çalışmışam. Görünür, Höteni bu sözləri deməyə məcbur edən çoxlarının şərəfli ölüm olan yerdə şərəfsiz yaşamağa üstünlük vermələri olmuşdur. Sonralar buna oxşar bir aforizmi də eşitmişdim: "*Ölüm var ki, həyat kimi dəyərli, həyat var ki, ölümdən də betərdir*". Bu fikirlə Hötenin fikirləri mənaca eyni olub, yalnız deyilişinə görə fərqlənir. Biz şərəfli ölüm olan yerdə şərəfsiz yaşamaq istəməyənlərə qəhrəman və ya şəhid deyirik.

Dinc demokratik mübarizə fəlsəfəsini yaradanlardan biri, yazıçı-mütəfəkkir S. Sveyqin şəhidlər haqqında çox düşündürücü fikri var:

> *"Əgər birisi döyüş meydanında qəhrəmancasına vuruşur, çoxlu yara alıb düşmən qarşısında yerə yıxılır, amma sonra bütün ağrılarına rəğmən son gücünü toplayıb düşmənə zərbə vurmaq istəyir, lakin vura bilməyib ölürsə, o, məğlub yox, qəhrəmandır".*

Buradan da aydın olur ki, ölümdən ölümə fərq var. Hər ölüm məğlubiyyət deyil. Sveyqin dediyi kimi, bəzi ölümlər qəhrəmanlı-

ğa bərabər qələbədir. Bu cür qələbələr haqqında deyirlər: “Bəzi məğlubiyyətlər qaliblərdə qibtə hissi yaradır”. İstər-istəməz düşünməli olursan: necə ola bilər ki, bir adam məğlub olur, amma onun məğlubiyyəti ona qalib gələndə həsəd, qibtə hissi yaradır? Şəhidlər məhz bu cür məğlub olanlardandır ki, fani həyatı itirib əbədi dirilik əldə edərək fani həyat qazanan qaliblərdə qibtə hissi yaradır.

Bütün canlılar, o cümlədən bütün insanlar yaşamağa, amma bəzi insanlar ölümə can atır. Bu da paradoksal görünə bilər. Necə ola bilər ki, bəzi insanlar bütün canlılara, o cümlədən bütün insanlara xas olan təbii meyldən – yaşamaq cəhdindən imtina edib ölümə can atırlar? Ölümə cəhd də iki cürdür. Heç bir məqsəd güdməyən, ideyasız ölümə cəhd – intihar kimi günahdır və belə insanlar Allah qarşısında böyük günah edir, insanlarda özləri ilə bağlı böyük bir sual işarəsi qoyaraq bu dünyanı tərk edirlər. Amma məqsədli şəkildə, bəlli bir ideya ilə ölümə cəhd edənlər Allah qarşısında ən böyük məqama, insanlar arasında ən böyük hörmətə layiq olurlar. İnsanların məqsədəyönlü və ideya əsasında döyüşməsi cihaddır. Cihad – ilahi ədalət axtarışının başlanğıcı, qazilik – cihadın mükafatı, şəhidlik isə zirvəsidir. Zirvəyə gedən yol cihaddan – ədalətsizliklə ədalət uğrunda, ədalətli müharibələrdən keçir. Ədalətli müharibə sənin zorla cəlb edildiyin müharibədir. Belə müharibəni qəbul etməmək qorxaqlıqdır və sonu köləlik, rəzillikdir. Buna görə cihad cəsurluq və rəzillikdən xilas olma yoludur. Cihad cəmiyyət uğrunda vuruşmaqdır.

İnsanın cəmiyyətdəki yerini onun ləyaqət və şərəfi müəyyən edir. Ləyaqət bir insanın özünün özünə verdiyi dəyərdir ki, həyatı bahasına o dəyəri qorumağa cəhd edir. Şərəf isə bir toplumun fərdə verdiyi qiymətdir ki, birisi öz ləyaqətini qorumağa cəhd edərkən qazi ya da şəhid olduqda bu qiyməti almış olur. Buradan da aydın olur ki, şərəf ilə ləyaqət vəhdət təşkil edir. Ləyaqətsiz insan

şərəfli, şərəfli insan ləyaqətsiz ola bilməz. Ləyaqət bir insanın özünü nə dərəcədə insan kimi dərk etməsi və başqalarının da ona məhz o dərəcədə insan kimi yanaşması tələbi, istəyi kimi təzahür edir. Ləyaqətsiz insan mənən ölüdür ki, onun diriliyi bir heyvanın diriliyindən fərqlənmir. Buna görə öz ləyaqətini yüksək tutanlar şərəfli ölüm olan yerdə şərəfsiz yaşaya bilmirlər, ölümə can atırlar. O adamlar ki, şərəfsiz yaşamaqdan abır edər, utanar, elələri şərəfli ölümə can atır. Yaşamaqdan utananlar ölməkdən qürur duyurlar. Belələrinə biz ya qazi, ya şəhid deyirik. Şəhidlik qaziliyin övladıdır. Hər bir qazilik hekayəsi bir şəhidlik dastanının bir səhnəsidir. Şəhidlik qaziliyin davamıdır, onun sonudur, yəni oğludur. Qazilik isə şəhidliyin əvvəli, onun başlanğıcı, yəni atasıdır. Əvvəl və Son. Əvvəl – qazi, Sonra – şəhid.

Şəhidliklə şahidlik oxşar sözlərdir. Biri fəda olan, o birisi o fədakarlığı təsdiq edəndir. Hər bir şəhid bir qaziliyin şahidliyi, hər bir qazi isə bir ləyaqətin şahidliyidir. Hər bir ailə, hər bir el də öz qazisinin və şəhidinin şahididir. Mənim ailəm əvvəl qaziliklə, sonra şəhidliklə tanış oldu. Biz bir ailə, bir tayfa və bir el olaraq qaziliyin nə, şəhidliyin nə olduğunun şahidiyik.

ÜRƏYİ DÖZMƏYƏNLƏR

"Əsli və Kərəm" dastanından bir epizod yadıma düşür. Kərəm lələsi ilə Ərzuruma çatanda lələsi görür ki, hər tərəf boran, qardır, yol olduqca təhlükəlidir. Ona görə Kərəmə Əslinin arxasınca getməkdən imtina etməyi və geri qayıtmağı tövsiyə edir. Onda Kərəm cavab olaraq aşağıdakı misraları deyir:

Ərzurumun gədiyinə varanda,
Onda gördüm bürəm-bürəm qar gəlir.
Lələm dedi: "Gəl qayıdaq bu yoldan",
Dedim: "Lələm, namusuma ar gəlir".

Doğrudan da, çətinlikdən qaçmaq, çəkinmək namuslu insan üçün ardır. Əsl kişi namusuna ar gələn hərəkəti etməz, namusunu ardan qoruyan kişi həyatı bahasına olsa da, doğru bildiyi yoldan geri dönməz. Hər cür çətinliyə dözər, bunun əksinə, arsızlığa dözməz.

Qazilik və şəhidlik də bir dözümsüzlük əlamətidir. Namusuna ar gəlməsinə dözümsüzlük. Şərəfsizliyə, məğlubiyyətə, ləyaqətsizliyə, ədalətsizliyə dözümsüzlük. Şəhidlik və qazilik ədalətsizliyə qarşı fərdi üsyandır. Fərdi səviyyədə qalib olanlar kollektiv məğlubiyyətə dözə bilmir. Belələri hamıdan fərqli olaraq, şərəfli ölümə şüurlu şəkildə can atır. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun vəsiyyəti bu mənada çox nümunəvidir. O, düşmənlə təklikdə vuruşmağa getmək qərarı aldıqdan sonra valideynlərinə belə bir vəsiyyət yazmışdır:

"Canım atam və anam, məndən sarı darıxmayın, inşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür. Allaha xatir bunu eləməliyəm. Ən azından ürəyim sərinlik tapar. İnşallah, şəhid olana kimi bu şərəfsizlərin üstünə gedəcəm. Şəhid olsam, ağlamayın, əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu eləməliyəm. Allah böyükdür, Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Bir insana ölümü bu qədər adiləşdirən, əvəzində yaşamağı dözümsüz edən hansı hiss ola bilər? Məncə, bu, ləyaqət hissidir. Bir insan kollektiv məğlubiyyəti qəbul etməyib özünü buna layiq hesab etmədikdə ləyaqət hissi onu Mübarizin vəziyyətinə salır. İnsan yaşamağa dözmür, ölümü könüllü qəbul edir. Əslində dinə görə şəhidlər, dünyəvi dəyərlərə görə qəhrəmanlar məhz fərdi ləyaqət hissi kollektiv məğlubiyyətlə barışmağa imkan verməyən insanlardır.

Mənim qazi qardaşım Əbdül və onun şəhid oğlu Rasim də xalqımızın özündən qat-qat gücsüz və rəzil düşmən qabağında ədalətsiz məğlub edilməsi ilə barışmadılar və cihad yolunu – əvvəli qazilik, sonu şəhidlik olan yolu tutdular. Bununla da öncə Allah, sonra Vətən, sonra da öz eli qarşısında bəndəlik, vətəndaşlıq və övladlıq borclarını canları ilə ödədilər. Borc hissi ləyaqətin göstəricisidir. O insanlar ki, şüurlu şəkildə öz borclarını dərk edir, onlar könüllü olaraq ölümə aparan cihad yolunu seçirlər. Belələri ölümün gözünə baxa-baxa ona doğru gedir və öz borclarını ödəmək fürsətini əldən vermirlər. Belələri Allahın razı qaldığı, Onun sevimli bəndələridir.

"VƏTƏN QORUMAQ, YOXSA GİZLƏNMƏK?"

Rusların bizə sırıdığı Koroğlunun adından deyilən igidlik haqqında belə bir deyim var: *"İgidlik ondu, doqquzu qaçmaq, biri gözə görünməmək (yəni gizlənmək)"*. Düşmən qabağından qaçmağı və ya onun gözünə görünməyib gizlənməyi igidlik hesab edənlərin nə ləyaqəti, nə vətəni ola bilər. Qurani-Kərimdə sayları yüz minlərlə olan insanların az saylı düşmənin qarşısından qaçmaları Allah-Taala tərəfindən qınanır. Koroğlunun vəsf etdiyi "igidlik" də məhz ilahi qınağa layiq bir davranışdır.

İnsan heyvanlardan fərqli olaraq seçim edən varlıq kimi yaradılmışdır. Hər bir insan anadan olandan ölənə kimi daimi olaraq hər an düzlə əyri, yaxşı ilə pis, halalla haram, savabla günah, igidliklə qorxaqlıq, ağıllılıqla axmaqlıq arasında seçim qarşısındadır. Seçim insanda ölçmək qabiliyyəti tələb edir. Hər bir insanın daxili tərəzisi onun vicdanıdır. Vicdan ləyaqətin təzahürüdür. Vicdanı olmayanın ləyaqəti olmaz. İnsanlar öz vicdanlarına uyğun seçim edirlər. Buradan da insanın seçimi onun vicdanının göstəricisi olur. Vicdan başqaları naminə özündən imtina etmək qabiliyyəti-

dir. Şəhidlər ən böyük vicdan sahibləridir. Onlar başqalarının həyatına görə öz həyatlarından imtina etməyi bacarırlar. Buradan aydın olur ki, şərəfli ölüm – bir bacarıq, şərəfsiz yaşamaq isə bir qabiliyyətsizlikdir. Allah-Taala bunu "Qorxmaq qabiliyyəti" kimi Qurani-Kərimdə təyin etmişdir. Allahdan qorxmaq bu dünyadakı bütün qorxulardan, o cümlədən ölüm qorxusundan çəkinməmək deməkdir. Buna görə Allahın yanında şəhidlər peyğəmbərlər və salehlərlə bir tutulur.

Vicdan insanın özü ilə müxalifətdir, onu düz yolda saxlayan, ədalətsizlikdən uzaqlaşdıran hissdir. Vicdanı olan insan ədalətsiz olmaz. Əslində insanı seçən varlıq kimi də təyin etmək olar. Ekzistensialistlər insanın kimliyini vəziyyətin müəyyən etdiyini iddia edirlər. Həqiqətən, vəziyyət ruhun lakmus kağızıdır. İnsanlar yalnız öz ruhi kimliklərini məhz xüsusi vəziyyətlərdə tam və aydın şəkildə təzahür etdirir. Ekzistensial boşluqda insanlara verilən heç bir qiymət düzgün ola bilməz. Müharibələr, ölüm qarşısında durmaq və ya könüllü olaraq ölümə doğru getmək insanların ruhi kimliyini aşkara çıxaran ən ciddi imtahandır.

Bizim ailə üçün şəhidlik və qazilik təzə bir hadisə deyil. II Dünya müharibəsində bir əmim, onlarla yaxın qohumumuz şəhid, atam və böyük əmim isə qazi olublar. Biz qaziliyin və şəhidliyin nə olduğunu onlardan öyrənmişik. Yəni bizim şəhidlik və qazilik məktəbimiz olub, biz o məktəbdə təhsil və tərbiyə almışıq. Atamın və əmimin müharibə sərgüzəştləri və onların vətən qarşısında öz borclarını necə ödəmələri ilə bağlı xatirələri bizim üçün bir dərs olub. Biz o məktəbdə əla oxumağa cəhd etmişik. Qardaşım Əbdül və oğlu Rasim isə sübut etdilər ki, onlar bu məktəbin ən əlaçı tələbələri imişlər.

Müharibə vaxtı böyük əmimlə bağlı həqiqətən baş vermiş və bizim kəndimizdə zərb-məsələ çevrilmiş belə bir hadisə olmuşdur: II Dünya müharibəsində üç qardaş – əmim Əsgər (qazi

əmim), Süleyman (şəhid əmim) və atam (qazi atam) birlikdə eyni yerdə, bir səngərdə vuruşmalı olublar. Atışma başlayan kimi müharibədə ilk dəfə iştirak edən və heç bir hərbi təlim görməmiş Əsgər əmim tüfəngini götürüb səngərdən çıxaraq atəş aça-aça almanlara tərəf qaçmağa başlayıb. Ondan kiçik əmim – ali təhsilli, fin müharibəsində iştirak edib təcrübə qazanmış, hətta igidliyə görə orden-medallarla təltif olunmuş zabit Süleyman əmim: "Qardaş, mıs (gizlən), almanlar vuracaq", – deyərək əmimi səngərə çəkmək istəyib. Əsgər əmim: "Axmaq oğlu axmaq! (bu, əmimin dillər əzbəri olan tək və yeganə söyüşü idi) Biz bura mısmağa (gizlənməyə) gəlmişik, yoxsa vətən qorumaya?" – deyə cavab verib. Bu söz ağzından çıxan anda əmim düşmən tərəfindən atılan atəşlə vurulub və yerə yıxılıb. Süleyman əmim səngərdən çıxıb ona kömək etmək istədikdə onu da vurublar. Sonra atam da eyni qaydada yaralanıb. Daha sonra atəş dayanandan sonra onları atəş sahəsindən çıxara biliblər.

Bəzilərinin bu hadisəni əmimin avamlığı hesab edib lətifə kimi söylədiyini eşidəndə çox düşünmüşəm. Axı niyə ölüm qarşısında olsa belə gizlənməyi ar bilib, vətəni qorumaq adına ölümə gedənə gülürük? Məncə, vətənini qorumaq əvəzinə gizlənənlərin yaşaması gülüş hədəfi olmalıdır. Mənim əmim öz borclarını ölüm təhlükəsi qarşısında belə göz qırpmadan yerinə yetirməyə cəhd edən bir qazi kimi hörmətə və sevgiyə layiqdir. Bizim nəslin kişiləri əmimlə fəxr etmiş və ona oxşamaq istəmişik. Biz də öz növbəmizdə düşmən qabağından qaçanlara, gizlənənlərə, öz borclarını verməkdən yayınanlara, şərəfsiz həyat yolu seçənlərə gülmüşük, həm də acıyaraq gülmüşük. Çünki bir millət olaraq bütün tarix boyu ən müxtəlif düşmən qarşısında məğlubiyyətimizin səbəbi məhz belələri olub.

YAŞAMAĞA UTANANLAR

Mən Hötenin məşhur fikrinə kiçicik bir düzəliş edərək onu belə ifadə edirəm: "Şərəfli ölüm olmayan yerdə ləyaqətli insanlar yaşamağa utanar". Əslində, bu mənim fikirləşib tapdığım bir aforizm deyil. Əksinə, bilavasitə təcrübədə şahidi olduğum bir hadisənin əqli mühakiməsidir. Bu aforizmi mən böyük əmimlə aramızda baş vermiş bir dialoq əsasında yazmışam. Sərlövhəyə çıxardığım "Yaşamağa utanıram" sözü də mənim rəhmətlik böyük əmim Əsgər kişiyə məxsusdur. Bu sözləri mən əmimdən eşitmişəm. Bəlkə də bu günədək eşitdiyim və kitablardan oxuduğum fikirlər içərisində mənim üçün bu sözlər qədər təsirli və düşündürücü mühakimə yoxdur.

İnsan necə yaşamağa utanar? Bu nə deməkdir? Əmimin üç oğlu vardı. Əmim oğlanları çox erkən – 30-35 yaşlarında, bir-birinin ardınca, bir neçə il ərzində müxtəlif xəstəliklərdən dünyalarını dəyişdilər. Əmim isə 95 yaşına çatmışdı. Övladları ilə arasındakı böyük yaş fərqi də təsadüf olmamışdır. Əmim II Dünya müharibəsinin ən dəhşətli döyüşlərində – Kerç uğrunda döyüşlərdə yaralanaraq əsir düşmüş və neçə illər müxtəlif faşist konslagerlərində əsir həyatı yaşayaraq hər cür əzab görmüşdü. Buna baxmayaraq, buz baltası kimi sağlam, olduqca nikbin, gülərüz, nurani, çox da imanlı – Allahına bağlı bir insan idi. Hər dəfə oğlanlarından biri öləndə Allaha şükür edir, bizi də şükür etməyə vadar edir və ağlamağa qoymurdu.

Axırıncı əmioğlu dünyasını dəyişdikdən bir qədər sonra əmimin xəstələndiyini və yatağa düşdüyünü eşidib onlara getdim. Əmimi hərtərəfli müayinə etdim. Səhhətində heç bir problem yox idi. Əmimə zarafatla: "Səndə heç bir xəstəlik yoxdur, niyə yatağa girmisən, deyəsən, biclik edirsən", – dedim. Əmim tam ciddi və çox sakit şəkildə: "Mən yaşamağa utanıram", – dedi. Mən onun bu sözündən çox təəccübləndim. İnsan nə üçün yaşamaqdan utana

bilər? Əmimdən: "Sən niyə yaşamağa utanırsan ki?" – deyə soruşdum. Əmim: "Mənim oğlanlarım belə gənc yaşlarına baxmayaraq ölüblər, mənim isə doxsandan artıq yaşamağıma insanlar üzümə deməsələr də, yəqin ki, arxada pis baxırlar. Ona görə də adam içinə çıxmağa utanıram. Özüm də ölə bilmirəm. Ona görə əcəlim çatana kimi yataqdan qalxan deyiləm. Özüm qəsdən əcəl yatağına girmişəm".

Mən onun bu sözlərindən çox narahat oldum. Onu anlayırdım, buna baxmayaraq, yanlış düşündüyünü və yanlış hərəkət etdiyini dedim. Amma o mənə qulaq asmadı. Əmim həmin yataqda daha bir neçə il yatdı. Heç vaxt yatağından qalxmadı və həmin yatağında da dünyasını dəyişdi. Mən həmişə əmimi düşünürəm: o, bir kişi kimi müharibədə – "Vətən qorumaya gedən gizlənməz" fəlsəfəsi ilə ölümün gözünə baxan, amma bir ata kimi övladlarından çox yaşadığına görə utanan və yatağında gizlənməyə üstünlük verən həqiqi ləyaqətli bir insan idi.

AĞAC KÖKÜ ÜSTƏ BİTƏR

Ağac kökü üstə bitər. Bizdən əvvəlki nəsillər bizim köklərimiz, biz isə onların budaqlarıyıq. Bizim kökümüz nədirsə, meyvəmiz də odur. Yalnız öz kökü üstə bitməyənlərin meyvələri dəyişik olur. Atam da, anam da ermənilərlə münaqişə başlayandan sonra bir dəfə də olsun bizə "müharibəyə getməyin" demədilər. Təkcə sözləri bu olurdu ki, özünüzü düşmən gülləsindən qoruyun.

1990-cı ildən başlayaraq Azərbaycanda erməni-rus hücumlarından qorunmaq üçün könüllü batalyonlar təşkil olunmağa başladı. Belə batalyonların birinə də mənim qardaşım Əbdül komandirlik edirdi. Biz ondan arxayın idik, çünki həm hərbi xidmətdə olmuşdu, həm də polisdə uzun müddət işlədiyindən döyüşmək qabiliyyətinə malik idi. Fiziki cəhətdən hazırlıqlı, çevik idi, hərbi işdən başı çıxırdı. Həmin illərdə Naxçıvanın Sədərək rayonu ermənilərin aramsız hücumlarına məruz qalırdı. Naxçıvan üçün ən təh-

lükəli yer məhz Sədərək tərəfi idi. Ermənilər çox asanlıqla oradan hərbi texnika ilə hücum edə bilərdilər. Buna görə də digər rayonların könüllü batalyonları növbə ilə Sədərəyə gedib orada vuruşurdular. Belə döyüşlərin birində düşmən xeyli itki verdikdən sonra qardaşım ağır yaralandı və 24 il yataqda iflic vəziyyətində yaşadı. Bu 24 ildə dörd dəfə klinik ölüm vəziyyəti keçirdi, bir gün olsun belə dərmansız, davasız olmadı. Yalnız təkərli kresloda hərəkət edə bilirdi. Başqalarının yardımı olmadan elementar tələbatlarını ödəyə bilmirdi.

Buna baxmayaraq, toydan-yasdan qalmazdı, ölkənin ictimai-siyasi həyatında iştirak edirdi. Hətta bir neçə dəfə seçkilərdə namizəd kimi iştirak etmişdi. Biz hamımız onun mətinliyindən dərs alırdıq. O, bir dəfə də olsun düşdüyü vəziyyətə görə peşmançılıq yaşamadı, təəssüflənmədi, kimisə qınamadı, dövlətə və xalqa minnət eləmədi, heç kəsdən, o cümlədən dövlətdən də minnət götürmədi. Öz haqqını yataqda belə aradı, məhkəmələrdə hüquqlarını bərpa etdi. Sanki belə də olmalı imiş kimi öz həyatını səbirlə, sakitliklə yaşamağa davam etdi. O, öz həyatı və davranışları ilə bir örnək oldu. Hamı onun həyatsevərliyinə, təmkin və səbrinə məəttəl qalırdı. Gənclər ondan qazilik dərsi alırdı və o da onlara kişilik dərsi verirdi. Çoxlarına ümid yeri idi. Hüquqları pozulanlar ondan kömək umurdu. O da yataqda olmağına baxmayaraq, hamının köməyinə çatırdı.

Qazi qardaşımın mənəvi təsirindən ailəmizdən bir neçə gənc hərbçi həyatını seçdi. Onlardan biri də onun ikinci oğlu Rasim idi. Rasim şüurlu şəkildə atasının yolunu seçərək hərbi akademiyada təhsil almış, sonra Milli Ordunun zabiti kimi şərəfli bir yol keçmişdir. 2016-cı ilin aprel ayında Qarabağ cəbhəsində gedən döyüşlərdə qəhrəmancasına vuruşub və cəbhədə də bir neçə əsgəri ilə birlikdə şəhid olmuşdur. Rasimin şəhid xəbəri eşidənləri sarsıtsa da, təəccübləndirmədi. Çünki Rasim atasının yolunu, demək

olar ki, təkrarlamışdır. Hər ikisi taqım komandiri vəzifəsinədək yüksəlmiş, hər ikisi könüllü olaraq döyüşlərdə iştirak etmiş və hər ikisi 40 yaşında biri ata – qazi, digəri oğul – şəhid olmuşdur.

Rasim şəhid olmamışdan iki həftə qabaq atasını ziyarət etmək üçün Naxçıvana getmişdi. Həmin vaxt atasının səhhətində ciddi problemlər meydana çıxmışdı. Rasim son dəfə övladlıq borclarını verərək atasının yenidən səhhətinə qovuşması üçün hər şeyi etmişdi. Atasından ayrılanda zarafatla demişdi: "Mən səndən də irəli gedəcəyəm". Hamı bunu zarafatla qarşılamışdı. Düşünmüşdülər ki, gənclik lovğalığı edir. Hətta atası: "Sən mənim yerişimi yeriyə bilməzsən", – deyə ona cavab vermişdi. Amma iki həftə sonra onun şəhidlik xəbərini alanda hamı həmin sözlərin nə demək olduğunu anlamışdı. Doğrudan da, Rasim dediyi kimi etmişdi. Qazi atasından bir addım irəli keçərək şəhidliyə çatmışdı.

YAXŞI BAŞLANĞICIN YAXŞI SONU

Belə bir deyim var: *"Hər işi yaxşı başlamaq olar, amma hər işi həmişə yaxşı başa vurmaq olmaz".* Burada Koroğlu yadıma düşür. Minlərlə insanı ətrafına toplayıb özünəməxsus "qəhrəmanlıq" dastanı yazan Koroğlu sonra döyüşməkdən imtina edir və ömrünü xış arxasında, əkinçilikdə başa vurur. Belələri həqiqi qəhrəman hesab edilə bilməz. Əsl qəhrəman sonunu qəhrəmanlıqla başa vurandır. Əvvəli qəhrəmanlıq, sonrası adiləşmiş həyat başqalarına nümunə ola bilməz. Qəhrəmanın sonu ya bilinməz olaraq nağıla çevrilməli, ya da ölərək nağıllaşmalıdır. Yalnız bu halda o, həqiqi qəhrəman hesab edilə bilər.

Rasimin şəhid xəbərini eşitdikdə ağlıma gələn ilk fikir "Qardaşım buna necə dözəcək?" oldu. Qohumların bir çoxunu Bakıda cənazənin Naxçıvana gətirilməsi üçün ayırdıqdan sonra, özüm bəzi qohumlarla Naxçıvana – cənazəni qarşılamaq və dəfni təşkil et-

mək, həm də qardaşımı bu ağır hadisəyə hazırlamaq üçün getdim. Evə girib qardaşımla görüşəndə onu tam bir sakit vəziyyətdə gördüm. O dərəcədə sakit idi ki, bu sakitlik məni qorxutdu. Bu qədər ağır bir itki qarşısında uyğun olmayan sakitlik heç də yaxşı əlamət hesab edilə bilməz. Mən özümü saxlaya bilmirdim. O mənə təsəlli verdi. Rasimin şəhid olması ilə bağlı bəzi suallar verdi, sonra da yas mərasiminə hazırlaşmağı tapşırdı.

Çox qəribə idi ki, təkcə özü sakit deyildi, həm də digər yaxın qohumlara təskinlik verirdi. Yadıma əmim düşdü. Onun da oğlanları öləndə hər dəfə bizə təskinlik verir və şükür etməyi tövsiyə edirdi. İndi də qardaşım özündən asılı olmayaraq eyni cür davranırdı. Hətta ona təsəlli verənlərə: "Şəhidlik böyük mərtəbədir, mən fəxr edirəm", – deyirdi. Bunda da haqlı idi. Yasın birinci günü dostumuz, şair Sabir Rüstəmxanlı mənə zəng etdi: "Səni təbrik edirəm, kaş bu hadisə bizim də başımıza gələydi", – dedi. Onda anladım ki, həqiqətən Rasimin şəhid olması bir bədbəxt hadisə yox, bir xoşbəxtlik imiş və buna görə qardaşım fəxr etməkdə haqlı imiş. O özü də vətən yolunda can verməyin nə demək olduğunu hamıdan yaxşı bilirdi. Rasimin şəhidliyi qardaşımın qaziliyinin 24-cü ildönümünə təsadüf etmişdi. Düz 24 il bütün nəslimiz qazi qardaşımın ağrısı ilə yaşamışdıq. İndi isə şəhidlik ağrısını daşımağa məhkum olmuşduq və hamı bacardığı qədər bu ağır yükü bölüşdürməyə cəhd edirdi. Çünki bir ailədə bir qazi və bir şəhid yükünü daşımaq insan gücündə deyildi.

Yasın gedişində tez-tez qardaşıma baş çəkib kefini xəbər alırdım. Onun üçün narahat idim. Onun sakitliyi məni qorxudurdu. Mən onun ağlamasını, şikayət etməsini, yəni içini boşaltmasını istəyirdim. Amma o susurdu. Yasın yeddisini verib Bakıya qayıtmağa hazırlaşırdıq. Son dəfə qardaşıma baş çəkdim. Bir az ordanburdan söhbət etdik. Sonra səhhətini xəbər aldım. O, çox sakit tərzdə: "Daha yaşamağa utanıram", – dedi. Bu söz məni ildırım

kimi vurdu. Çünki bunu ikinci dəfə idi ki, olduğu kimi təkrar eşidirdim: bir əmimin dilindən, bir də qardaşımın. Onun üzünə baxdım, gözlərində tam bir laqeydlik vardı. Artıq onu həyata bağlayan ən incə tel belə qalmamışdı. O da əmim kimi ölmək istəyirdi. Nə deyəcəyimi bilmədim.

Bakıda yaşayan bacılarım da qohum-qonşuya mərasim təşkil etmək üçün Bakıya qayıtmağa hazırlaşırdı. Mən qardaşımla danışdıqdan sonra onların Bakıya qayıtmalarına razı olmadım. Açıq şəkildə qardaşımın daha yaşamayacağını bildirdim. 24 il qazilik ömrünü yaşayan, hər cür ağrıya, əzaba, çətinliyə dözən qardaşım 24 gün oğul itkisinə dözə bilmədi. Qazi kimi oğlunun ölümü ilə fəxr etdi, ata kimi bu itkidən qəhr oldu. Rasimin şəhidliyinin 24-cü günü bacı-qardaşın və yaxın qohumların əhatəsində həyata gözlərini yumdu. Bununla da öz cihad yolunu başa vurdu. Son anda onun üzündə heç vaxt görmədiyim bir rahatlıq, xoşbəxtlik, məmnunluq cizgiləri göründü. Qardaşım sanki ölməsindən çox razı qalmışdı. Ölüm onu həqiqətən xoşbəxt etmişdi. Çünki həyat yolunda olduğu kimi, ölüm yolunda da oğlu ilə yoldaşlıq edirdi...

SON SÖZ

Bu kitabı bağlayanda əslində hekayələr bitmir. Çünki bu sətirlərdə danışan insanlar – yaşamağa utanmış, ölməyə hazırlaşmış, taleyin qapısında dayanmış adamlar – hələ də bizim içimizdə yaşayırlar. Onların səsi susmur, sadəcə dərinliyə çəkilir. Hər oxucu öz həyatının hansısa anında bu səslə üz-üzə qalır.

Bu hekayələr nə qəhrəmanlıq dastanıdır, nə də faciə ədəbiyyatı. Bunlar insanın öz vicdanı ilə tək qaldığı anların izahıdır. Hər bir obraz öz ağrısını, öz qırılma nöqtəsini, öz həqiqətini daşıyır. Onların yaşadıqları bəzən bizim yaşamadıqlarımızdır; onların seçdikləri bəzən bizim seçə bilmədiklərimizdir.

Mən bu kitabı yazanda bir həqiqəti daha dərindən anladım:

İnsan bəzən ölməkdən yox, yaşamağın özündən utanır.

Çünki yaşamaq – sadəcə nəfəs almaq deyil. Yaşamaq ləyaqət tələb edir, cəsarət tələb edir, insanın özünə qarşı dürüst olmasını tələb edir. Bəziləri bu yükü daşıya bilir, bəziləri isə bu yükün altında əzilir.

Bu kitabda danışanların çoxu artıq həyatda deyil. Amma onların hekayələri yaşayır. Onların sükutu, onların qırılmış taleləri, onların yarımçıq arzuları bu səhifələrdə özünə yer tapıb. Mən sadəcə o səsi yazıya çevirdim.

Əgər bu kitabı oxuyarkən bir anlıq belə öz həyatınıza baxdınızsa, öz vicdanınızla danışdınızsa, öz qaranlığınıza işıq saldınızsa – deməli, bu hekayələr öz yolunu tapdı.

Çünki hər birimizin içində bir qapı var.

Kimimiz o qapını açmağa cəsarət edir, kimimiz qorxur, kimimiz isə onu aralı saxlayıb içəridən gələn işığa baxmaqla kifayətlənir.

Bu kitab həmin qapının qarşısında dayanıb düşünənlər üçündür.

Sərdar Cəlaloğlu

İÇİNDƏKİLƏR

Müəllifdən 3
ARTIQ ADAM..... 5
CƏZA 17
DİYƏ 26
GÜLSATAN OĞLAN 47
OYUN VƏ YA "ÜÇÜNCÜ ARTIQDIR" 56
ACI XURMA 81
YUXU 93
METAMORFOZ 114
SVİNQERLƏR ALƏMİ..... 123
YAŞAMAĞA UTANANLAR!..... 129
ÜRƏYİ DÖZMƏYƏNLƏR 131
"VƏTƏN QORUMAQ, YOXSA GİZLƏNMƏK?" 133
YAŞAMAĞA UTANANLAR 136
AĞAC KÖKÜ ÜSTƏ BİTƏR..... 137
YAXŞI BAŞLANĞICIN YAXŞI SONU..... 139
SON SÖZ 142